**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# "KİTABİ-DƏDƏ QORQUD" VƏ "BEOVULF" DASTANLARINDA TƏPƏGÖZ VƏ QRENDEL OBRAZLARININ TİPOLOGİYASI

**İxtisas** **5719.01- Folklorşünaslıq**

**Elm sahəsi** **Filologiya**

**Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən**

**D İ S S E R T A S İ Y A**


**İddiaçı:** **Rəqsanə Adişirin qızı VƏLİYEVA**

**Elmi rəhbər:** **Cəlal Əbil oğlu QASIMOV**
**Filologiya elmləri doktoru, professor**


**BAKI – 2021**

# M Ü N D Ə R İ C A T

**G İ R İ Ş**........................................................................................ 3

**I FƏSİL**

**“Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarının tipoloji xüsusiyyətləri**........................................ **9**

1.1. “Dədə Qorqud” və “Beovulf”un oxşar və fərqli xüsusiyyətləri........................................ 11

1.2. “Dədə Qorqud” və “Beovulf” dastanlarında süjet oxşarlığı.......................... ........................................ 38

1.3. “Dədə Qorqud” və “Beovulf” dastanlarında oxşar personajlar........................................ 65

**II FƏSİL**

**Təpəgöz və Qrendel obrazlarının tarixi - tipoloji əlaqələri**.................. 82

2.1. Təpəgöz və Qrendel obrazlarına mövcud elmi baxışlar...................... 82

2.2. Təpəgöz və Qrendelin yaranışı........................................................ 87

2.3. Təpəgöz və Qrendelin ailə bağları..................................................... 93

2.4. Personajların asimmetrik görkəmi - tək göz və tək qol ..................... 101

2.5. Qılınckəsməz Təpəgöz, Qrendel və onun anası................................ 114

2.6. Təpəgöz və Qrendel şərin təmsilçiləri kimi....................................... 129

**NƏTİCƏ**........................................................................................ 136

**ƏDƏBİYYAT**................................................................................ 143

# G İ R İ Ş

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarında Təpəgöz və Qrendel obrazlarının tipologiyası" probleminə həsr olunmuş bu tədqiqatın mövzusunun aktuallığı bir neçə əsas amillə şərtlənir:

*Birincisi, milli dastançılıq ənənəsinin öyrənilməsi amili:*

Dastan hər bir xalqın folklorunun ən möhtəşəm janrıdır. Bu janrın müxtəlif dillərdə necə adlanmasından (dastan, boy, epos, saqa, bılina və s.) asılı olmayaraq, hər bir xalqın öz tarixi boyunca əldə etdiyi milli-mənəvi dəyərlər, xalqın qəhrəmanlıq ruhu, həyata emosional-lirik münasibəti və s. öz monumental ifadəsini onun dastan yaradıcılığında tapır. Dastan şifahi xalq ədəbiyyatının, ümumiyyətlə, folklor yaradıcılığının həcmcə ən iri janrı olduğu kimi, poetik tutumu, məzmun diapazonu, forma genişliyi etibarilə də mükəmməl olub, xalqın şifahi yaradıcılığının bütün poetik-estetik gözəlliklərini özündə əks etdirir. Bu mənada dastanlar, o cümlədən "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanları da bədii-estetik, ideya-məzmun cəhətdən tükənməz potensiala malik abidələrdir. Folkorşünaslıq elmi bu abidələri tədqiq etdikcə onlar tədqiqatçıları yeni-yeni sirləri ilə təəccübləndirməkdə davam edir.

*İkincisi, dastanların tipoloji müqayisə kontekstində tədqiqi amili:*

Müqayisəli tipologiya folklorşünaslıq elminin daimi yanaşma istiqamətlərindən biridir. Müqayisə bütün hallarda tədqiq olunan obyekti daha geniş baxış müstəvisində götürməyə, bununla da öyrənilən məsələnin qaranlıq tərəflərini işıqlandırmağa imkan verir. "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarının zəngin tədqiq tarixi vardır. Bu abidələrin müqayisəli şəkildə öyrənilməsi onların poetikasının bir çox qaranlıq məsələlərinə yeni baxış imkanı verir. Azsaylı olsa da, bir sıra tədqiqatlarda hər iki abidənin müqayisəsi ilə ortaya çıxan yeni fikirlər bu iki dastanın tipoloji kontekstdə müqayisəsinin aktuallığını təsdiqləyir. Müqayisənin hər iki eposun mifoloji ağırlıqlı semantikaya malik Təpəgöz və Qrendel obrazlarının üzərində aparılması tədqiqatı konkretləşdirdiyi, elmi hədəfə müəyyənlik verdiyi kimi, öz mürəkkəb və sirli semantikası ilə tədqiqatçıları daim

düşündürən bu obrazların poetik məna aləminin diqqətdən qıraqda qalmış, yalnız müqayisə ilə üzə çıxa biləcək keyfiyyətlərini də aşkarlamağa imkan verir.

*Üçüncüsü, elmin qloballaşması şəraitində Azərbaycan folklorşünaslığının beynəlxalq elmi səviyyələrə çıxmaq zərurəti ilə yaranan amil:*

Qloballaşma həm də xalqların, millətlərin, mədəniyyətlərin sürətlə yaxınlaşması, qovuşması prosesidir. Bu prosesdə milli-mənəvi immuniteti, etnik-mədəni müdafiə sistemi zəif olan xalqların mədəniyyətləri başqa xalqların mədəniyyətləri içərisində əriyərək yox olur. Qloballaşmanın bu tərəflərindən qorunmağın yollarından biri milli-mənəvi dəyərlərin elm vasitəsilə müqayisəli kontekstdə təbliğidir. Bu cəhətdən "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarının müqayisəsi aktual elmi problemdir. Hər iki dastan dünya epos xəzinəsinin şah əsərlərindəndir. Onların müqayisəsi hər iki eposa yeni gözlə baxmağa imkan verdiyi kimi, "Kitabi-Dədə Qorqud"un dünya elmi səviyyəsində yerini daha da möhkəmləndirir.

Problemin öyrənilmə dərəcəsinə gəlincə isə, onu söyləmək olar ki, istər "Kitabi-Dədə Qorqud", istərsə də "Beovulf" dastanı ayrı-ayrılıqda geniş tədqiq olunmuşdur. Bu hər iki dastanın dünya eposunun məşhur abidəsi olması ilə bağlıdır. "Beovulf" haqqında kifayət qədər çoxsaylı araşdırmalar mövcuddur. Eləcə də "Kitabi-Dədə Qorqud" dünya türkologiyasında çox geniş şəkildə tədqiq olunmuşdur. Lakin bu abidələrin Azərbaycanda müqayisəli şəkildə öyrənilməsinə gəlincə bu sahədə Şahin Xəlillinin, Abbasəli Əhmədoğlunun, Nəsirova Günay İldırım qızının tədqiqatları olsa da [38; 127; 66], bu iki dastan geniş tipoloji müqayisə kontekstinə salınmamışdır. Bundan başqa, Könül Mustafayeva 2018-ci ildə ""Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarının semantik strukturu və rəng bildirən sözlərin simvolik mənası" mövzusunda filologiya üzrə fəlsəfə doktoru dissertasiyası müdafiə etmişdir. Bu tədqiqatda hər iki epos dil poetikası baxımından tədqiqə cəlb olunmuş, dastanların semantik strukturu – məna aləmi linqvistik semantika baxımından araşdırılmış, rəng bildirən sözlərin dil simvolikası tədqiq olunmuşdur [61]. Sözü gedən tədqiqat bizim tədqiqat mövzumuz, yəni "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarında Təpəgöz və Qrendel obrazlarının epik-mifoloji semantikasının öyrənilməsi baxımından aktuallıq kəsb

etmədiyi üçün biz bu tədqiqat haqqında geniş bəhs etməyi məqsədəuyğun hesab etmirik.

Qeyd edək ki, Arəstə Xudiyevanın 2019-cu ilə "Dədə Qorqud" jurnalında çap olunmuş 7 səhifəlik "Anqlo-sakson və Azərbaycan eposunda demonik obraz adlarının folklor semantikası: Qrendal və Təpəgöz" adlı məqaləsi bilavasitə bizim mövzumuzla bağlıdır [39]. Müvafiq məqamlarda nəticələrinə istinad edəcəyimiz bu məqalədə dəyərli faktlar və izahlar vardır. Tədqiqatda hər iki obrazın tipoloji müqayisəsi yalnız Qrendel və Təpəgöz obrazlarının adlarının folklor semantikasını əhatə edir.

Bu mənada dissertasiyanın əsas predmetini təşkil edən Təpəgöz və Qrendel obrazlarının monoqrafik aspektdə tipoloji müqayisəsi ilk dəfə bu dissertasiyada həyata keçirilir.[1]

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın qarşısında duran əsas məqsəd "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarında Təpəgöz və Qrendel obrazlarının müqayisəsidir. Bu əsas məqsəd aşağıdakı iki əsas vəzifənin yerinə yetirilməsini nəzərdə tutur:

- hər iki dastanın məzmun, süjet, ideya-bədii xüsusiyyətlərinin tədqiqi;
- yalnız iki obrazı ("Kitabi-Dədə Qorqud"dakı Təpəgöz ilə "Beovulf"dakı Qrendel) əhatə edən xüsusi müqayisənin aparılması;

**Tədqiqat metodları**. Müqayisəli-tipoloji metodla yazılmış bu dissertasiyanın nəzəri-metodoloji bazasını, əsasən, Azərbaycan alimlərinin milli dastanlarımızın tədqiq sahəsində əldə etdiyi elmi-nəzəri təcrübə təşkil edir. Bu təcrübə çox zəngindir. Belə ki, Azərbaycan alimləri "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi qəhrəmanlıq dastanları və məhəbbət dastanlarının öyrənilməsi sahəsində böyük işlər görmüş, zəngin nəzəri-metodoloji baza yaratmışlar. "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarına Təpəgöz və Qrendel obrazları əsasında tipoloji baxış da bu

[1] Qeyd edək ki, "Beovulf" dastanının Xeyrulla Xəyal tərəfindən qədim ingilis dilindən tərcümə edilməsi haqqında bilgilər əldə etmişik. Təəssüf ki, nəşri tədqiqatımızın aprobasiya dövründən sonraya təsadüf edən (2021-ci il) bu tərcümə əsəri satış dövriyyəsində olmadığı üçün onu nə kitab variantında, nə də elektron variantında əldə edə bilmədik. Odur ki, burada tərcümə haqqında məlumat verməklə kifayətlənir və onun barəsində gələcəkdə elmi məqalə ilə bəhs etməyi düşünürük.

bazaya əsaslanır və bu mənada ingilis folklorşünaslığının deyil, məhz Azərbaycan folklorşünaslığının baxışlarını əks etdirir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

1. "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarını eyni tipoloji sıraya qoyan əsas ictimai amil onların hər ikisinin ilk növbədə tarixin qədim dövrləri, ibtidai çağları ilə bağlılığıdır. Hər iki dastan iki dünyagörüşünün keçidinin izlərini özündə qoruyur.

2. Qədim oğuz və qədim anqlosakson dastanları arasındakı tipoloji səsləşmələr hər şeydən əvvəl bu iki dastanın qəhrəmanlıq eposu olması ilə bağlıdır. "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarının qəhrəmanlıq eposları olması onları ictimai düşüncənin eyni mərhələsinə bağlayır.

3. "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarını birləşdirən ən mühüm tipoloji məqam hər iki dastanda ictimai ideologiyaların əvəzlənməsinin əks olunmasıdır. "Beovulf"da bütpərəstlikdən xristianlığa keçid əks olunduğu kimi, "Dədə Qorqud"da şamanizmdən, tanrıçılıqdan islam dininə keçid aydın şəkildə müşahidə olunur.

4. "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanları da başqa bütün dastanlar kimi, formullar əsasında qurulmuşdur. Bu formullar müxtəlif süjet motivlərini ifadə edir. Həmin motivlər hər iki dastanı bir-biri ilə yaxınlaşdıran, birləşdirən tipoloji bağlardır.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyanın əsas elmi yeniliyi, ilk növbədə, onun predmetindən doğur. Belə ki, Təpəgöz və Qrendel obrazlarının tipoloji müqayisəsi ilk dəfə bu dissertasiyada həyata keçirilmiş və müvafiq elmi nəticələr əldə olunmuşdur.

"Dədə Qorqud" və "Beovulf" dastanlarının ümumi və xüsusi aspektlərdə müqayisəsi ilə bağlı bir çox yeniliklər əldə olunmuşdur. Onları, təqribən, aşağıdakı şəkildə çeşidləmək mümkündür:

– Hər iki dastan üçün xarakterik olan ümumi tipoloji cəhətlər müəyyənləşdirilmiş, öyrənilmiş və sistemləşdirilmişdir;

– Bu dastanlar süjet tipologiyası baxımından tədqiq olunaraq, onlar arasında “Şəcərə motivi”, “Yağmalama motivi”, “Şərab içib sərxoş olma motivi”, “Yuxu motivi”, “Vuruşmağa icazə istəmək motivi”, “Ozan motivi”, “Qılınc motivi”, “Nəsihət motivi”, “Əjdaha ilə döyüş motivi”, “Dəfn (kurqan) motivi” kimi ortaq motivlər müəyyənləşdirilmiş və onların tipoloji semantikası aşkar edilmişdir;

– Hər iki dastan üçün Qəhrəman, Müdrik və Qılınc obrazlarını birləşdirən tipoloji cəhətlər müəyyənləşdirilərək sistemləşdirilmişdir;

– Təpəgöz və Qrendel obrazlarına mövcud elmi baxışlar ümumiləşdirilərək, nəzəri tezislər halında sistemləşdirilmişdir;

– Təpəgöz və Qrendel obrazlarının yaranış tipologiyası baxımından öyrənilərək onların kosmoqonik mahiyyəti üzə çıxarılmışdır;

– Təpəgöz və Qrendel obrazları ailə sistemi daxilində öyrənilərək, bu sistemdə oynadıqları rollar üzə çıxarılmışdır;

– Bu dastanlarda tək göz və tək qol elementlərinin xaosun işarələri olduğu müəyyənləşdirilmiş və semantikaları öyrənilmişdir;

– Təpəgöz, Qrendel və onun anasının qılınckəsməzliyinin tipoloji semantikası müəyyənləşdirilmişdir;

– Təpəgöz və Qrendel obrazlarının şərin təmsilçiləri kimi fərdi-psixoloji və ümumi-tipoloji cəhətləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. İş nəzəri və praktiki əhəmiyyətə malikdir. Bu tədqiqat həm qorqudşünaslıq, həm də beovulfşünaslıq sahəsində nəzəri əhəmiyyəti olan araşdırmadır. Burada qədim oğuz və qədim ingilis qəhrəmanlıq dastanı obrazlarının müqayisəsi bu tipli gələcək tədqiqatlar üçün tipoloji müqayisə təcrübəsi verir.

İşin praktiki əhəmiyyətinə gəlincə ondan ali məktəblərin filologiya fakültəsində “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarının tədrisi zamanı əlavə dərs vəsaiti kimi istifadə etmək faydalı olar.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işi AMEA Folklor İnstitutunun “Klassik folklor” şöbəsində hazırlanmışdır. İşin bir sıra əsas nəticələri müəllifin

respublikada və respublikadan kənarda çap etdirdiyi 10 məqalə və məruzəsində öz əksini tapmışdır.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 8 səhifə, 8908 işarə, I fəsil – 73 səhifə, 122966 işarə, II fəsil – 55 səhifə, 83606 işarə, nəticə – 7 səhifə, 10946 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 226431 işarədir.

# I FƏSİL

## “KİTABİ-DƏDƏ QORQUD” VƏ “BEOVULF” DASTANLARININ TİPOLOJİ XÜSUSİYYƏTLƏRİ

“Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarında Təpəgöz və Qrendel obrazlarının tipologiyası, hər şeydən əvvəl, bu iki dastanın özünü bütövlükdə tipoloji baxımdan müqayisə etməyi tələb edir. Əslində, əvvəlcə həmin dastanları müqayisə etmədən Təpəgöz və Qrendel obrazlarının tipoloji müqayisəsi arzu edilən nəticələrə gətirməz. Daha doğrusu, qarşıya qoyulan məqsədə tam dolğunluğu ilə çatmağa imkan verməz. Təpəgözlə Qrendeli birgə təhlil etməzdən əvvəl “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarının özlərini dastan tipologiyası baxımından təhlil etmək zəruridir. Bu zərurət Təpəgöz və Qrendel obrazlarının məhz dastan obrazları, epos personajları olması ilə bağlıdır.

Hər bir dastan obrazının poetik mətndə öz yeri və rolu var. Bu rol bütöv dastanın poetik quruluşu, məna və mahiyyəti ilə bağlıdır. Həmin bağlılıq yazılı ədəbiyyatdakı bağlılıqdan fərqlənir. Yazılı ədəbiyyatda, məsələn, hekayədə, povestdə, romanda və s. əsərlərdəki surətlər yazıçı təxəyyülünün məhsuludur. Yazıçı hər bir obrazı yaratmaqda sərbəstdir. Lakin folklor yaradıcılığında, bu yaradıcılığın ən iri epik janrı olan dastandakı obrazlar yazılı ədəbiyyatdakı obrazlardan öz quruluşu, məna və mahiyyətlərinə görə kəskin fərqlənirlər. Bu fərq ondan irəli gəlir ki, dastanın istər bütöv mətninin, istərsə də hər bir obrazının sabit quruluşu var. Dastan obrazı yazılı ədəbiyyat obrazı kimi sərbəst yaradıcılıq hadisəsi deyildir. Əgər bir yazıçı obrazı istədiyi kimi yaratmaqda sərbəstdirsə, dastan yaradıcılığında belə bir sərbəstlik yoxdur. Hər bir obrazın epik məntiqlə müəyyənləşən yeri, quruluşu, mənası, vəzifəsi var. Dastanda (və ümumiyyətlə, folklor mətnində) təsadüfi, ixtiyari, sərbəst obraz ola bilməz. Bir yazıçı öz əsərində istədiyi qədər obraz yarada bilər. Lakin dastanda ixtiyari sayda obraz ola bilməz. Bu obrazların hər birinin öz vəzifəsi var. Əslində, obrazlar vəzifələri, funksiyaları əks etdirir. Məsələn, sadə şəkildə desək, əgər bir dastanda qəhrəman varsa, onda

hökmən onun düşməni, köməkçisi, sevgilisi, ailəsi, el-obası, xalqı da olmalıdır. Məhərrəm Cəfərli yazır ki, "*dastan başdan-ayağa formullar əsasında qurulur. Bu formullar daşlaşmış, donuq düsturlardır. Həmin düsturlar onu yaradan etnosun ilkin, qədim dünyagörüşləri ilə bağlı olmaqla irimiqyaslı zaman hüdudlarında biçimlənmə prosesi keçirmişdir. Bu baxımdan məhəbbət dastanı mətnində bədii epik mətnlərə məxsus olan hərəkət istiqamətlərinin dinamika sərbəstliyi qətiyyən yoxdur. Dastanın çox sərt pozulmaz strukturu var və heç bir dastançı bu strukturdan qırağa çıxa bilməz*" [15, s. 47-48].

Bu cəhətdən dastandakı obrazlar və ümumiyyətlə, bütün canlı-cansız personajlar bir-biri ilə sıx bağlıdır. Birinin varlığı o birinin varlığını şərtləndirir. Məsələn, "Kitabi-Dədə Qorqud"dakı Təpəgöz obrazının eposda öz mühüm vəzifəsi, zəruri şəkildə bağlı olduğu başqa obrazlar var. Təpəgəz obrazının tipolojiləşdirilməsi üçün təkcə onun özünü təhlil etmək kifayət etmir. Bu halda təhlil yarımçıq olur. Çünki Təpəgöz obrazından dastanın bütün əsas obrazlarına gedən mühüm və zəruri xətlər, tellər var. Bu tellər dastanın poetik ünsürlərini bütöv şəkildə bir-birinə bağlayaraq dastanı vahid və bütöv poetik sistem halına gətirir. Təpəgöz bir tellə Oğuz elinə, bir tellə Alp Aruza, bir tellə Basata, başqa tellərlə digər Oğuz qəhrəmanlarına və s. bağlanır. Təpəgözü bu tellərdən ayırıb təhlil etsək, onda onun tipologiyasını müəyyənləşdirmək mümkün olmaz. Çünki bu tellərin hər biri bir məna xətti deməkdir. Tipologiya isə bu mənaların ümumiləşdirilməsi yolu ilə üzə çıxır. Eyni sözü Qrendel obrazı və onun mənsub olduğu epik aləm – "Beovulf" dastanı haqqında da demək mümkündür.

Qrendellə onun mənsub olduğu "Beovulf" dastanının münasibətləri hissə ilə tamın münasibətlərinə bənzəyir. Tam hissələrdən təşkil olunur. Hissə nisbi bütövdür. O nə qədər bütöv olsa da, onun bir hissə kimi mənsub olduğu tam (bütöv) var. Bu hissəni bütövlə əlaqədə araşdırmadan hissənin mahiyyətinə enmək mümkün deyildir. Qrendel obrazını da bir hissə kimi araşdırmazdan əvvəl onun mənsub olduğu poetik sistemi ("Beovulf" dastanını) bir bütöv (tam) kimi araşdırmaq lazımdır.

“Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarının poetik tipologiyasının öyrənilməsi bu obrazların poetik sistemdəki yerini müəyyənləşdirməyə imkan verir. Deməк, Təpəgöz və Qrendelin “iç dünyasına” enməzdən əvvəl onların dastanın ümumi poetik sistemindəki yerini, rolunu müəyyənləşdirmək lazımdır.

Dastanın poetik sistemi müxtəlif ünsürlər və onların yaratdığı səviyyələrdən təşkil olunur. Bu səviyyələrdən ikisi əsasdır: süjet və obraz səviyyələri. Bütün qalan səviyyələr bu iki səviyyə ilə bağlıdır.

Ümumiyyətlə, hansı xalqa mənsub olmasından asılı olmayaraq, hər bir dastanın sabit süjeti və obrazlar sistemi olur. Süjet – hadisələrin düzümündən yaranan xətdir. Hadisələr obrazlarla bağlıdır: obrazların hərəkəti hadisələri yaradır və hadisələrin düzümündən bütöv süjet alınır. Lakin süjet və obrazlar nə qədər bir-biri ilə ayrılmaz şəkildə bağlı olsa da, bunlar fərqli poetik səviyyələrdir. Belə ki, obrazlar gerçəkliyi əks etdirən bədii elementlərdir. Hər bir epik obraz, adından göründüyü kimi, gerçəkliyin müəyyən ünsürünün surətidir. Süjet isə hadisələrin düzümündən yaranan xətt kimi fərqli səviyyədir. Odur ki, bunları ayrı-ayrılıqda nəzərdən keçirmək lazımdır.

Lakin birinci fəsildə bütün bu təhlilləri həyata keçirməzdən əvvəl müqayisə olunan dastanların ümumi təqdimata ehtiyacı var. Bu ümumi təqdimat bir ümumiləşdirmə kimi hər bir tipolojiləşdirmənin ilk pilləsidir.

Beləliklə, birinci fəslin qarşısında qoyulan əsas məqsəd “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarının poetik tipologiyasının müəyyənləşdirilməsidir. Bu məqsəd fəsildə üç əsas vəzifənin yerinə yetirilməsini tələb edir:

*Birinci,* müqayisə edilən dastanlara ümumi tipoloji baxış;

*İkinci,* müqayisə edilən dastanların süjet tipologiyasının tədqiqi;

*Üçüncü,* müqayisə edilən dastanların obrazlar sisteminin tipologiyasının tədqiqi.

## 1.1. “Dədə Qorqud” və “Beovulf”un oxşar və fərqli xüsusiyyətləri

Qeyd etmək istəyirik ki, biz bu fəsildə birinci yarımfəslin mövzusunu “Dədə

Qorqud" və "Beovulf"un oxşar və fərqli xüsusiyyətləri kimi müəyyənləşdirsək də, bu işi, əsasən, "Beovulf" dastanının üzərində gerçəkləşdirməyi düşünürük. Yəni biz burada, əsasən, "Beovulf" dastanının tipoloji xüsusiyyətlərindən çıxış edərək, "Kitabi-Dədə Qorqud"a müqayisəli-tipoloji kontekstdə nəzər salmağı məqsədəuyğun hesab edirik. Bunun səbəbi odur ki, müqayisə edilən dastanlardan "Kitabi-Dədə Qorqud"un bu fəsildə belə bir ümumi tipoloji baxışa ehtiyacı yoxdur. Çünki tədqiqatı apardığımız Azərbaycanda nəinki folklorşünaslar, filoloqlar, eləcə də xalqın əksəriyyəti bu məşhur abidə haqqında məlumatlara malikdir. Onu Azərbaycanda tanımayan, bilməyən yoxdur. Bu isə səbəbsiz olmayıb, dövlətimizin "Kitabi-Dədə Qorqud" abidəsi ilə bağlı apardığı məqsədyönlü mədəni siyasətin nəticəsidir. Müasir Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev demişdir: "*Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu, bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər də çox sevəcəkdir*" [24, s. 8].

Qeyd edək ki, Azərbaycanda H.Əliyevin bu çağırışı sözün həqiqi mənasında həyata keçirilmişdir. İndi, demək olar ki, hər bir azərbaycanlı bizim zəngin tariximizin, qədim mədəniyyətimizin və milli mənəvi dəyərlərimizin əks olunduğu "Kitabi-Dədə Qorqud"u xalqın ümumi sərvəti hesab edir və onunla haqlı olaraq fəxr edir. Nəinki ali məktəblərdə, eləcə də orta məktəblərdə geniş şəkildə tədris olunan bu dastanın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilir, onu özünün "ana kitabı" hesab edir [83, s. 568-570].

"Kitabi-Dədə Qorqud" dastanını "milli varlığımızın mötəbər qaynağı" hesab edən H.Əliyevin onu həm də Azərbaycan xalqının "ana kitabı" adlandırması poetik metaforadan daha çox, milli həqiqətin müdrik şəkildə ifadəsidir.

Hər bir milli epos onu öz bədii təfəkkürü ilə yaradan xalqın milli mədəniyyətinin və milli kimliyinin mühüm tərkib hissəsidir. Hər bir xalqın eposu onun milli mədəniyyətinin əsas göstəricilərini özündə təcəssüm etdirməklə yanaşı, onu yaradan xalqın milli kimlik dəyərlərini də özündə cəmləşdirir. Məsələn, dünyanın çox nəhəng epos-dastanları var: hindlilərdə "Mahabharata", "Ramayana", yunanlarda "İliada", "Odisseya", ruslarda "İqor polku haqqında dastan", farslarda "Şahnamə", almanlarda "Ziqfrid", anqlosakslarda "Beovulf" və s. Bu eposları səciyyələndirən əsas keyfiyyət onların, ilk növbədə, milli olan dəyərləri daşımasıdır. Şifahi xalq yaradıcılığının, folklor düşüncəsinin məhsulu olan bu dastan-eposlar onu yaradan xalqların tarixinə güzgü tutmaqla, bu xalqların, bir növ, şifahi tarix kitabı olur. Lakin bu "tarix kitabını" xalqın siyasi tarix kitablarından fərqləndirən əsas cəhət ondan ibarətdir ki, bu, bədii sözlə yaradılan tarix kitabıdır. Ona görə də milli eposlar bir "ana kitabə" kimi xalqın yaratdığı bütün digər mədəniyyət abidələrindən fərqli olaraq, xalqın, millətin, bir növ, milli pasportu sayılır. Deyilənləri səciyyələndirmək baxımından yazıçı Anarın ulu abidəmiz "Kitabi-Dədə Qorqud" haqqındakı fikirləri əhəmiyyətlidir. O yazır: "*Hər hansı xalq – ədəbi irsi nə qədər zəngin olsa da – bir, ya iki əsas kitaba, təməl kitaba, Ana kitaba malikdir. ...Azərbaycan xalqının şah əsəri, Ana kitabı Dədə Qorqud dastanıdır*" [10, s.11].

Bəkir Nəbiyev və Yaşar Qarayev də bu dastanı milli mədəniyyətimizin ən möhtəşəm abidəsi kimi təsdiq edərək göstərirlər ki, *"Kitabi-Dədə Qorqud" oğuz xalqlarının şah əsəri, ata kitabıdır, Azərbaycan mentalitetinin, bütün türk dünyasının yaradıcı dühasının hələlik əldə olan ilk ən böyük və ən mükəmməl bədii ifadəsidir*" [64, s.16-17].

Alimlərin "Kitabi-Dədə Qorqud"un nümunəsində epos-dastana verdikləri bu qiymət təsadüfi deyil. Milli eposların ən ümdə bədii-estetik keyfiyyəti onların milli tarixi zaman və məkan baxımından fövqəladə dərəcədə intəhasız – hüdudsuz şəkildə əhatə etməsidir. Milli eposlar keçmiş dövrün abidələri olsa da, onlarda xalqın keçmişi, indisi və gələcəyi yan-yanaşıdır. Yəni milli epos səviyyəsinə qalxmış hər hansı dastan onun yaradıcısı olan xalqın təkcə keçmişini əks etdirmir,

bu gününə və gələcəyinə də işıq tutur. Bunları ifadə etmək baxımından, bizcə, Yaşar Qarayevin "Kitabi-Dədə Qorqud" dastanı haqqında dediyi - "*Min üç yüz ildir ki, Qorqud xalqın qan və gen yaddaşı kimi yaşayır ...*" fikri aktual və səciyyəvidir. [53, s. 4].

Bütün bu deyilənlər müqayisəli-tipoloji tədqiqat obyekti kimi götürülmüş "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarının tipologiyasına eyni dərəcədə aiddir [85, s. 30-34]. Bu dastanların hər ikisi milli epos statusunu daşıyır. Birincisi oğuz xalqlarının qəhrəmanlıq dastanı olmaqla oğuzların ana kitabı, ikincisi anqlosaksonların ana kitabıdır. Oğuzlar – müasir oğuz xalqlarının, anqlosaksonlar da uyğun olaraq müasir anqlosakson xalqlarının ulu babalarıdır. "Beovulf" haqqında ümumiləşdirilmiş ensiklopedik məlumatlarda deyilir ki, bu dastan anqlosakson epik poemasıdır. Hadisələr anqlların Britaniyaya köçməsinə qədərki dövrdə Skandinaviyada cərəyan edir. Belə hesab olunur ki, dastan, təqribən, VII əsrin sonu – VIII əsrin əvvəllərində yazılıb. Eposun qədim ingilis dilində olan yeganə nüsxəsi XI əsrə aiddir [150; 101, s. 168].

"Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarına ümumi tipoloji baxış ilk növbədə bu dastanların nəyə görə milli epos hesab olunması məsələsinə toxunmağı tələb edir. Qeyd edək ki, "dastan", yaxud "epos" terminləri haqqında çoxlu fikirlər söylənmişdir. Biz, əlbəttə, mövzumuzdan asılı olaraq onların hamısından burada bəhs açmağı artıq hesab edib, bir sıra səciyyəvi fikirlərə toxunacağıq. Nizami Cəfərov yazır ki, *"epos", sadəcə, dastan deyil, mənsub olduğu xalqın düşüncələrini ifadə edən dastan – potensiyadır* [16, s. 12].

Yuxarıdakı fikir məlum edir ki, "epos" "dastan"a nisbətən iri anlayışdır. Bir dastanın həm də epos ola bilməsi üçün müəyyən şərtlər lazımdır. Bu şərti Yeganə İsmayılova qısa şəkildə belə müəyyənləşdirmişdir: "*Epos" milli kitab səviyyəsinə qalxan dastandır*" [44, s. 30].

Y.İsmayılova öz qənaətini Azərbaycan dastançılıq ənənəsinin möhtəşəm eposları olan "Kitabi-Dədə Qorqud" və "Koroğu" dastanlarının nümunəsində belə şərh etmişdir: "*Azərbaycan eposu bütün poetik tutumu, epik estetikası ilə ümumtürk eposunun tərkib hissəsidir. Bu cəhətdən ümumtürk eposunun minillər boyu özünü*

*gerçəkləşdirmiş qanunauyğunluqları milli eposumuzda, o cümlədən "Koroğlu" eposunda özünü göstərməkdədir.* [43, s. 22].

Bu deyilənlərdən belə bir nəticə çıxarmaq olur ki, bir dastan xalqın müqəddəs şifahi tarix kitabı səviyyəsinə qalxanda epos statusunu əldə edir. Buradan o nəticə də çıxır ki, bir xalqın bütün dastanları milli epos səviyyəsinə qalxa bilmir. "Kitabi-Dədə Qorqud" və "Koroğlu" müxtəlif tarixi şəraitlərdə xalqımızın milli eposları zirvəsini fəth etmiş dastanlardır. Qədim ingilis dilində yaradılmış "Beovulf" dastanı da qədim anqlosaksonların müasir varisləri olan ingilisdilli xalqların milli eposu zirvəsini fəth etmiş möhtəşəm epik poemadır.

"Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarına ümumi tipoloji baxış bu dastanların məzmununa da nəzər salmağı tələb edir. Ancaq "Dədə Qorqud"un məzmunu mütəxəssislərə yaxşı məlum olduğu üçün burada faydasız təkrara yol verməyib, diqqəti "Beovulf" dastanının məzmunundakı əsas tipoloji məqamlara yönəldəcəyik.

Dastan Danimarka kral sülaləsinin banisi Skildin dəfninin təsviri ilə başlanır. Burada onun bir rəhbər kimi ləyaqətli xüsusiyyətləri tərənnüm olunur. Bundan sonra poemanın əsas hekayəsi başlanır. Dastanda deyilir ki, Danimarka kralı Hrodqarı Qrendel adlı nəhəng bir div təqib edir. O, gecələr kralın Herot adlanan qəsrinə qəfildən daxil olur və onun döyüşçülərini öldürərək yeyir. Hautların knyazı Beovulf Hrodqarın başına gələn bədbəxtlikdən xəbər tutur və özünün seçmə cəngavərlərdən ibarət dəstəsi ilə krala köməyə gəlir. O, bununla həm də şöhrət qazanmaq istəyirdi. Təkcə bir əlində otuz adamın gücü olan Beovulf yer üzündə ən güclü adam idi. Ona görə də onu Herotda sevinclə qarşılayırlar.

Div Qrendel həmin gecə də saraya gəlir. Beovulf onun bir əlini qopararaq Qrendeli ölümcül yaralayır. Bu hadisə xalqın şadlığına səbəb olur. Kral Hrodqar axşam Beovulfun şərəfinə böyük bir ziyafət təşkil edir və ona bahalı hədiyyələr verir. Lakin həmin gecə Qrendelin anası intiqam almaq üçün Herot qəsrinə hücum edir və kral Hrodqarın baş məsləhətçisini aparır. Beovulf ana divin yaşadığı gölə baş vurur. Onlar suyun altında döyüşürlər, div, az qalır ki, Beovulfu öldürsün. Ağır döyüşün sonunda Beovulf gölün dibindəki sehrli qılıncın köməyi ilə Qrendelin

anasını öldürür, Qrendelin özününsə başını kəsərək suyun üzünə qalxır. Danimarka ölkəsi divlərdən azad olur. Onun qəhrəmanlığına çox sevinən və getməsinə göz yaşı tökən kral Hrodqar Beovulfa məsləhət görür ki, bu qəhrəmanlıq onu təkəbbürlü etməsin və o, özünü lovğalıq günahından qorusun.

Beovulf Hautlandiyaya qayıdır, öz qəhrəmanlıqları haqqında əmisi kral Hiqelaka danışır. Əlavə edir ki, tezliklə Danimarkaya hücum olacaq. O, daha sonra Hrodqarın ona verdiyi hədiyyələri əmisinə verir və əvəzində torpaq və var-dövlət alır.

Əmisi Hiqelak və əmisi oğlu Hardredin ölümündən sonra Beovulf kral olur. O, əlli il ölkəni sülh və əmin-amanlıq içərisində idarə edir. Lakin bir gün bir oğru mağarada gizlədilmiş xəzinəni qoruyan yatmış əjdahanı yuxudan oyadır. Beovulf öz döyüşçüləri ilə əjdahanın mağarasına gedir. O, burada elan edir ki, əjdaha ilə təkbətək döyüşəcək. Əjdaha ağzı ilə od püskürüb Beovulfu yandırır. Bütün döyüşçülər qorxub qaçırlar. Təkcə gənc cəngavər Viqlaf qorxmur, odun içindən keçib ağasının köməyinə gəlir. Əjdahanın başına güclü zərbə endirən Beovulfun qılıncı qırılır. Bu dəm əjdaha onun boğazını gəmirir. Viqlaf əjdahanın qarnını yırtır, ölümcül yaralanmış Beovulf isə onu məhv edir.

Beovulf Viqlafdan xahiş edir ki, o, xəzinəni mağaradan çıxarsın. O, sevinir ki, xalqı yaxşı idarə etdi, indi rahat ölə bilər. Lakin təəssüflənir ki, varisi yoxdur. Beovulf Viqlafa onu necə dəfn etməyi tapşıraraq ölür. Qorxaq əsgərlər qayıdırlar. Viqlaf onlara lağ edir.

Beovulfu adətə görə tonqalda yandırırlar, külünü isə xəzinə ilə birlikdə dənizin sahilindəki kurqanda qoruyurlar [151].

"Beovulf" dastanının bu qısa süjeti ilk baxışdan "Kitab-Dədə Qorqud"la səsləşmir. Lakin dastana bir qədər dərindən diqqət etdikdə bu iki dastan arasında nəinki tipoloji oxşarlıqlar, hətta heyrət doğuracaq dərəcədə yaxınlıqlar vardır. Bu cəhət hər iki dastanı müqayisəli-tipoloji kontekstdə tədqiq etmək üçün zəngin material verir. Buna əsaslanan Şahin Xəlilli yazır ki, *"Kitab-Dədə Qorqud" və "Beovulf" dastanları arasında oxşar motivlərin müəyyənləşdirilməsi və digər aspektlərin oxşar qanunauyğunluqlarının elmi şərhinin verilməsi dastanlarda*

*müəyyən hallarda iqtibas və ədəbi təsirin tarixi köklərinin araşdırılıb müəyyənləşdirilməsində çox vacib və əhəmiyyətli bir məsələdir*" [38, s. 138-139].

Əlbəttə iqtibas nəzəriyyəsi və ədəbi təsir məsələsi dünya eposlarındakı oxşar motivlərin izahında yanaşma aspektlərindən biri olsa da, biz tipoloji yanaşmaya üstünlük verəcəyik. Çünki bizim tədqiqatımızın qarşısında duran əsas məqsəd "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarının tarixi-mədəni köklərinin araşdırılması yox, bu dastanların tipoloji müqayisəsinin aparılmasıdır. U.Foxt tipoloji əlaqə anlayışı haqqında yazır ki, *onlar ədəbi hadisələr arasında qohumluq şərtləri, yaxud ictimai və ideoloji gerçəkliyin eyniliyi şəraiti ilə müəyyənləşən obyektiv əlaqələr, "oxşarlıqlardır*" [120, s. 414].

V.Jirmunski türk və german dastanları arasındakı tipoloji oxşarlıqların kökləri haqqında göstərir ki, "*bir çox motivlərin tipoloji oxşarlıqları və bununla belə onların nisbətən inkişaf etdirilən mürəkkəb süjetləri son nəticədə oxşar ictimai həqiqətlərin bədii ümumiləşdirilməsinə və ictimai şüurun eyni səviyyədə inkişafına əsaslanmışdır"* [102, s.138].

Biz də öz növbəmizdə U.Foxt və V.Jirmunskinin fikirlərinə əsaslanıb söyləyə bilərik ki, "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanları arasındakı tipoloji əlaqələr də ədəbi hadisələr arasında ictimai və ideoloji gerçəkliyin eyniliyi şəraiti ilə müəyyənləşən obyektiv əlaqələr, "oxşarlıqlardır". Bu cəhətdən Təpəgöz və Qrendel obrazlarının "oxşarlıqları" da oxşar ictimai həqiqətlərin bədii ümumiləşdirilməsinə və ictimai şüurun eyni səviyyədə inkişafına əsaslanan tipoloji oxşarlıqlardır.

Burada tipoloji oxşarlığı müəyyənləşdirən "ictimai və ideoloji gerçəkliyin eyniliyi şəraiti" dedikdə milli dastanların formalaşdığı tarixi-mədəni şərait nəzərdə tutulur. Bu cəhətdən "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarını eyni tipoloji sıraya qoyan əsas ictimai amil onların hər ikisinin tarixin qədim dövrləri, ibtidai çağları ilə bağlılığıdır. Hər iki dastan iki dünyagörüşünün keçidinin izlərini özündə qoruyur. S.M.Boura yazır ki, *"Beovulf" Avropanın "varvar" xalqlarının qorunub qalmış yeganə poemasıdır. Dastanın bünövrəsi xristianlığın qəbul edilməsinə qədər formalaşmışdır. Poemada bütpərəstliyin döyüşdə qorxmazlıq, tayfa və onun*

*rəhbərinə sədaqət, düşməndən amansız intiqam kimi dəyərləri tərənnüm olunur... "Beovulf"da xristianlığın təsiri, üzdən olsa da, hiss olunur. Məsələn, əsərdə Qrendel Kainin nəslindən adlandırılır. Qeyd etməyə dəyər ki, poemada yalnız "Əhdi-Ətiqə" isnadlar var*" [97, s. 615].

Göründüyü kimi, "Beovulf" dastanında bütpərəstlik dövrünün dünyagörüşü ilə xristianlıq dünyagörüşü bir-birinə qovuşmuşdur. Dastanda xristianlıq əsərin üst qatını təşkil edir. Bu, o deməkdir ki, dastan əski dövrlə, bütpərəstlik ideologiyası, mifoloji dünyagörüşü ilə bağlıdır. Burada mifdən xristianlığa keçid var. A.Y.Qureviç bu keçiddən bəhs edərək göstərir: *"Belə bir fikir irəli sürülmüşdür ki, Skandinav köklərinə malik bu anqlosakson eposunun ən qədim qatında nağıl qəhrəmanı... haqqında süjet durur. Eposun yazılı redaksiyasına (*variantına – R.Vəliyeva*) xristian təsiri öz möhürünü vurmuşdur: mifologiya və nağılın ilkin obrazları burada artıq dəyişmişdir. Məsələn, Qrendel və onun anasına iblisanə cizgilər verilmiş, Beovulfun özünə isə xristianlıqdakı xilaskar obrazının cizgiləri verilmişdir*" [101, s. 168].

Göründüyü kimi, Avropanın tarixində xristianlıqla başlanan yeni dünyagörüşü epoxası milli düşüncə və mədəniyyətdə köklü dəyişikliklər yaratdığı kimi, milli eposlar da bu təsirə məruz qalır. Əslində, eposların yeni dona – xristianlığa bürünməsi yaşam uğrunda mübarizədən doğurdu. Çünki xristianlıq özündən əvvəlki dünyagörüşü və mədəniyyəti dinsizlik, allahsızlıq adı altında rədd edirdi. Bu amansız ideoloji mübarizə prosesində müqavimət göstərən hər bir ünsür məhv edilirdi. Bu halda hər hansı ənənənin, o cümlədən "Beovulf" dastanının öz yaşamını sürdürməsi, davam etdirməsi üçün xristianlığa uyğunlaşmaqdan başqa yolu yox idi. "Beovulf" qədim anqlosakson dastançılıq ənənəsi kimi cəmiyyətdə, mədəni şüurda dərin köklərə malik idi. Bu köklər, sadəcə, silinib, yox olub gedə bilməzdi: böyük bir ənənə var idi. Anqlosakson ictimai şüurunun dərin qatlarına bağlılıq "Beovulf"u yaşadan gizli etnik enerji idi. İctimai şüurda yaşayan bu epik enerji dastanı yeni dövrün ideologiyasına (xristianlığa) uyğunlaşdıraraq onu ölməyə qoymadı. Qrendelin "Əhdi-Ətiq"lə bağlı Avel-Kain ənənəsinə bağlanması,

eləcə də əsərdə Qrendel və onun anasına xristianlıq ruhunda iblisanə cizgilərin verilməsi bununla bağlıdır.

Xristian ənənəsində Avellə Kain qardaşdır və Kain Aveli öldürür. Bu islamdakı Habillə Qabil hədisinin eynidir. Xristianlığın qəbulu ilə Avel-Kain hədisi “Beovulf” dastanına daxil olduğu kimi, islamın qəbulu ilə də onun sakral dəyərləri, Habillə Qabil hədisi olmasa da, başqa müqəddəs obraz və hədisləri “Kitabi-Dədə Qorqud” dastanına daxil olur. Hər iki dastana xas olan bu iki cəhət onları eyni tipoloji sıraya qoymaqla bizi bunun səbəbləri üzərində düşünməyə vadar edir. Burada nəinki “Beovulf” və “Kitabi-Dədə Qorqud” dastanlarında, eləcə də dünyanın bir sıra məşhur eposlarında müşahidə olunan bir tipoloji qanunauyğunluq özünü göstərir. Buna toxunmadan keçmək hər iki dastana ümumi tipoloji baxışı yarımçıq gerçəkləşdirmək olar.

Müəlliflər kollektivi yazır ki, *“ümumiyyətlə, daha güclü ideologiya köhnə ideologiya üzərində qələbə çalanda hər vəchlə yaşamaq uğrunda çarpışan köhnə özünü yeniyə uyğunlaşdırmalı olur. Məsələn, qədim Rus IX əsrdə xristianlığı qəbul etdi. Bütpərəstlik inancları qadağan olundu və bu zaman slavyan miflərinə aid bütün yazılar amansızcasına məhv edildi. Pravoslav kilsəsi yerli mühitə uyğunlaşaraq, bütpərəstlik tanrılarına sitayişlə bağlı olan bayramları xristian müqəddəslərinin kultları ilə birləşdirdi”* [112, s. 83].

Bütpərəstliyin, mifoloji dünyagörüşünün dini dünyagörüşü ilə əvəzlənməsi bəşər tarixində universal ideoloji hadisədir. Bu proses ictimai şüurda daha çox politeizmdən monoteizmə keçid şəklində baş vermişdir. Politeizm – çoxtanrıçılıq, monoteizm – təktanrıçılıq deməkdir. Əksərən qanlı ideoloji mübarizələrlə müşayiət olunan bu keçid zamanı politeist dəyərlər tamamilə yox olmamış, yeni monoteist dəyərlərə uyğunlaşaraq özünü qorumuşdur. Məsələn, XIX əsr qırğız maarifçisi Çokan Vəlixanov şamançı qırğızlar arasında islamın yayılmasından bəhs edərkən göstərir ki, “*müsəlmanlıq savadsız əhali arasında mollasız kök ata bilmir, əvvəlki şaman anlayışlarını özündə gizlədən bir səs, ibarə olaraq qalırdı. Bu səbəbdən məna deyil, adlar, sözlər dəyişməyə məruz qalırdı. Onqonu – arvax, Köktenqrini –*

*Allah, yaxud Xuda, yer ruhunu – şeytan, pəri, div və cin adlandırsalar da, ideyanın özü şamançılıq olaraq qaldı* [98, s. 49].

Səciyyəvidir ki, orta əsr şərq-müsəlman tarixçilik elmində də mifik görüşlərlə islami görüşlər bu şəkildə bir-birinə uyğunlaşdırılmışdır. Məsələn, XVII əsr oğuz-türkmən tarixçisi Əbülqazi Bahadır xanın "Şəcəreyi-tərakimə" əsərində oğuzların ulu əcdadı Oğuz xanın mifik şəcərəsi xristianlıq və islamın Adəm peyğəmbərdən başlanan ümumbəşəri şəcərəsi ilə birləşdirilmişdir. Əbülqazi Oğuz xanın Adəm peyğəmbərdən başlanan nəsil şəcərəsini belə təqdim edir:

*Adam – min yaş. Şeys – 912 yaş. Anuş – 912 yaş. Kina – 840 yaş. Mixlail – 920 yaş. Berd – 960 yaş. Exnox (ayaması – İdris) – 82 yaş. Matuşaleh – yaşı bəlli deyil. Leymek – yaşı bəlli deyil. Nuh – 700 yaş. Yafəs – Cudi dağını tərk edəndən sonra 250 il yaşamışdır. Türk – yaşı bəlli deyil. Tütək – 240 yaş. Amulca – yaşı bəlli deyil. Bakuy Dib xan – yaşı bəlli deyil. Gök xan – yaşı bəlli deyil. Moqol xan – yaşı bəlli deyil. Qara xan – yaşı bəlli deyil. Oğuz xan – yaşı bəlli deyil, padşahlığı: 116 il* [22, s. 47-51].

Oğuzun şəcərəsi əfsanəvi-mifik tarix, Adəm peyğəmbərdən başlanan şəcərə isə dini tarixdir. Orta əsrlərdə müsəlman-türk tarixçilərinin əsərlərində bu iki tarix (miflə din) bir-biri ilə birləşərək vahid, universal, ümumbəşəri tarixə çevrilir.

"Beovulf" dastanında mifik bütpərəstlik ənənələri xristianlıqla qovuşduğu kimi, "Kitabi-Dədə Qorqud"da da qədim mifik görüşlər, tanrıçılıq dünyagörüşü islamla qovuşmuşdur. Bu qovuşma dastanın poetik strukturunun ən müxtəlif qatlarına qədər sirayət edərək, dastanın yeni poetik keyfiyyətə keçməsini təmin etmişdir. Cəlal Qasımov bütpərəstlik görüşləri ilə islami görüşlərin qovuşmasına diqqət edərək yazır ki, *"gerçəklik oğuzlu düşüncəsində bütöv bir dünyadır. Bu dünyanın quruluşu bütün ənənəvi mədəniyyətlərdə olduğu kimi, "özümüz-özgələr" modeli əsasında təşkil olunmuşdur. Ata ilə oğulun (Salur Qazanla onun oğlu Uruzun – R. Vəliyeva )* dialoqunda həmin modelin iki tarixi kateqoriyası ilə qarşılaşırıq : "kafər" və "yağı". Bu iki anlayış oğuzlunun yaşadığı dünyanın iki mühüm əsasını ortaya qoyur: 1.Geopolitik əsas; 2. Tarixi əsas [54, s. 202-203];

Göründüyü kimi, "Kitabi-Dədə Qorqud"da ilkin mifoloji görüşlər təkcə qalıqlar şəklində qorunub qalmamışdır, dastanda mifik obrazlar, süjetlər, bütpərəstlik motivləri ilə islam dini iç-içə qovuşmuş vəziyyətdədir. Bunu tədqiqatlar artıq təsdiq etmişdir. Ş.Xəlilli "Beovulf"un ingilis tədqiqatçısı T.A.Şippeyin (T.A.Shippey) dastanda bütpərəst və xristian görüşlərinin əks olunması haqqındakı fikrinə [143, s. 43] əsaslanaraq yazır ki, "*islamiyyətdən əvvəl yaranmış, sonralar yazıya köçürülmüş "Kitabi-Dədə Qorqud" dastanında şamanizm və İslam ünsürlərinin bir-bir ilə sıx əlaqədə verildiyi müəyyən tarixi şəraitin nəticəsidir"* [38, s. 139].

"Dədə Qorqud"un ingilis tədqiqatçısı Cefri Lüis (Geoffrey Lewis) göstərir ki, *"Dədə Qorqud" hekayətlərinə İslam dini boyalarının vurulmasına baxmayaraq, onlar keçmişin ən əski təcrübələri ilə doludur və bu hekayətlərin bəziləri (*bizi – R.Vəliyeva*) türklərin dininin şamanizm olduğu zamanlara aparıb çıxarır* [147, s. 11].

"Dədə Qorqud"un başqa bir ingilis tədqiqatçısı P.Mirable yazır ki, *"Kitabi-Dədə Qorqud" şamançı tanrılara böyük minnətdarlıq hissini ifadə edən fədakarlıq mücəssiməsi sayıla bilər"* [135, s.14].

Bəhlul Abdulla belə hesab etmişdir ki, *"dastan yazıya alındığı vaxt ona İslam dini elementləri gətirilmişdir. Bunu hətta Qorqudun "Dədə" ünvanı daşıması da təsdiqləyir. "Kitabi-Dədə Qorqud"un ikinci formalaşma dövrü İslam mədəniyyəti vaxtına düşür*" [1, s. 176].

Nizami Cəfərov isə bu qovuşmanı qanunauyğun ideoloji proses kimi səciyyələndirərək yazır ki, *"Kitabi-Dədə Qorqud"da İslam dini motivləri, bir sıra araşdırıcıların dönə-dönə qeyd etdikləri kimi, sonradan edilmiş əlavə (katib əlavəsi!) deyildir, əksinə, "Kitab"ın ideya-estetik, poetik əsaslarından biridir. Və hətta müqayisələr, təhlillər göstərir ki, müxtəlif dövrlərdə (görünür, təxminən I-V əsrlərdə), oğuz türklərinin yaşadığı müxtəlif ərazilərdə (xüsusilə Türküstanda) yaranmış süjetlər həm də İslamın qəbulu ehtiyacı, yaxud İslam ideologiyası əsasında bir yerə yığılmış, bütöv bir dastana çevrilmişdir*" [17, s. 178-179].

B.Abdulla və N.Cəfərovdan verdiyimiz bu fikirlərdə üst-üstə düşən bir məqam mövzumuz baxımından çox mühümdür. Belə ki, hər iki müəllif iki "Dədə Qorqud" dastanından danışır. Bunlardan biri şifahi ənənədə mövcud olan, digəri isə yazılı şəkildə qeydə alınmış, kitablaşdırılmış "Dədə Qorqud"dur. Məsələ burasındadır ki, nə qədim ingilis dastanı olan "Beovulf", nə də qədim oğuz dastanı "Kitabi-Dədə Qorqud" bizə şifahi şəkildə yox, məhz yazılı dastan şəklində gəlib çatmışdır. Bu cəhət, yəni hər iki dastanın əlyazmada gəlib çatması onları eyni tipoloji cərgəyə qoyduğu kimi, "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarının ümumi tipoloji cəhətlərinin müəyyənləşdirilməsi kontekstində də mühüm amildir.

Dastanın şifahi variantını "Dədə Qorqud eposu", yazılı variantını isə əlyazmada olduğu kimi, "Kitabi-Dədə Qorqud" adı altında müqayisəyə cəlb edən N.Cəfərov yazır ki, *"Dədə Qorqud" eposu"nun təşəkkülü (VII-IX əsrlər) ilə son əlyazmaların təzahürü (XV-XVI əsrlər) arasında, təxminən, min ilə qədər bir məsafə var – həmin dövrün bütün mərhələləri deyil, yalnız ilk mərhələləri "Kitab"da dolğun əksini tapır, sonrakı mərhələlər daha çox "katib əlavələri" hesabına faktlaşır*" [16, s. 63].

N.Cəfərovun fikrinə əsaslansaq, VII-XVI əsrləri əhatə edən min illik dövrün "ilk mərhələləri", təqribən, VII-XI əsrləri əhatə edir. Bu "ilk mərhələ" tarixi hadisələrlə zəngindir: islamın meydana çıxması, oğuz səlcuqların cənub-qərbə doğru yürüşləri, islamla təması, müsəlmanlaşması və s. Bu mərhələ keçid dövrüdür. "Dədə Qorqud" şifahi ənənədən yazılı ənənəyə keçməklə bu tarixi, N.Cəfərovun dili ilə desək, "faktlaşdırır".

Ağaverdi Xəlilin tədqiqatlarından məlum olur ki, yazılı "Dədə Qorqud" dastanı üç yazı mərhələsindən keçmişdir. O, həmin mərhələlər haqqında yazır:

*"1. "Bitik"... Türk Tanrıçılığı dövrünə aid qədim türk kitabı...*

*2. "Namə". Orta əsrlər türk kitabı...*

*3. "Kitab". İslam epoxasının türk kitabı*" [121, s. 228].

Qeyd edək ki, A.Xəlilin yazılı "Dədə Qorqud" dastanının üç yazı mərhələsindən keçməsi haqqında bu arqumentləşdirilmiş fikri bizi düşünməyə və nəticə çıxarmağa vadar edir. Müəllifin verdiyi son iki mərhələ ("namə" və "kitab"

mərhələləri), heç şübhəsiz, islamdan sonrakı mərhələlərdir. Lakin üç tipindən (1. Tanrıçılığın müqəddəs kitabı olan “Bitik”; 2. Şaman magik mətnlərindən ibarət “Bitik”; 3. Folklor mətnlərindən ibarət “Bitik”) bəhs etdiyi “Bitik” mərhələsi isə islamdan öncəki mərhələdir. Bu, sırf oğuz-türk yazı ənənəsidir. Müasir Azərbaycan dilində “cadu-pitik” mürəkkəb sözünün tərkibində işlənən “bitik” sözünün mənası elə “yazı” deməkdir. Onda bu halda belə bir qənaətə gəlmək olar ki, “Dədə Qorqud” dastanının yazı mərhələsi “Kitab”la (“Kitabi-Dədə Qorqud”la) başlanmır, daha qədimlərə gedib çıxır. Özü də həmin dövrlərdə eposun “bitik” (“yazı”) adı ilə adlanması bu dastanın qədim türk əlifbası ilə yazıya alındığını (“bitik”ləşdirildiyini – “yazı”laşdırıldığını) burada ehtimal etməyə də əsas verir.

“Kitabi-Dədə Qorqud” dastanının iki əlyazma nüsxəsi var: 12 boydan ibarət Drezden və 6 boydan ibarət Vatikan nüsxəsi. F.Zeynalov və S.Əlizadə yazırlar ki, *“Kitabi-Dədə Qorqud”un bizə məlum olan ilk nüsxəsi Drezdendə Kral kitabxanasında aşkar edilən 154 səhifəlik əsərdir. Hər səhifədə 13 sətir vardır. “Kitabi-Dədə Qorqud”un İtaliyada Vatikan kitabxanasında saxlanılan 109 səhifəlik başdan-ayağa hərəkələnən (hər səhifədə 13 sətir) başqa bir nüsxəsi – Vatikan nüsxəsi də vardır. Drezden nüsxəsi açıq-aşkar Azərbaycan dilində yazılmışdır. Vatikan nüsxəsi isə cəmi altı boydan ibarət olub, XVI əsr türkcəsinə daha yaxındır*” [90, s. 6].

“Beovulf” dastanı VIII əsrin əvvəllərində yaradılıb, 3182 sətirdən ibarətdir, alliterasiyalı şeirlə yazılıb [150].

A.M.Volkov və Z.N.Volkova yazırlar ki, “*Beovulf”un bizə gəlib çatan və X əsrin sonlarına aid olan yeganə nüsxəsi Britaniya muzeyində saxlanılır. Əlyazma 1731-ci ilə baş vermiş yanğında xeyli korlanıb: yanmasa da, kənarları əyilib, xarab olub, mətn hissəsi dağılmağa başlayıb. 1786-1787-ci illərdə islandiyalı Torkelin (Grimur Jonsson Thorkelin) İngiltərədə olarkən poemanın iki nüsxəsini tərtib edib, onlardan birini şəxsən özü düzəldib. O, mətni latıncaya da tərcümə edib və 1815-ci ildə onun ilk naşiri olub. Torkelinin tərtib etdiyi bu nüsxələrin fövqəladə əhəmiyyəti vardır. Belə ki, ilk nüsxənin qıraqlarındakı yazıları XVIII əsrdəki vaxtdan fərqli olaraq indi daha çətin oxumaq olur* [152].

“Beovulf’un orijinalı başqa dialektlərin, ilk növbədə anql dialektinin dil xüsusiyyətləri də əks olunmaqla qərbi sakson dialektində yazılıb. Poemada nortumbr, mers, kent və sakson dialektlərinin elementləri var. Erkən və sonrakı olmaqla müxtəlif dövrlərin və müxtəlif dialekt elementlərinin poemadakı mövcudluğu onun özünəməxsusluğu ilə izah olunur. Yazılı şəkildə qeydə alınmazdan xeyli əvvəl yaranmış bu epik əsər bir neçə əsr ərzində şifahi ənənədə yaşamışdır. “Ağızdan-ağıza” keçən, bütün ölkə ərazisinə və bəzən də ondan kənarlara yayılan epik mətn müxtəlif dialektlərin cizgilərini özünə “hopdurmuş”, və həmin cizgilər alliterasiyalı şeir, ritm, məna dəqiqliyinin ifadəsi kimi tələblərə “uyğun gəldiyi” üçün onları mühafizə etmişdir. Şifahi epik mətnlər bütün dialekt bölgələrindən keçir, onların sərhədlərindən qırağa çıxır və hər dəfə variantlaşaraq yenidən yaradılır.

“Beovulf’un əlyazması haqqında verilmiş bu bilgi bizə hər iki dastan arasında aşağıdakı ümumi tipoloji paralelləri qurmağa imkan verir:

1. “Beovulf” dastanı onun baş qəhrəmanının adı ilə adlandırıldığı kimi, “Kitabi-Dədə Qorqud” dastanının hər iki yazılı nüsxəsi də eposun əsas qəhrəmanlarının adları ilə adlandırılıb. Bu, mühüm tipoloji qanunauyğunluqdur. Düzdür, A.M.Volkov və Z.N.Volkova yazırlar ki, *“Beovulf” poemasının adını ona naşirlər vermişlər* [155]. Lakin bu cəhət “Dədə Qorqud”la “Beovulf” arasında adlara əsaslanan tipoloji oxşarlıqda heç nəyi dəyişmir. Belə ki, “Dədə Qorqud” dastanının Drezden nüsxəsinin üstündə “Kitabi-Dədəm Qorqud ala lisani taifeyi oğuzan” (“Oğuzların tayfasının dilində Dədəm Qorqud kitabı”), Vatikan nüsxəsinin üstündə isə “Hekayəti oğuznameyi-Qazan bəy və qeyri” (“Qazan bəy və başqaları haqqında oğuznamə hekayəti”) adı yazılmışdır. Beləliklə, “Beovulf’a naşirlər ad verdiyi kimi, bu adlar da katiblərin verdiyi adlardır. Belə hesab edirik ki, “Dədə Qorqud” dastanı şifahi ənənədə, canlı ifada nə “Kitab”, nə də “Hekayət” adı ilə adlandırıla bilməzdi. Çünki “kitab” və “hekayət” ərəb sözləridir. İstər Drezden nüsxəsindəki 12 mətnin, istərsə də Vatikan nüsxəsindəki 6 mətnin hərəsinin öz adı var. Mətnlər əvvəldə “boy”, sonda “oğuznamə” adlandırılır. Deməks, buradan belə bir nəticə çıxarmaq olar ki, “Kitab” adı və “Hekayət” adı bu

nüsxələrə onlar yazıya alınarkən verilmişdir. Yəni 12 boy-oğuznamədən ibarət məcmuə “Kitabi-Dədəm Qorqud ala lisani taifeyi oğuzan”, 6 boy-oğuznamədən ibarət məcmuə isə “Hekayəti oğuznameyi-Qazan bəy və qeyri” adlandırılmışdır. Göründüyü kimi, bu adlar tək bir boya deyil, boyların yazıya alma yolu ilə tərtib olunmuş məcmusuna verilən adlardır. Lakin adlandırmada bütün hallarda baş qəhrəmanların adından istifadə olunması anqlosakson və oğuz dastanları üçün səciyyəvi tipoloji haldır. Belə ki, Dədə Qorqud da, Qazan da bu dastanın mərkəzi surətləridir. Dədə Qorqud Oğuz elinin ağsaqqalı, bilicisidir. O, bir qam-şaman kimi Oğuz elində mənəvi, sakral, mistik hakimiyyətin başçısıdır. Salur Qazan isə bəylərbəyi, xanlar xanı, hərbi sərkərdə, öndə gedən qılınc qəhrəmanı, oğuzların ən məşhur igidi, alp ərəndir. Bu cəhətdən dastanın hər iki nüsxəsi baş qəhrəmanın adı ilə adlandırılmışdır.

2. “Beovulf” dastanının dilində onun yayıldığı epik coğrafiyanın dialekt xüsusiyyətlərinin inikas olunması “Kitabi-Dədə Qorqud” eposuna da aid olan ümumi tipoloji keyfiyyətdir. Kamil Vəli Nərimanoğlu yazır ki, “*dastanın dili Azərbaycan türkcəsinin üstünlük təşkil etdiyi Oğuz ədəbi dilidir. Bəzən dialekt fövqü, bəzən xalq danışıq dili, bəzənsə şifahi ədəbi dil və ya yazılı ədəbi dil kimi təqdim olunan “Kitabi-Dədə Qorqud”un dilində çoxəsrlik türk ədəbi-bədii təfəkkürünün dəyərləri birləşmişdir*” [65, s. 111].

Göründüyü kimi, oğuz türklərinin möhtəşəm dastanı olan “Kitabi-Dədə Qorqud” yayıldığı epik coğrafiyanın oğuz türkcəsinin bütün dil xüsusiyyətlərini, o cümlədən dialekt xüsusiyyətlərini özündə əks etdirir. Məsələn, F.Zeynalov və S.Əlizadə dastanın Drezden nüsxəsinin dili ilə bağlı göstərirlər ki, “*bu nüsxənin dili fonetik və leksik göstəricilərinə görə müasir Azərbaycan dilinin Cənub və Şərq dialekt və şivələrinin xüsusiyyətləri ilə səsləşir”* [90, s. 19].

Alimlərin bu fikrindən belə bir nəticəyə gəlmək olar ki, Drezden nüsxəsi dastanın yayıldığı geniş Oğuz dünyası coğrafiyasında məhz azərbaycanlı söyləyicidən qeydə alınıb. Çünki əlyazmanın dilinin Azərbaycan dilinin Cənub və Şərq dialekt və şivələrinin xüsusiyyətləri ilə səsləşməsi ya söyləyicinin, ya da qeydə alan katibin Azərbaycan oğuzu olduğunu təsdiqləyir. Bu, həm də onu təsdiq

edir ki, “Dədə Qorqud” şifahi dastan kimi oğuz türklərinin yayıldığı bütün coğrafiyanın məşhur dastanı olmuşdur. Dastanın dilində oğuzcanın müxtəlif dialektlərinin, o cümlədən ümumi türkcənin müxtəlif dillərinin elementlərinin (xüsusilə qıpçaqcanın elementlərinin) olması bu dastanın güclü dialekt sisteminə malik olmasını göstərməklə yanaşı, onu tipoloji cəhətdən “Beovulf” dastanı ilə bir sıraya qoyur.

Həm “Kitabi-Dədə Qorqud”, həm də “Beovulf” dastanının zəngin tədqiq tarixi vardır. Bu tədqiqatlar içərisində bizim üçün burada aktual olanlar, heç şübhəsiz ki, bu iki dastanı müqayisəli şəkildə öyrənən əsərlərdir. Onların sayı çox deyildir. Bu əsərlərdə “Kitabi-Dədə Qorqud” və “Beovulf” müxtəlif tərəflərdən müqayisəyə cəlb olunmuş, bir sıra mühüm tipoloji oxşarlıqlar müəyyənləşdirilmişdir. Mövzumuz baxımından aktuallıq kəsb etdiyi üçün onlara diqqət yetirmək məqsədəuyğundur.

Ş.Xəlillinin Azərbaycan-ingilis ədəbi əlaqələrini folklor materialları əsasında araşdıran tədqiqatının bir hissəsi bu iki dastana həsr olunub [38, s. 147]. Hər iki dastanda ilk növbədə mifik və dini ünsürlərin yanaşı mövcudluğuna diqqət verən müəllif yazır ki, “Beovulf” dastanında olduğu kimi, “Kitabi-Dədə Qorqud” epik dastanında da bütpərəst əsatirlərdən gələn səhnələr müəyyən ştrixləri ilə diqqəti cəlb edir.

Əsərdə “Dədə Qorqud”un məşhur ingilis tədqiqatçılardan olan P.Mirablenin bu mövzudakı araşdırmalarına qiymət verən Ş.Xəlilli göstərir: “*Şamanizmin müqəddəs üçbucağının elmi şərhini və təhlilini verən P.Mirabile tədqiqatında “Beovulf”la “Kitabi-Dədə Qorqud” dastanlarında sirli-sehrli qəhrəmanlıq dünyasının tərənnüm olunduğunu və bu dastanlar arasındakı oxşarlığın səbəblərinin araşdırılmasının, müqayisənin aparılmasını vacib sayır* [38, s. 149]. “*Həm Şərq, həm də Qərbi Avropa mədəniyyətində (və ədəbiyyatında), “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarında insanlarla heyvanların yaxınlığını onların “bir dam altında yaşama”sında* [135, s.53] *axtaran P.Mirabilenin mülahizə və mühakiməsi paradoksdan çox real elmi təhlilin nəticəsi kimi diqqəti cəlb edir”* [38, s. 152].

Burada, doğrudan da, paradoks ola bilməz. Belə ki, P.Mirabile insanlarla heyvanların "bir dam altında yaşama"sını deyərkən mifoloji düşüncə çağını nəzərdə tutmuşdur. Y.Meletinski həmin dövrün düşüncəsinin özünəməxsus keyfiyyətlərindən biri haqqında belə bir fikir söyləyir ki, "*"ibtidai" insan özünü onu əhatə edən təbiət dünyasından ayıra bilmir və özünə məxsus olan xassələri təbiət obyektləri üzərinə köçürür. Bu isə insanın təbiətlə öz vəhdətini instinktiv duymasının, stixial şəkildə anlamasının deyil, təbiəti özündən keyfiyyətcə ayırmağı bacarmamasının məhsulu idi. Belə sadəlöhv "insanlaşdırmanın" vasitəsi ilə təbii və mədəni obyektlərin "metaforik" qarşılaşdırılması baş verirdi*" [110, s. 164-165].

Bu fikirdən məlum olur ki, P.Mirabilenin "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarında insanlarla heyvanların yaxınlığını onların "bir dam altında yaşama"sı kimi izah etməklə hər iki dastanda insanla heyvanın mifik doğmalığını əks etdirən motivlərin davamlılığına işarə etmişdir.

Ş.Xəlilli öz əsərində oğuz və anqlosakson dastanları arasında daha bir tipoloji məqama diqqət yönəldərək yazır ki, "*Dədə Qorqud dastanlarında "Beovulf" dastanındakı kimi qəhrəmanın ilahi güc-qüdrəti sözün cilasında şifahi xalq yaradıcılığı təfəkkürünün təbiətdəki müqəddəs varlıqlara bənzədilməsi bir-birinə oxşar cəhətləri ilə seçilir*" [38, s. 151].

Müəllifin qeyd etdiyi bu məqam bədii təsvir vasitəsi kimi bənzətmədir. Doğrudan da, heç bir eposu, ümumiyyətlə, bədii mətni bənzətmələrdən qıraqda təsəvvür etmək olmaz. Bu cəhətdən bənzətmələrdən istifadə "Kitabi-Dədə Qorqud" və "Beovulf"u birləşdirən tipoloji bağlardan biridir. Hər iki dastanda olan bənzətmələr onu yaradan xalqların bədii düşüncəsinin obrazlaşdırma səviyyəsini ifadə edir. Bu cəhətdən məcazların bir növü olan bənzətmələr oğuz dastanında oğuzların mənimsəyərək bədii təcrübəyə çevirdikləri oğuz dünyasından götürülmüş, anqlosakson dastanında isə anqlosaksonların dünyasından götürülmüş obrazları inikas edir. Məsələn, "qaza bənzər qızım-gəlinim" deyən Oğuz bəyinin bənzətməsindəki "qaz" obrazı qız gözəlliyinin obrazı kimi "Beovulf" dastanı üçün qətiyyən xarakterik deyildir. Hər xalqın öz bənzətmələr sistemi var. Türklərin

məcazlar sistemində qaz obrazı məşhurdur. Türk şamanı qamlama zamanı göyə qazın belində uçur. Bu da qaz obrazını şamanın köməkçisi kimi müqəddəsləşdirir.

Hər iki dastanının müqayisəsinə həsr olunmuş araşdırmalardan biri Cənubi Azərbaycanlı tədqiqatçı Abbasəli Əhmədoğlunun "Beovulf" və "Kitabi-Dədə Qorqud"da ölüm və ölümsüzlük konsepsiyasının müqayisəli tədqiqi" mövzusunda magistr dissertasiyasıdır [123].

Üç fəsildən ibarət olan işin birinci fəslində dastanın baş qəhrəmanı Beovulfun idarəçiliyi üçün xarakterik olan iki əsas keyfiyyətdən – müdriklik və igidlik konseptlərindən bəhs olunur. İşin ikinci fəslində eyni konseptlər "Basatın Təpəgözü öldürməsi" boyu üzərində tədqiq olunur. Dissertasiyanın üçüncü fəslində müdriklik və igidlik əbədiyyətə – ölümsüzlüyə aparan dəyərlər kimi təhlil olunur. Müəllifin apardığı araşdırmadan məlum olur ki, ölümsüzlüyə canatma "Beovulf" və "Kitabi-Dədə Qorqud"u birləşdirən ən birinci cəhətdir. Həm Basat, həm də Beovulf ölümsüzlük sorağındadır, lakin onların fəlsəfi baxış və dünyagörüşləri fərqli olduğuna görə fəaliyyətlərinin nəticəsi və təzahürü fərqlənir [123].

Bütün bu nəticə və təzahürləri iki dastandan gətirdiyi nümunələr əsasında araşdıran A.Əhmədoğlunun maraqlı fikirlərlə zəngin olan tədqiqatı ingilis dilindədir və buna görə də Azərbaycan folklorşünaslığında, demək olar ki, yayılmamışdır. Əlbəttə, bu tədqiqatın ingilis dilində olması "Kitabi-Dədə Qorqud"un beynəlxalq elmi miqyasda tədqiqinə layiqli töhfədir. Lakin maraqlı fikir və mülahizələr, diqqətəlayiq müqayisələr, eyni zamanda Qərb filologiyasının nəzəri baxışlarını ifadə edən yanaşmalarla zəngin olan bu işin Azərbaycan dilində kitab şəklində çap olunmasına ehtiyac vardır. Bununla tədqiqat təkcə ingilis deyil, həm də Azərbaycan qorqudşünaslığının malına çevrilər.

Yeri gəlmişkən qeyd edək ki, Türkiyədə də ingilis dilində "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarının müqayisəsinə həsr olunmuş iki magistrlik dissertasiyası yazılmışdır. Bunlardan biri Nevzat Adilin "Beovulf" və "Kitabi-Dədə Qorqud"da qəhrəmanlıq idealı mövzusunun təhlili" əsəri [141], digəri isə Hülya Taflının "Beovulf" və "Kitabi-Dədə Qorqud"un inanc sistemlərinin müqayisəli tədqiqi" əsəridir [146].

Hər iki dastanın müqayisəli tədqiqinə həsr olunmuş daha bir iş Günay Nəsirovanın “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarında mifoloji obrazlar” mövzusunda magistrlik dissertasiyasıdır [68]. İş iki fəsildən ibarətdir. “Dünya epos ənənəsində “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarının yeri” adlanan birinci fəsildə “Azərbaycan-Avropa folklor əlaqələri: tədqiqat problemləri və perspektivlər”, “Oğuz eposu və mif”, “Kitabi-Dədə Qorqud”un epos ənənəsində yeri” kimi məsələlərdən bəhs olunur.

Dissertasiyanın “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarının müqayisəli tipologiyası” adlanan ikinci fəslində isə “Basatın Təpəgözü öldürdüyü boy”un ideya-məzmunu”, “Beovulf”un ideya-məzmunu”, “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarında oxşar mifik obrazlar” kimi məsələlərdən bəhs olunur.

“Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarının müqayisə olunduğu daha bir magistrlik işi Funda Tunçdökenin “Dede Korkut Hikâyeleri ile Beowulf Destanı’nda Yer Alan Toplumsal Hayata Ait Motiflerin Saptanması ve Karşılaştırılması” (“Dədə Qorqud dastanları” ilə “Beovulf” dastanındakı ictimai həyata aid motivlərin təsbiti və müqayisəsi”) mövzusunda tədqiqatıdır [94].

Dissertasiyada hər iki dastan Stis Tompsonun “Folklor motivləri sözlüyü” (Stith Thompson. The Motif-Index of Folk Literature.) adlı əsərindəki təsnifat sistemi əsas götürülməklə müqayisə edilmişdir. Həmin təsnifata əsasən, “Dədə Qorqud kitabı”nda 43 motiv, “Beovulf”da 41 motiv təsbit olunmuşdur. Hər iki dastan üçün 28 ortaq motiv təsbit edilmişdir. Bundan başqa, “Dədə Qorqud”da rast gəlinməyib, sadəcə “Beovulf”da rast gəlinən 13 motiv, eləcə də “Beovulf”da rast gəlinməyib, sadəcə “Dədə Qorqud”da rast gəlinən 15 motiv təsbit edilmişdir [94, s. 138].

Dissertasiya dörd bölmədən ibarətdir. “Dədə Qorqud” və “Bevoulf”un mövzuları və əhatə dairəsi. “Dədə Qorqud” dastanlarının motiv quruluşu” adlanan birinci bölümdə “Kitabi Dədə Qorqud” eposu savaş mövzusunda olan boylar, mifoloji ünsürlərlə bağlı boylar və məhəbbət mövzusu əsasında qurulmuş boylar olmaqla üç motiv qrupunda təsnif edilmiş, daha sonra “Beovulf” dastanının motiv quruluşu təsvir olunmuşdur [94, s.7-42].

Üç hissədən ibarət olan ikinci bölmədə əvvəlcə Stis Tompsonun “Folklor motivləri sözlüyü”ndə “ictimai həyatla” bağlı hissə təsvir edilmiş, daha sonra bu təsnifat əsasında “Dədə Qorqud” dastanlarında ictimai həyatla bağlı motivlər müəyyənləşdirilmiş, daha sonra isə eyni iş “Beovulf” dastanı üzərində görülmüşdür [94, s. 43-94].

Tədqiqatın üçüncü bölümündə hər iki dastandakı ictimai həyat motivləri aşağıdakı kimi təsnif edilmişdir:

Krallarla bağlı ənənələr;

Kralların idarəçiliyi;

Kral hakimiyyətinin sonu;

Krallarla bağlı başqa motivlər;

Kraliçalar;

Müxtəlif kraliçalar;

Şahzadələr;

Kralın vəkilləri;

Kölənin (əsirin) uşaqları və azad insanın kölə olması;

Əsirin azad edilməsi;

Heç bir qohumu olmadığı üçün şikayətlənən insan;

Ər-arvad;

Qohumlardan daha mərhəmətli olan həyat yoldaşı;

Qadın – əri yola gətirə biləcək tək insan kimi;

Ana və oğul;

Ana və qız;

Ata və qız;

Qardaşlar;

Qız və qardaşları;

Qayınata;

Qayınana;

Süd anası;

Baba;

Əmi, dayı;

Bacıoğlu;

Bir-birindən ötrü ölümə gedən qardaşlar;

Dostundan ötrü canından keçən dost;

Müxtəlif cür dostluqlar;

Qonaqpərvərlik;

Qonağını hədiyyələrlə şərəfləndirən ev sahibi;

Bayramlaşmaq;

Müəllim – şagird;

Sadiq xidmətçi;

Sədaqətsiz xidmətçi;

Çoban;

Dənizçi;

Həkim;

Musiqiçi;

Tacirlər;

Başqa peşələr;

Əsgər;

Oğru, quldur;

Hökumət;

Müqavilə;

Xərac;

Müxtəlif qanuni adətlər;

Silahlar;

Savaşda məğlubiyyət;

Savaşda meydan oxumaq;

Hərbi ənənələr;

Bayram, ziyafət;

Millətlər;

İrqlər, nəsillər .

Dissertasiyanın dördüncü bölümündə “Beovulf” dastanının türkcəsi verilmişdir [94, s. 140-238].

Göründüyü kimi, dissertasiyada hər iki dastan ictimai həyat motivləri baxımından tipoloji müqayisəyə cəlb olunmuşdur.

“Kitabi-Dədə Qorqud”un ingilis dilinə tərcüməçilərindən olan P.Mirablenin bu iki dastan arasında apardığı bir sıra tipoloji müqayisələr mövzumuz baxımından diqqətəlayiqdir. İngiltərəli alim “Dədə Qorqud”un tərcüməsinə geniş bir ön söz yazmışdır. Həmin giriş hissəni dilimizə tərcümə edən Azərbaycan alimi Seyran Əliyev onu iki məqalə halında “Dədə Qorqud” jurnalında çap etdirmişdir [59; 60].

S.Əliyev P.Mirablenin tərcüməsini dəyərləndirərək yazır ki, dastanı ingilis dilinə üçüncü dəfə P.Mirable tərcümə etmişdir. Fikrimizcə, ön sözdən, on iki boyun tərcüməsindən, qeydlərdən və biblioqrafiyadan ibarət olan kitab qorqudşünaslığa sanballı töhfədir [27, s. 193].

Öz tərcüməsinə yazdığı “Giriş”də “Kitabi-Dədə Qorqud”u “Beovulf” dastanı ilə müqayisə edən P.Mirable yazır ki, *“Beovulf” bütpərəst mərasimləri və xristian ehkamları ilə zəngin olan bir abidədir. Bəzən onun səhifələrində, xüsusilə dəfn mərasimləri ilə bağlı cüzi dəyişikliklərə məruz qalmış elə adətlərə rast gəlirsən ki, onların ilk dəfə hansı inanca aid olduğunu müəyyənləşdirmək çətin olur. İki inancı özündə bariz şəkildə əks etdirən bu əsər “Dədə Qorqud kitabı”na ən yaxın eposdur”* [59, s. 39].

“Beovulf”da olduğu kimi, “Dədə Qorqud”da da iki inanc sistemini (Şamanizm və İslam) aşkarlayan P.Mirable yazır: “*Dədə Qorqud” kitabı arxeoloqların limanıdır. O, bir-birini inkar etməyən, yüngülcə bir-birinə toxunan, lakin heç vaxt öz “təbii” sərhədini keçməyən, müxtəlif materialdan ibarət olan bir cüt lay kimi yanaşı uzanan iki dini baxışı əks etdirir”* [59, s. 39].

P.Mirable maraqlı bir tipoloji müqayisə apararaq göstərir ki, *“Türk və Şimali alman xalqlarına məxsus eposlarda üç motiv – yuxu, ziyafət və mələk motivləri tez-tez işlənir”* [60, s. 10]. Onun fikrincə, *““Dədə Qorqud” və “Beovulf” eposlarında ziyafətlər sevinc və kədər ifadə etməklə bədii paralelizmi qoruyub saxlayır”*. P.Mirable “bədii paralelizm” deyərkən bu ziyafətlərin hər iki dastanda təkcə yeyib-

içmək, şənlənmək məclisi olmadığını, həm də bu ziyafətlərdə süjet üçün əhəmiyyəti olan hadisələrin başlandığını nəzərdə tutur: *"Beovulf"da və "Dədə Qorqud kitabı"nın on ikinci boyunda yas bayram şənliyini, kədər isə sevinci əvəz edir* [60, s. 11].

P.Mirablenin hər iki dastanda ziyafət motivini qabartması təsadüfi deyil. Ümumiyyətlə, qəhrəmanlıq dastanları üçün xarakterik olan ziyafət məclisi, B.N.Putilova görə, süjetin mühüm elementidir. O, slavyan eposunun verdiyi faktlara əsasən yazır ki, "*epik kolliziyaların əksəriyyəti knyazın sarayındakı ziyafətdə "düyünlənir": qüvvələrin yerləşməsi burada aşkarlanır. Real tarixdə ictimai, rəsmi saray həyatının çoxlu formalarından biri olan knyaz ziyafətləri eposda knyazın kilsə ibadətində iştirakı haqqında məlumatları nəzərə almasaq, universal mənaya malik yeganə formadır*" [114, s. 53].

İngilis alimi çox maraqlı bir məqama diqqət yetirərək göstərir ki, "*hər iki dastanın təhkiyəsində iki dünyagörüşü eyni zamanda təqdim olunur. Məsələn, "Dədə Qorqud"da "Qazan oğluna kafirlərin həyat tərzini öyrətdiyi kimi, ozan da tamaşaçılarına Qazanın öyrətdiklərini öyrədir. Beləliklə, dinləyiciyə iki dünyagörüşü təqdim olunur və bu müqayisənin həqiqi və ya poetik mahiyyət kəsb etməsini müəyyənləşdirmək onun ixtiyarındadır. Qazan bir aləmi açıb göstərmir, o, iki aləmi açıb göstərir. Dünyaya bu ikili baxışı "Beovulf" eposunda da görmək olur. Öz sürəti və cazibədarlığı ilə məşhur olan Anqlo-saks gəmiləri quşla müqayisə edilir: "Boğazı köpüklü gəmi quş kimi süzürdü"* [60, s. 14].

Göründüyü kimi, tədqiqatçı burada epik təhkiyənin quruluşuna diqqət verərək, burada iki səviyyəni fərqləndirmişdir:

Birincisi, epos qəhrəmanlarının dili ilə təqdim olunan səviyyə;

İkincisi, söyləyicilərin dili ilə təqdim olunan səviyyə.

Bunun birincisi süjetdə yaşayan əski arxaik məlumat, yaxud P.Mirablenin dili ilə desək, dünyagörüşüdür. Lakin bu məlumat söyləyicinin təhkiyəsində elə onun özünün improvizasiyası, təqdimat-təhkiyə üsulları ilə ikinci dünyagörüşü qatını da qazanır.

"Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarının poetik tipologiyası bu

dastanların şeir quruluşu və poetik üslubu arasında da müəyyən paralellər aşkarlamağa imkan verir. A.M.Volkova və Z.N.Volkova göstərirlər ki,*““Beovulf” “Böyük Edda” dastanının nəğmələri kimi ənənəvi alliterasiyalı şeirlə, “Nibelunqlar haqqında nəğmə” isə qafiyəli şeirlə yazılmışdır. Qədim german şeir sənəti vurğulu hecaların sayı ilə müəyyənləşən ritmə əsaslanırdı”* [155].

Göründüyü kimi, “Kitabi-Dədə Qorqud” üçün xarakterik olan alliterasiya “Beovulf” dastanı üçün də xarakterikdir. Fikrimizcə bu onunla bağlıdır ki, epik şeir üçün xarakterik olan alliterasiya şeirin formal quruluşunun inkişafında bir mərhələdir. Bu cəhətdən “Beovulf” dastanındakı alliterasiyanın yuxarıda qeyd olunan özünəməxsus cəhətləri olduğu kimi, “Dədə Qorqud” dastanındakı alliterasiyanın, o cümlədən şeirin özünəməxsus cəhətləri, tədqiqatçılar tərəfindən indi-indi üzə çıxarılan sirli-sehrli özəllikləri vardır.

Kamal Abdulla yazır ki, *“Kitabi-Dədə Qorqud”da samit səslərin təkrarından formalaşan bu üslubi fiqurdan* (alliterasiyadan – R.Vəliyeva) *kifayət qədər istifadə olunur. Yazı mədəniyyətinin möhkəmlənməsini nümayiş etdirir. Dastan dilində ən müxtəlif samitlərin təkrarı özünü göstərir. Faktiki olaraq belə qəbul edilə bilər ki, dastanda alliterasiya və sintaktik paralelizm ilə müasir qafiyə ənənəsinin ibtidai əsasını qoyublar”* [4, s. 23].

“Kitabi-Dədə Qorqud”un dilini “möcüzə” hesab edən Ə.Tanrıverdi bu möcüzəni dastanın dilindəki bütün poetik elementlərin bir-birinə zəncirvari şəkildə bağlı olması kimi izah edərək yazır ki, “*təhkiyəçi boy qəhrəmanlarının antroponimik modellərindəki vahidləri səslənmə və semantika baxımından boylardakı parçalarla əlaqələndirib, onlarla vəhdətdə təsvir edib*” [77, s. 8]. Bu “möcüzədə” alliterasiyanın xüsusi yeri var. Ə.Tanrıverdiyə görə, *“dastandakı alliterasiyalar eposun dilinin frazeoloji vahidlər, epitetlər, təşbehlər, şəkilçilər, paralel konstruksiyalar və s. kimi bütün səviyyələrini əhatə edir”* [76, s. 105-106].

Ə.Tanrıverdi aşkarlamışdır ki, *“Dədə Qorqud”da alliterasiya dastanın epik strukturunu təşkil edən elementlər arasındakı məna əlaqələrini də ifadə edir və bu, bütöv dastanda sistem təşkil edir* [78, s. 19]. Məsələn, alim Beyrək adındakı ***“b”*** səsinin yaratdığı alliterasiyanı onun atasının adının (***B***aybörə oğlu ***B***amsı ***B***eyrək),

qaynatasının adının (***B***aybican), nişanlısının adının (***B***anıçiçək) və s. yaratdığı məna xətlərində, "Bamsı Beyrək" boyunundakı 181 abzasdan 56-nın ilk səsinin ***"b"*** ilə başlamasında aşkarlamışdır.

Alliterasiyalı şeirlə yazılmış "Beovulf" 44 bölmədən, 3182 şeirdən ibarətdir. Onun sabit şeir quruluşu var. Eyni sözü "Kitabi-Dədə Qorqud" haqqında demək olmur. Çünki bu dastan türk dastan yaradıcılığı üçün xarakterik olan nəsrlə nəzmin növbələşməsi şəklində qeydə alınmışdır.

"Dədə Qorqud"da şeir məsələsi tədqiqatçılar arasında mübahisələrə də səbəb olmuşdur. Cəlal Abdullayev yazır ki, "*dastandakı poetik parçaları "sərbəst vəzn", bəziləri "qafiyəsiz şeir", "söyləmə şeir", "pərakəndə şeir", hətta "tirada", "alliterasiya" üzərində qurulmuş şeir adlandırmışlar*" [6, s. 93]. Məsələn, Elməddin Əlibəyzadə dastanın nəsr hissəsini tədqiq edərək onun mənsur şeir olması qənaətinə gəlmişdir [23, s. 258-268].

Lakin C.Abdullayevin özü dastandakı şeirlərə müasir şeirin tələbləri baxımından yanaşmağı düzgün hesab etmir: "*Dədə Qorqud şeirlərini necə var, eləcə də qəbul etmək lazımdır; çünki onlar öz ilkin qafiyəsində, bakir, toxunulmaz formasında daha gözəl, daha təbii görünür. İndi biz dastanın şeirlərinə bu günün tələbləri baxımından yanaşsaq və onları müasir meyarlarla dəyərləndirsək, əlbəttə, səhv edərik, çünki hər şeyə konkret tarixi şərait daxilində qiymət vermək gərəkdir*" [6, s. 97].

Maraqlıdır ki, C.Abdullayevin ortaya atdığı bu problemi K.V.Nərimanoğlu da təsdiq edir: *"Biz müasir şeirin mütləq sistemi ilə "Kitabi-Dədə Qorqud"u açmaq istəyiriksə, bu yol bizi həmişə çıxmaza aparar"* [67, s. 314].

Qara Namazov da yuxarıdakı alimlər kimi göstərir ki, "Kitabi-Dədə Qorqud"dakı poetik örnəklərin müasir şeirlə birbaşa eyniləşdirilməsi qətiyyən yolverilməzdir [63, s. 23]. Həqiqətən də, "Kitabi-Dədə Qorqud" şeirlərinin poetik, struktur, semantik xüsusiyyətlərini müasir şeirlə eyniləşdirmək olmaz, lakin qeyd etməliyik ki, bunlar bir - birini inkar da etmir. Əslində, onlar arasında doğmalıq və məlhəmlik də özünü qabarıq şəkildə həmişə və hər yerdə göstərir. "Kitabi Dədə Qorqud" müasir şeirin ilkin qaynağı olma funksiyasını bugün də məharətlə yerinə

yetirir. Həmin şeir nümunələri zaman-zaman müəyyən struktur dəyişikliklərinə məruz qalsa da, Dədə Qorqud adını və ünvanını çağdaş zamanımıza daşıya bilib. Belə ki, tanınmış alim Kamil Hüseynoğlu haqlı olaraq göstərir ki, "*Azərbaycan şeirinin qaynaqlarının tədqiqi baxımından müasir Anadolu türklərinin, azərbaycanlıların, türkmənlərin və qaqauzların qədim əcdadları olan oğuzların yaratdıqları folklor ədəbiyyatı bizim üçün müstəsna əhəmiyyət kəsb edir. Bu ədəbiyyata daxil olan yazılı abidələr içərisində "Kitabi-Dədə Qorqud" dastanı, Mahmud Kaşqarinin "Divanü lüğət-it türk" əsəri və orta əsrlərdə yazılmış "Oğuznamə" kitabları xüsusi qeyd edilməlidir*" [36, s. 20]. Folklorşünas alim, professor Yeganə İsmayılova da təsdiq edir ki, "*müasir Azərbaycan şeiri öz poetik ruhu – bədii yaddaşı etibarilə "Kitabi-Dədə Qorqud" şeirinə bağlıdır*" (44, 176).

Ümumiyyətlə, Tərlan Quliyev belə hesab edir ki, *"Dədə Qorqud" şeirləri bütün əlamətlərilə qədim şeirdir. Bu qədimliyi sübut edən digər xüsusiyyətlər arasında şeirlərin vəzn və qafiyə xüsusiyyətlərinin özünəməxsus mövqeyi vardır*" [56, s. 199].

Tofiq Hacıyevin araşdırmalarına görə, "*elmdə yaranmış bu mübahisələrin səbəbi ondan irəli gəlmişdir ki, "Dədə Qorqud kitabı"nın şeir texnologiyası lazımınca öyrənilməyib"* [32, s. 14]. Alimin qənaətinə görə, dastan başdan-ayağa şeirdən (nəzmdən) ibarətdir [30, s. 29]. T.Hacıyevə görə, "*dastanın bu şeir quruluşu qədim türk şeiri üçün xarakterikdir: "Dədə Qorqud" şeiri öz paralelizm, heca sayı, alliterasiya, qafiyə, söz sırası, təzad, poetik sintaksis xüsusiyyətləri baxımından qədim Orxon-Yenisey kitabələri ilə səsləşir*" [31, s. 37-46]. O, belə hesab edir ki, dastanın dilinin şeirləri olması, əslində, mübahisə predmeti olmamalıdır: *"Bizim şəxsi qənaətimizə görə, "Kitab" şeir şəklində yazılmışdır. Türk folklor şeirilə və orta əsrlər türk şeir nümunələri ilə dəfələrlə apardığımız müqayisələr nəticəsində bu qənaətə gəlmişik*" [33, s. 3].

Azərbaycan alimlərinin tədqiqatlarından gətirdiyimiz bu fikirlər təsdiq edir ki, "Kitabi-Dədə Qorqud" zəngin poetik dilə malikdir. Bu dil Azərbaycan şeirinin qaynağını təşkil edir. "Dədə Qorqud" dastanında Azərbaycan-Oğuz şeirinin bütün inkişaf xüsusiyyətləri inikas olunmuşdur. Mübahisələri yaradan da elə bu

məqamdır. Dastanın şeir dili hazırda sabitləşmiş poetik dilin qaynağı, başlanğıc mərhələlərindən biridir. Dilimiz poetik cəhətdən daim inkişaf edib və bu inkişaf prosesində müxtəlif mərhələlərdən keçib. Dastanda bu inkişaf öz əksini tapıb. "Dədə Qorqud" dilinin özünəməxsus cəhəti onun dastan dili olmasıdır. Qəhrəmanlıq dastanları epik təhkiyəyə əsaslanır. Burada şeir dilinin və ümumiyyətlə poetik dilin bütün normaları epik təhkiyənin (dastan söyləməsinin) qanunlarına tabedir. "Dədə Qorqud" bir dastan kimi öz dövrünün şeir dilinin xüsusiyyətlərini özündə əks etdirsə də, onun qəhrəmanlıq dastanı olması və mətndəki şeirlərin epik təhkiyəyə tabe olması, epik təhkiyənin içində olması nəzərə alınmalıdır. Bu, bir tipoloji məqam kimi "Beovulf" dastanına da eyni dərəcədə aiddir.

"Beovulf" bir qəhrəmanlıq eposudur. Qəhrəmanlığın təcəssümü, qəhrəmanlıq ideyasının tərənnümü bu dastan üçün aparıcı xətdir. Bu halda dastanın bütün poetik quruluş elementləri, o cümlədən şeirlər, şeiri təşkil edən, yaradan formullar bu xəttə, yəni qəhrəmanlığın tərənnümünə xidmət edir. Deməк, buradan belə bir aydın nəticəyə gəlmək olar ki, "Beovulf" şeirinin tipologiyası qəhrəmanlıq xəttinin normalarına tabedir. Yəni buradakı şeirin poetik normalarını qəhrəmanlıq müəyyənləşdirmişdir.

"Qəhrəmanlıq" konsepti "Beovulf"da olduğu kimi, "Kitabi-Dədə Qorqud"da da əsas poetik norma, estetik meyardır. Dastanın lirik materialı, emosional-lirik keyfiyyətləri qəhrəmanlıq konseptinin estetik ölçülərinə tabedir. Buradakı şeir bütün hallarda qəhrəmanın psixologiyası və qəhrəmanlıq ruhunun ifadəsinə xidmət etdiyi üçün bu şeirə yalnız qəhrəmanlıq kontekstində yanaşmaq və dəyərləndirmə aparmaq məqsədəuyğundur.

Beləliklə, "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarına ümumi baxış onlar arasında bir çox tipoloji ortaqlıqları müəyyən edir. Həmin məqamları, belə ümumiləşdirmək olar:

1. Qədim oğuz və qədim anqlosakson dastanları arasındakı tipoloji səsləşmələr hər şeydən əvvəl bu iki dastanın qəhrəmanlıq eposu olması ilə bağlıdır. Qəhrəmanlıq dastanları hər bir xalqın folklor yaradıcılığının ən möhtəşəm

səhifəsidir. “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarının qəhrəmanlıq eposları olması onları ictimai düşüncənin eyni mərhələsinə bağlayır.

2. Milli eposlar onları yaradan xalqların milli şifahi tarixidir. “Kitabi-Dədə Qorqud” və “Beovulf” da milli eposlar kimi oğuz və anqlosakson tarixinin bütün əzəmətini özündə əks etdirir.

3. “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarını birləşdirən ən mühüm tipoloji məqam hər iki dastanda ictimai ideologiyaların əvəzlənməsinin əks olunmasıdır. “Beovulf”da bütpərəstlikdən xristianlığa keçid əks olunduğu kimi, “Dədə Qorqud”da şamanizmdən, tanrıçılıqdan islam dininə keçid aydın şəkildə müşahidə olunur.

4. Milli eposlar milli-mənəvi dəyərləri ümumiləşdirən, qoruyan və yaşadan abidələr olduğu kimi, eyni zamanda milli dilin də bütün poetik özünəməxsusluğunu qoruyan möhtəşəm qaynaqlardır. Bu cəhətdən “Beovulf” dastanında anqlosakson dilinin qəhrəmanlıq ruhunu ifadə edən epik təhkiyə bütün özünəməxsusluğu ilə əks olunduğu kimi, “Kitabi-Dədə Qorqud”da da oğuz dilinin poetik möcüzəsi öz ifadəsini tapmışdır.

## 1.2. “Dədə Qorqud” və “Beovulf”dastanlarında süjet oxşarlığı

Biz bu yarımfəsildə “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarının süjet tipologiyasından danışarkən “Beovulf”un süjet xəttini əsas götürəcəyik. Çünki “Dədə Qorqud” boylarının süjeti hamıya bəllidir. Belə olan halda “Beovulf”un süjetini izləyib, oğuz dastanı ilə tipoloji müqayisələr aparmaq daha məqsədəuyğundur [82, s. 88-94] .

“Beovulf” tədqiqatçıların düzümündən asılı olaraq, ümumən, 43-44 fəsildən ibarətdir. A.M.Volkova və Z.N.Volkova özlərinin “Beovulf- Anqlosakson eposu” adlı kitabında fəsillərin sayını 44 göstərmişlər [155]. Lesli Hol (Lesslie Hall) nəşrində [156] isə fəsillərin sayı, aşağıda göstərildiyi kimi, 43-dür:

1. The Life and Death of Scyld (“Skildin həyatı və ölümü”);

2. Scyld’s Successors (“Skildin davamçıları”);

3. Hrothgar's Great Mead-Hall. Grendel, the Murderer ("Hrotqarın nəhəng sarayı". "Qatil Grendel");

4. Beowulf Goes to Hrothgar's Assistance ("Beovulf Hrotqara köməyə gedir");

5. The Geats Reach Heorot ("Geatların Herota çatması")

6. Beowulf Introduces Himself at the Palace ("Beovulfun özünü sarayda təqdim etməsi")

7. Hrothgar and Beowulf ("Hrotqar və Beovulf")

8. Hrothgar and Beowulf (continued) ("Hrotqar və Beovulf" (davamı)

9. Unferth Taunts Beowulf ("Anfersin Beovulfa lağ etməsi")

10. Beowulf Silences Unferth ("Beovulfun Anfersin qarşısında susması")

11. Glee is High. All Sleep save One ("Böyük həzz". "Hamı yatmış, bir nəfər oyaq")

12. Grendel and Beowulf ("Qrendel və Beovulf")

13. Grendel is Vanquished ("Qrendelin yenilməsi")

14. Rejoicing of the Danes ("Danimarkalıların sevinməsi")

15. Hrothgar's Gratitude ("Hrotqarın minnətdarlığı")

16. Hrothgar Lavishes Gifts upon his Deliverer ("Hrotqarın xilaskarı səxavətlə mükafatlandırması")

17. Banquet (continued) ["Ziyafət (davamı)]

18. The Scop's Song of Finn and Hnæf ("Nəğməkarın Fin və Nəf haqqında mahnıları")

19. The Banquet Continues. Beowulf Receives Further Honor ("Ziyafət davam edir". "Beovulfun yenidən şərəfləndirilməsi")

20. The Mother of Grendel ("Grendelin anası")

21. Hrothgar's Account of the Monsters ("Hrodqarın divlərlə hesabı")

22. Beowulf Seeks Grendel's Mother ("Beovulf Qrendelin anasını axtarır")

23. Beowulf's Fight with Grendel's Mother ("Beovulfun Qrendelin anası ilə döyüşü")

24. Beowulf is Double-Conqueror (Beovulf ikiqat qalibdir")

25. Beowulf Brings his Trophies ("Beovulf qənimət gətirir")

26. Hrothgar's Gratitude. Hrothgar Moralizes ("Hrotqarın təşəkkürü". "Hrotqar nəsihət verir")

27. Rest after Labor. Sorrow at Parting ("İşdən sonra istirahət". "Ayrılığın kədəri")

28. The Homeward Journey ("Ev yolu ilə səyahət")

29. The Two Queens. Beowulf and Higelac ("İki şahzadə". "Beovulf və Hiqelak")

30. Beowulf Narrates his Adventures to Higelac ("Beovulf öz macəraları haqqında Hiqelaka danışır")

31. Gift-Giving is Mutual ("Qarşılıqlı mükafatlandırma")

32. The Hoard and the Dragon ("Xəzinə və əjdaha")

33. Brave Though Aged ("Yaşa baxmayan qəhrəmanlıq")

34. Reminiscences. Beowulf Seeks the Dragon ("Xatirələr". "Beovulf əjdahanı axtarır")

35. Beowulf's Reminiscences ("Beovulfun xatirələri")

36. Beowulf's Last Battle. Wiglaf the Trusty ("Beovulfun axırıncı döyüşü". "Sadiq Uiqlaf")

37.Beowulf is Deserted by Friends and by Sword. The Fatal Struggle

38. Beowulf's Last Moments. Wiglaf Plunders the Dragon's Den ("Beovulfun axırıncı anları". "Uiqlaf əjdahanın yuvasını talan edir")

39. Beowulf's Death. The Dead Foes ("Beovulfun ölümü". "Ölü dostlar")

40. Wiglaf's Bitter Taunts. The Messenger of Death ("Uiqlafın acı gülüşü". "Ölüm qasidi")

41. The Messenger's Retrospect ("Qasidin keçmişi")

42. Wiglaf's Sad Story ("Uiqlafın qəmli hekayəti")

43. The Hoard Carried Off. The Burning of Beowulf ("Xəzinənin aparılması". "Beovulfun yandırılması").

Qeyd edək ki, "Beovulf" dastanının müxtəlif nəşrlərində poemanın gah 43, gah 44 fəsildən ibarət olması bizi çaşdırmamalıdır. Fəsillər qədim ingiliscədən

müasir ingiliscəyə tərcümə edilərkən tərcüməçilər süjetin parçalarına, motivlərə məzmundan çıxış edərək müxtəlif adlar vermişlər. Bu mənzərəni dastanın burada istifadə etdiyimiz Devid Briidin (David Breeden) nəşrində də görmək olur. İngilis ədəbiyyatı professoru və şair-yazıçı D.Briidin dastanı müasir ingiliscəyə ənənəvi folklor şeiri ruhunda çevirmişdir. Yəni burada sətri (filoloji) tərcümə əsas götürülməmiş, sərbəst bədii nəzmə üstünlük verilmiş, folklor şeirinin sadə üslubundan istifadə olunmaqla, anlaşıqlı bir mətn yaradılmışdır [157].

Bizim tədqiqatımız "Beovulf" dastanının dil-tərcümə poetikası məsələlərindən bəhs etmədiyi üçün orijinalın süjet və obrazlar sistemini aydın və anlaşıqlı şəkildə əks etdirən D.Briidinin bu çevirməsindən istifadə etməyi məqsədəuyğun hesab etdik.

Dastanın müasir ingiliscə nəşrlərində fəsillərin sayı və adlarındakı fərqlərə gəlincə təkcə bir nümunəyə diqqət yetirsək, mənzərə aydın olar. Məsələn, Lesli Holun nəşrində poema "The Life and Death of Scyld" ("Skildin həyatı və ölümü") adlı fəsillə başlayır [156, s. 1]. Devid Briidinin çevirməsində isə dastanın başlanğıcındakı eyni mətnə "Early History of the Danes" ("Danimarkalıların Erkən Tarixi") adı verilmişdir [157, s. 7].

Əlbəttə, bütün bunlar tərcümələrin problemi olub, bizim mövzumuza aid olmadığı üçün əlavə nümunə verməyə ehtiyac görmürük.

Dastan Danimarka kral sülaləsinin tərənnümü ilə başlanır:

Listen:
You have heard of the Danish Kings
in the old days and how
they were great warriors [157, s. 7] .

Dinlə:
Eşidibsən köhnə günlərin Danimarka krallarını
Və onların necə böyük döyüşçü olduğunu.

Danimarkanın ilk kralı Skilddir. Qeyd edək ki, onun adı mətnin orijinalında Scyld şəklində verilib. D.Briidin öz çevirməsində müasir ingiliscəyə uyğun olaraq

adı Shield şəklində vermişdir. Skild çox yaxşı kral, qəhrəman, qorxmaz döyüşçüdür:

Shield, the son of Sheaf,
took many an enemy's chair,
terrified many a warrior,
after he was found an orphan.
He prospered under the sky
until people everywhere
listened when he spoke.
He was a good king! [157, s. 7]
Sheafın oğlu Shield
Bir yetim olarak tapıldıqdan sonra
Çox düşmənin taxtını aldı,
Çox döyüşçünü qorxutdu.
Hər yerdə onun danışığını dinləyən insanlar
Göyün altında (yer üzündə – *R.Vəliyeva*) bacarıqlı oldular.
O yaxşı bir kraldı!

Skild ölür və onu danimarkalıların adətinə uyğun olaraq ölüm gəmisində dəfn edirlər. Skildin Qrain (Grain) adlı oğlu qalır. Onun da Healfdene adlı bir oğlu olur. Healfdenedən dörd uşaq doğulur. Bunlardan biri dastanın əsas qəhrəmanlarından olan Hrotqar (Hrothgar) idi.

Əslində, dastanın danimarkalıların kralı Skildin ölümünün təsviri ilə başlaması, daha sonra onun nəsil şəcərəsinin təsvir olunması və bu şəcərənin dastanın qəhrəmanlarından olan Hrotqara qədər davam etdirilməsi təkcə “Beovulf” dastanına aid poetik təsvir olmayıb, dünya eposları, o cümlədən oğuz dastançılıq ənənəsi üçün xarakterikdir (*Burada əldə olunmuş elmi nəticənin nəşr olunduğu qaynaq üçün bax.: 82*).

Orta əsrlər oğuz dastanları ümumi şəkildə “Oğuznamə” adlanır. Bizə bu ad altında bir çox oğuznamələr məlumdur [13; 22; 28; 58; 69; 70 və s.]. Onların sayı çoxdur. Lakin “Kitabi-Dədə Qorqud”dakı boylar da elə dastanın özündə

“Oğuznamə” adlandırılır. Boyların əksəriyyətinin sonunda belə bir təkrarlanan ifadə var: “Dədəm Qorqut gəlübən boy boyladı, soy soyladı. Bu **oğuznaməyi** düzdi-qoşdı...” [47, s. 41, 50 və s.].

Oğuz xan bütün oğuzların ulu əcdadıdır. “Kitabi-Dədə Qorqud”dan başqa digər oğuznamələrin qəhrəmanı Oğuz xanın özüdür. “Dədə Qorqud”da isə onun ulu əcdad kimi yalnız adı çəkilir. Dastanın onuncu boyu onun adı ilə başlayır: “Oğuz zəmanında Uşun qoca deərlərdi bir kişi var idi” [47, s. 110]. Lakin adı çəkilsə də, özü boyda iştirak etmir.

“Oğuz zəmanı” ifadəsi bütün mənalarda Oğuz xanı, onun dövrünü, hakimiyyətini bildirir. Bu ifadə həm də bütün oğuzların birliyini, onların Oğuz xandan başlanan şəcərəsinə işarə edən obraz kimi Oğuz xandan bəhs edən oğuznamələrlə Oğuzun yalnız adının çəkildiyi “Dədə Qorqud” oğuznamələrini bir xətt boyunca birləşdirir. Maraqlıdır ki, “Beovulf” dastanında Skildin nəsil şəcərəsi haqqındakı təsvir bütün oğuznamələrdəki Oğuz şəcərəsi ilə eyni tipoloji xətt (sıra) yarada bilir. Bu xətti biz süjet tipologiyası baxımından şərti olaraq **“şəcərə motivi”** adlandıra bilərik [100, s. 30-37] . Bu vahid tipoloji xətt (“şəcərə motivi”) aşağıdakı oxşarlıqları, səsləşmələri əhatə edir:

1. Hər iki dastanda kral Hrotqar və Oğuz xan etnik kökün, milli birliyin simvoludur:

Oğuz adı bütün Oğuz xalqını, Oğuz elini, Oğuz dünyasını birləşdirən, ümumiləşdirən milli simvoldur. Bu simvolun varlığı oğuzların milli toplum kimi varlığı üçün şərtdir. Hər bir oğuz insanı öz Oğuz babasını tanımalı, onun nəslindən olduğunu bilməlidir. Bu, hər bir oğuz insanı üçün milli mənsubiyyət, vətəndaşlıq deməkdir. Belə olmadan Oğuz elinin bir parçası, Oğuz cəmiyyətinin tamhüquqlu üzvü olmaq mümkün deyildir. Məhz bu səbəbdən “Oğuznamə” dastanının əsas qəhrəmanı olan Oğuz xan “Kitabi-Dədə Qorqud” dastanında bir obraz kimi iştirak etməsə də (adı epizodik şəkildə çəkilsə də), onun adı oğuzların milli şüurunun simvoludur. “Beovulf” dastanındakı Hrotqar obrazı da danimarkalılar üçün belə bir simvoldur.

Mənbələrin verdiyi məlumata görə, Hrotqar tarixi şəxsiyyətdir. Onun adı XII

əsr Danimarka salnaməçisi Sakson Qrammatikdə, qədim Norveç saqalarında, həmçinin anqlosakson poeması “Widsith”də çəkilir. Hrotqar bu qaynaqlarda patriarxal keyfiyyətlər qazanmış ənənəvi fiqur kimi təqdim olunur. Bu keyfiyyətlər onun tarixi şəxsiyyətinin üstünü örtmüşdür. Hrotqarın hakimiyyət dövrünün təsadüf etdiyi V əsrdə danimarkalıların qüdrətli bir xalq olmalarını VI əsr yunan tarixçisi Prokopi də təsdiq edir. Danimarka taxtında Hrotqardan əvvəl oturmuş sələfləri içərisində ən əhəmiyyətlisi Skilddir. Onun adının mənası “müdafiəçi”, yaxud “qalxan” deməkdir. Bu da belə bir fikir yürütməyə imkan verir ki, Skild hökmən tarixi personaj olmayıb, Danimarka krallığının yaradılması haqqında əfsanəni təcəssüm etdirir. Danimarka kral sülaləsi skildinqlər adlanırdı. Mümkündür ki, məhz bununla bağlı olaraq sülalənin əfsanəvi banisinə (sonradan) Skild adı vermişlər [151].

Bu məlumat təsdiq edir ki, “Beovulf” dastanını yaradanlar və dinləyənlər üçün banisi Skilddən başlanan və Hrotqara qədər davam edən Danimarka kral şəcərəsi Oğuz xanın şəcərəsi kimi müqəddəs nəsil şəcərəsidir. Oğuzlar öz babaları Oğuzun adı ilə adlandıqları kimi, danimarkalılar da öz kral babaları Skildin adı ilə skildinqlər adlanırmışlar. Oğuz xan oğuzların milli kimliyinin simvolu olduğu kimi, Danimarka sülaləsinin əsasını qoyan kral Skild də danimarkalıların milli kimliyinin simvoludur. “Kitabi-Dədə Qorqud”da Oğuz elinin başında duran xanlar xanı Bayındır xan, yaxud bəylərbəyi Salur Qazan Oğuz xanın nəslindən olmaqları, oğuz olmaqları ilə fəxr edən, Oğuz milli kimliyinin şərəfini qoruyan el başçıları olduğu kimi, Skildin nəslindən olan uşaqlar, nəvələr, o cümlədən “Beovulf”un əsas obrazlarından olan kral Hrotqar da öz skildinq milli kimliyi ilə fəxr edən, onu xalqın milli birliyinin simvolu kimi qoruyan kraldır.

2. Kral Hrotqar öz atası Healfdenenin 4 uşağından biri olduğu kimi, Oğuz xanın atası Qara xan da öz ailəsində dörd qardaşdan biridir:

XV əsr tarixçisi Fəzlullah Rəşidəddinin “Oğuznamə”sində deyilir ki, *Nuh peyğəmbər əleyhissəlam yer üzünün məskun hissəsini oğulları arasında bölüşdürdüyü zaman böyük oğlu Yafəsə Şərq ölkələri ilə Türküstanı və o tərəfləri verdi. Onun Dib Yavqu adında bir oğlu oldu. Dibin də dörd oğlu vardı: Qara xan,*

*Or xan, Kür xan və Küz xan. Qara xan vəliəhd olduğundan atasının yerinə keçib padşah oldu. Onun çox ağıllı və padşahlığa layiq bir oğlu dünyaya gəldi* [70, s. 16].

XVII əsr tarixçisi Əbülqazi Bahadır xanın "Şəcəreyi-tərakimə" əsərində göstərilir ki, *Qara xanın atası "Moqol xanın dörd oğlu vardı: böyüyünün adı – Qara xan, ikincininki – Gür xan, üçüncününkü – Qır xan, dördüncününkü – Ur xan idi* [22, s. 51].

Bundan başqa, Oğuz xandan başlanan nəsil şəcərəsində də 4-lüyə rast gəlirik. "Oğuznamə"nin uyğur versiyasında göstərilir ki, *Oğuzun altı oğlu olur: Gün, Ay, Ulduz, Göy, Dağ, Dəniz. Hər bir oğulun isə 4 oğlu olur* [13, s. 125-127].

Bütün bunlar əfsanəvi-mifoloji şəcərə məlumatlarıdır. Şəcərədə 4 rəqəmi təsadüfi deyildir. Çünki mifologiyada hər bir rəqəmin öz mənası var. Ramazan Qafarlı Oğuz xanın hər oğlundan olan 4 nəvə haqqında yazır ki, *"nəvələrin sayı ilkin ünsürləri, dünyanın tərəflərini – istiqamətləri nəzərdə tutur. Mifdə göstərilir ki, Oğuzun nəvələri yer üzünün şimalında, cənubunda, şərqində və qərbində məskunlaşırlar"* [50, s. 55].

"Beovulf"da da Danimarka kral sülaləsinin başçısı Skild həm də mifik-əfsanəvi cizgilər qazanmış obrazdır. Tarixin və əfsanənin bir-birinə qarışdığı bu nəsil şəcərəsində mifik dünyagörüşünün iştirakı, əslində, Skilddən başlanan həmin şəcərədəki bütün ünsürləri mifləşdirir, onlara sakral məna-məzmun verir. Belə olan halda Hrotqarın öz ailəsində dörd uşaqdan biri olması ilə Oğuzun atası Qara xanın dörd uşaqdan biri olması haqqında oxşarlığı tipoloji səsləşmə kimi qəbul etmək olar.

3. Oğuz və Skildi birləşdirən ən mühüm tipoloji cizgi onların hər ikisinin mifik əcdad obrazı (yaxud funksiyası) ilə bağlılığından irəli gəlir:

Hər bir epik ənənədə elin, tayfanın, dövlətin başçısı ilk əcdad obrazı ilə bağlı olur. Elmdə "ilk əcdad", "ilk insan", yaxud "mədəni qəhrəman", yaxud da "demiurq" adları ilə adlanan bu obraz, əslində, hər bir mifologiyanın əsasında durur. İstənilən xalqın eposunun baş qəhrəmanı öz kökünü, əsasını, başlanğıcını ilk əcdad obrazından götürür. Bu xüsusda tanınmış alim Y.M.Meletinski yazır ki,

"*mədəni qəhrəmanlar insanlar üçün müxtəlif əşyaları (odu, mədəni bitkiləri, əmək alətlərini) əldə edən, yaxud yaradan, insanlara ov etməyin, torpaq becərməyin qaydalarını, sənətkarlığı, incəsənəti öyrədən mifoloji personajlardır*" [111, s. 638].

"İlk əcdad", "ilk insan", yaxud "mədəni qəhrəman" eyni bir obrazdır. Onu birinci adam olduğuna görə – ilk insan, bütün adamlar ondan törədiyinə görə – ilk əcdad, adamlar üçün ilk alətləri, ilk əşyaları düzəltdiyi, o cümlədən onlara necə yaşamağı öyrədən ilk "müəllim" olduğu üçün – mədəni qəhrəman adlanırlar. Bu cəhətdən oğuzların ulu babası Oğuz xan ilk əcdad və mədəni qəhrəmandır. Oğuz xandan törəyən insanlar oğuzlar adlanırlar. Eyni xüsusiyyətləri Danimarka kral sülaləsinin banisi Skild obrazında da görmək olur. O, kral sülaləsinin əsasını qoyan varlıq kimi "ilk insan", bütün kral sülaləsi ondan törədiyi üçün "ilk əcdad", o cümlədən krallıq ənənəsinin yaradıcısı kimi "mədəni qəhrəman" obrazının cizgilərinə malikdir. Skilddən törəyən sülalə skildinqlər adlanır.

4. Oğuz xanın və Skildin hər birinin nəsil şəcərəsi mənası, məzmunu və quruluşu baxımından ilk yaradılış mifini əks etdirir:

Ümumiyyətlə, yaradılış mifi hər bir mifologiyanın əsasında durur. V.N.Toporov göstərir ki, "*kosmoqonik miflər və kosmoloji təsəvvürlər mifopoetik dünyagörüşün başqa formaları arasında xüsusi yerə malikdir*" [118. 6].

Burada "kosmoqonik miflər və kosmoloji təsəvvürlər" dedikdə yaradılış mifi və təsəvvürləri nəzərdə tutulur. "Kosmoqoniya" terminin mənası elə "yaradılış" deməkdir. Elçin İmaməliyev yazır: *"Yaradılışın ilkin dərki mifologiyadan başlanır. Bütün miflər, əslində, yaranışı nəql edir. Miflərin məzmunu zahirən fərqli olsa da, onları birləşdirən ümumi ideya yaranışdır. Yaradılış bütün miflərin, o cümlədən onların sistemi olan mifologiyanın ana motividir"* [40, s. 3].

Lakin yaradılış təkcə mifologiya ilə məhdudlaşmır. Mifologiya hər bir mədəniyyətin başlanğıcı, əsası, bünövrəsidir. Mədəniyyətin sonrakı inkişafı mif bünövrəsi üzərində ucaldığı kimi, yaradılış mifi sonradan nağılların, dastanların, əfsanələrin və s. folklor janrlarının əsas ideyasını təşkil edir. Elə bir dastan tapmaq mümkün deyildir ki, orada yaradılış mifinin izləri olmasın. Bu cəhətdən "Beovulf"

dastanının Skildin ölümü ilə və onun nəvəsi Hrotqarın taxta çıxması ilə başlanması birbaşa yaradılış mifini (mifik kosmoqoniyanı) təcəssüm etdirir.

Skild ilk əcdaddır, bütün skildinqlər ondan törəyir. Skildinq dünyası Skildin ölümü ilə məhv olmur: Skild ölür, onun yerinə oğlu keçir, oğlu ölür, yerinə nəvəsi keçir və s. Bu, mifologiyada ölüb-dirilmədir. Yaradılış mifinin mahiyyətində ölüb-dirilmə motivi durur. Yəni yaradılış ölüb-dirilmə yolu ilə gerçəkləşir. Bu cəhətdən "Beovulf"da Skildin ölümü yalnız həmin dastana məxsus yas (kədər) motivi olmayıb, bütün dastanların başlanğıcı üçün səciyyəvi olan ölüb-dirilmə motivinin tərkibinə aiddir. Yaradılış mifi bu motiv vasitəsilə reallaşır (*Əldə olunmuş elmi nəticənin nəşr olunduğu qaynaq üçün bax.: 100*).

Eyni tipoloji mənzərə "Oğuznamə" dastanları üçün də səciyyəvidir. Burada da Oğuzun ölümü yaradılışa xidmət edir. E.İmaməliyev yazır: "*Oğuznamə"də Oğuz* dünyasının *yaranması sxemi belədir:*

*1. Əvvəlcə Oğuz doğulur;*

*2. Oğuz daha sonra Günəş şüası şəklində yerə enən qızla evlənir və ondan Gün, Ay, Ulduz adlı üç oğlu olur;*

*3. Oğuz daha sonra gölün ortasındakı ağacın koğuşunda tapdığı qızla evlənir və ondan da Göy, Dağ, Dəniz adlı üç oğlu olur;*

*4. Oğuz ölməmişdən qabaq 6 oğlu və onlardan doğulan 24 nəvəni Boz oq və Uc oq olmaqla iki qola ayırır* [40, s. 22-23].

Yuxarıda deyildiyi kimi, skildinq dünyasının yaranışı və böyüməsi ölüb-dirilmə yolu ilə baş verdiyi kimi, oğuzların dünyası da eyni yolla yaranır və inkişaf edir.

Yenidən "Beovulf"un süjetinə qayıdaq. Hrotqar kral olduqdan sonra bir çox döyüşlərdə qələbə çalır, ailəsi, dostları və xalqı tərəfindən sevilir.

O, bir gün qərara gəlir ki, dünyanın ən böyük ziyafət salonunu tiksin və Tanrının ona verdiklərini bu sarayda yaşlı-cavan olmasından asılı olmayaraq hamı arasında paylasın. O, tikdirdiyi saraya Herot adını verir. Saray hazır olanda Hrotqar öz vədini yerinə yetirir:

After it was built,
Hrothgar did what he said
he would: handed out gold
and treasure at huge feasts [157, s. 11]
Elə ki saray tikildi,
Hrotqar dediyini yerinə yetirdi:
Qızılı və xəzinəni
Böyük ziyafətlərdə paylaşdırdı.

"Beovulf"dakı bu motiv "Kitabi-Dədə Qorqud"un "İç Oğuza Taş Oğuz asi olub Beyrək öldügi boyı bəyan edər" adlı sonuncu boyunda Salur Qazanın öz evini yağmalatması motivi ilə səsləşir: "Üç oq, Boz oq yığnaq olsa, Qazan evin yağmaladardı... Qaçan Qazan evin yağmalatsa, həlalının əlin alur, tışra çıqar, andan yağma edərdi" [47, s. 123].

Biz hər iki dastanda bir-biri ilə səsləşən bu motivi süjet tipologiyası baxımından şərti olaraq "yağmalama motivi" adlandıra bilərik. Bu motiv aşağıdakı oxşarlıqları, səsləşmələri əhatə edir:

1. Hər iki paylama hadisəsi "yağmalama" motividir. Salur Qazan evini (evin içindəki qiymətli mal-mülkü) paylatdırdığı kimi, Hrotqar da "Tanrının ona verdiklərini" insanlar arasında paylatdırır.

2. Salur Qazan öz evini İç Oğuz (Üç oq) və Daş Oğuz (Boz oq) arasında bərabər şəkildə payladığı kimi, Hrotqar da ziyafət salonundakı var-dövlətini yaşlı-cavan olmasından asılı olmayaraq, hamı arasında paylatdırır. Bərabərlik xalqın birliyini təmin edən qanundur. Onu pozmaq olmaz. O, pozulanda konflikt yarana bilər. Necə ki, Qazan növbəti dəfə evini yağmaladanda yağmada yalnız Üç oq tayfası (İç oğuzlular) iştirak edir, Daş Oğuza xəbər vermirlər və bununla da Oğuz elinin bu iki qanadı arasında qanlı müharibə olur.

3. Qazan öz hakimiyyətinin simvolu olan evini yağmalatdırdığı kimi, Hrotqar da onun hakimiyyətinin simvolu olan ziyafət salonunu yağmalatdırır. Ziyafət salonu bir saray olub, həm də Hrotqarın evidir (*Burada əldə olunmuş elmi nəticənin nəşr olunduğu qaynaq üçün bax.: 100*).

“Beovulf” dastanında daha sonra deyilir ki, bir gecə danimarkalılar Herotda şən pivə məclisi qururlar. Hamısı sərxoş olub yatırlar. Sarayın ətrafında pusquda duran Qrendel adlı div hücum edərək 30 döyüşçünü öldürüb, öz yuvasına aparır və orada yeyir:

One night, after a beer party,
the Danes settled in the hall
for sleep; they knew no sorrows.
The evil creature, grim and hungry,
grabbed thirty warriors
and went home laughing [157, s. 13].
Bir gecə pivə məclisindən sonra
Qəm-kədər bilməyən Danimarkalılar yatışdılar.
Amansız və ac şeytan törəməsi
Otuz döyüşçünü oğurlayıb,
Sevinə-sevinə evinə getdi.

Burada hər iki dastan üçün xarakterik olan iki motivlə üzləşirik: “şərab içib sərxoş olma” və “yuxu” motivləri. Oxşarlıqlar, səsləşmələr aşağıdakıları əhatə edir:

1. “Beovulf”da Danimarkalı igidlər tez-tez içib sərxoş olduqları kimi, Oğuz bəyləri də tez-tez şərab məclislərində sərxoş olurlar. Məsələn, ikinci boyda deyilir: “Bir gün... Salur Qazan yerindən turmuşdı. Toqsan başlu ban evlərin qara yerin üzərinə dikdirmişdi. Toqsan yerdə ala qalı-ipəg döşəmişdi. Səksən yerdə badyələr qurulmışdı. Altun ayaq sürahilər düzülmüşdü. Toquz qara gözlü, xub yüzlü, saçı ardına urulu, köksi qızıl dügməli, əlləri biləgindən qınalı, barmaqları nigarlı məhbub kafər qızları Qalın Oğuz bəglərinə sağraq sürüb içərlərdi. İçüb-içüb Ulaş oğlı Salur qazanın alnına şərabın itisi çıqdı” [47, s. 42].

2. Danimarka igidlərinin “Beovulf”da təsadüf edilən yuxuları da öz folklor spesifikası ilə oğuzların yuxuları ilə səsləşir. Muxtar Kazımoğlu yazır ki, *“Kitabi-Dədə Qorqud”da yatmaq məsələsini qəhrəmanlıq eposu üçün təsadüfi detal kimi də qiymətləndirmək mümkün deyil. Bu, necə təsadüfdir ki, eposda oğuz igidlərinin bərk yatmasına xüsusi işarə olunur? Eposun on birinci boyunda ova çıxan Qazan*

*xanın düşmən qalasına yaxın bir yerə çatıb, orada yatmaq istəməsindən söhbət açılır və bəri başdan bu yatmağın uzun çəkəcəyi bildirilir. Bu nümunədə yatmaq məsələsi iki cəhətdən diqqəti cəlb edir: düşmənə lap yaxın yerdə yatmaq və daş kimi yatıb oyana bilməmək*" [46, s. 188].

"Dədə Qorqud"un on birinci boyunda deyilir: "Gözlədilər, şahin Tumanın qələsinə endi. Qazan qayət səxt oldu. Şahinin ardına düşdi, dərə-dəpə aşdı. Kafər elinə gəldi. Gedərkən Qazanın qarannulu gözüni uyxu aldı. Bəglər ayıtdılar: "Xanım, dönəlim!". Qazan aydır: "Birəz dəxi ilərü varalım!" – dedi. Baqdı, bir qələ gördi. Aydır: "Bəglər, gəlin yatalum!" – dedi. Qazanı küçicik ölüm tutdı, uyıdı. Oğuz bəgləri yedi gün uyurdı. Anunçun "küçicik ölüm" deərlərdi" [47, s. 116].

Göründüyü kimi, oğuzlar 7 günlük yuxunu ölüm, şər, bəla ilə əlaqələndirirlər. Dastanda açıq-aydın bir dillə deyilir: "Ol zəmanda Oğuz igidlərinə nə qəza gəlsə, uyxudan gəlürdi" [47, s. 90].

M.Kazımoğlunun yuxarıda verdiyimiz ifadəsinə əsaslansaq, "yatmaq məsələsini" "Beovulf" dastanı üçün də təsadüfi detal kimi qiymətləndirmək mümkün deyildir". Ölüm bəlası Danimarkalı igidlərin də başına onlar kütləvi şəkildə yuxuda olarkən gəlir: pusquda yatan Qrendel adlı div onlar "ölüm yuxusunda" olarkən gəlir və 30 igidi öldürərək aparır.

Beləliklə, aydın olur ki, qəhrəmanlıq dastanlarında yuxu motivi ölüm motivi ilə sıx bağlıdır. Seyfəddin Rzasoy yazır ki, "*oğuz üçün xaos yuxu və ölüm dünyasıdır. Yuxuda olmaq ölüm dünyasında olmaq, ölüm dünyasında olmaq yuxuda olmaq deməkdir"* [71, s. 192].

"Beovulf" dastanında deyilir ki, Danimarkalılar Qrendelin hücumundan səhər açılanda xəbər tuturlar. Hamı göz yaşlarına qərq olur. Lakin Qrendel növbəti gecə yenə hücuma keçərək daha çox adam öldürür. Onun hücumları on iki il davam edir. Danimarka torpağı kədərə qərq olur.

Qrendelin oğuz eposundakı analogiyaları Kıat və Təpəgözdür. "Oğuznamə"nin uyğur versiyasında deyilir:

Ormanda nəhəng bir Kıat yaşayırdı,
atları, adamları yeyirdi.
Çox böyük bir yırtıcı idi.
O, elin yaxşı gününü aldı,
adamları əzaba saldı [13, s. 124].

“Kitabi-Dədə Qorqud”da deyilir: “Dəpəgöz Oğuzdan çıqdı, bir yuca tağa vardı. Yol kəsdi, adam aldı, böyük hərami oldı. Üzərinə bir qac adam göndərdilər. Ox atdılar, batmadı. Qılıc urdılar, kəsmədi. Sügüylə sancdılar, ilmədi. Çoban-çoluq qalmadı, həb yedi. Oğuzdan dəxi adam yeməgə başladı” [47, s. 99]. El ağsaqqalı Dədə Qorqudu danışmaq üçün Təpəgözün yanına yollayırlar. O, hər gün iki adam və beş yüz qoyunun qarşılığında Oğuza hücum etməməyə söz verir [47, s. 99].

“Beovulf”da deyilir ki, Qrendel öz hücumları ilə Danimarkanı tam əldən salır. Herot sarayı boşalır, Qrendel artıq gecələri burada keçirir. Kral Hrotqar nə qədər tədbir görürsə də, heç bir xeyri olmur. Danimarka igidləri qəzəblərindən boğulur, ağlayıb-sızlayırlar.

Ozanlar Danimarkanın başına gələn bəla haqqında kədərli nəğmələr qoşurlar. Bu nəğmələr hər tərəfə yayılır. Uzaq qeatların tayfasından Beovulf adlı igid də bu hadisədən xəbər tutur və o, Hrotqara kömək etmək qərarına gəlir. Beovulf özünə on dörd ən igid döyüşçü seçir. Onlar gəmiyə minərək Danimarkaya doğru üzürlər.

Gəmi ertəsi gün Danimarka sahilinə çatır. Burada onları sahil gözətçisi qarşılayıb, kim olduqlarını soruşur. Beovulf Qeat xalqından olduqlarını, qeatların başçısı Hiqelakın ən yaxın yoldaşları (“can yoldaşı”) olduqlarını və köməyə gəldiklərini söyləyir.

Sahil gözətçisi qeatları Herot sarayına gətirir. Kral Hrotqara xəbər aparırlar. O, Beovulfu sevinclə qarşılayır. Beovulf qeatların kralı Hiqelakın döyüşçüsü olduqlarını, Qrendelin xəbərini aldıqlarını, onun qorxusundan Herot sarayının gecələr tərk edildiyini eşitdiyini və köməyə gəldiklərini söyləyir.

Beovulf Hrotqardan onun düşməni Qrendellə vuruşmağa icazə istəyir:

And now I shall, alone,
fight Grendel. I ask you,

lord of the Danes,
protector of this people,
for only one favor:
that you refuse me not,
fair friend of the people… [157, s. 25].
Və indi Qrendellə təkbaşıma döyüşəcəyəm.
Və ey Danimarka lordu,
Bu insanların qoruyucusu,
Sizdən tək bir yaxşılıq istəyirəm:
Ey xalqın ədalətli dostu,
Mənim təklifimdən imtina etməyin...

Göründüyü kimi, Beovulf Hrotqardan onun düşməni ilə savaşmaq üçün icazə istəyir. Bunu süjet tipologiyası baxımından şərti olaraq "vuruşmağa icazə istəmək motivi" adlandırmaq olar. Bu motivə "Kitabi-Dədə Qorqud"da da rast gəlirik. Oğuz bəyləri öz həmtayfalarının düşməni ilə vuruşmaq üçün icazə istəyərdilər. Birinin düşməni ilə icazəsiz vuruşmaq onu təhqir etmək sayılırdı. Məsələn, dastanda Şir Şəmsəddinin icazə almadan vuruşması onun adında belə qeyd olunur: "*Dəstursızca Bayındır xanın yağısın basan...*" [47, s. 49].

Vaxtilə Beovulfun atasını çox yaxşı tanımış və onunla dost münasibəti olmuş Hrotqar razılıq verir və onların şərəfinə Herotda içki məclisi qurulur. Nəğməkar (ozan) mahnılar oxuyur və Beovulf dostları ilə dincəlir.

Unferth adlı özündən başqa güclü bir döyüşçü tanımayan, lovğa bir Danimarkalı igid Beovulfu qəbul edə bilmir və həmin məclisdə ona tənəli, tikanlı sözlər deyir. Bildirir ki, əgər burada gecəyə qədər Qrendeli gözləməyə cürətin çatsa da, ona heç bir şey edə bilməyəcəksən.

Beovulf ona cavab verir ki, siz Qrendelin qarşısına cəsarətlə çıxa bilmirsiniz və Qrendel bunu bildiyi üçün bu qədər cəsarətlidir. Beovulf Qrendelə təkbaşına və silahsız qalib gələcəyinə hamının qarşısında söz verir.

Gecə düşəndə Qrendelin gələcəyini bilən Hrotqar ayağa durur, Beovulfa uğurlar diləyib, öz adamları ilə sarayı tərk edir. Beovulf və dostları isə qorxmadan

yatırlar. Lakin Beovulf yatmayıb özünü yuxuluğa vurur. O bilir ki, Qrendel gecə saraya gələndə onun dəstəsinə hücum edəcək.

Qrendel gəlir, döyüşçüləri görəndə onda vəhşi bir iştaha yaranır. Onlardan birini dərhal öldürüb, əlləri-ayaqları qarışıq acgözcəsinə yeyir. Sonra o, Beovulfa yaxınlaşıb onu yemək istəyir. Lakin Beovulf öz güclü qolları ilə Qrendelin bir qolundan yapışıb, qırılana qədər burur. Div ağrıdan bütün insanların eşidə biləcəyi səslə bağırır. Onların arasında dəhşətli bir döyüş olur. Döyüşün gurultusunu bütün Danimarka eşidir. Bu səsə oyanan o biri döyüşçülər də qılınclarını çəkib Qrendelə hücum edirlər. Lakin ona nə qədər qılınc vururlarsa, kəsmir. Döyüşçülər bilmirdilər ki, divin bədəni tilsimlidir və heç bir qılınc onu kəsə bilmir. Beovulf Qrendelin qolunu və çiynini qopardır. Ölümcül yaralanmış div Beovulfun güc çatılmayacaq bir igid olduğunu görüb, birtəhər onun əlindən qurtularaq qaçır. Atlılar Qrendelin axan qanının izi ilə onun bataqlığına qədər gəlir və divin öldüyünə əmin olurlar.

Hrotqara xəbər verirlər. O, saraya gəlir, burada Tanrıya şükür edir. Beovulfa bildirir ki, sən sonsuz şöhrətə və mükafata layiqsən. Hrotqar böyük bir ziyafət təşkil olunmasını əmr edir. İnsanlar müdhiş düşmənləri olan Qrendelin bədəninin qoparılmış hissələrini görmək və bayram etmək üçün dəstə-dəstə saraya axışırlar. Bütün Danimarka qələbəni qeyd edir.

Hrotqar Beovulfa mükafat olaraq döyüş bayrağı, zirehli paltar, silahlar, atlar və s. qiymətli hədiyyələr verir. Daha sonra onun döyüşçülərinə də hədiyyələr verilir. Ölmüş döyüşçünün ailəsinə çatmaq üçün də qiymətli hədiyyə verilir. Məclisə nəğməkarlar gəlib, Danimarkalıların keçmiş günlərindən və qəhrəmanlarından bəhs edən nəğmələr oxuyurlar [157, s. 45].

Qeyd edək ki, "Beovulf" üçün səciyyəvi olan və süjet tipologiyası baxımından şərti olaraq "ozan motivi" adlandıra biləcəyimiz bu motiv "Dədə Qorqud" dastanı üçün də xarakterikdir. Demək olar ki, boyların əksəriyyətində Oğuz qəhrəmanlarının qələbəsindən sonra Dədə Qorqud gəlib şadlıq çalır. Məsələn, ikinci boyda Salur Qazan və Oğuz bəyləri qələbə çaldıqdan sonra qələbə belə qeyd olunur: "Qazan bəg ordısını, oğlanını-uşağını, xəzinəsini aldı, gerü döndi altun

təxtində. Yenə evini dikdi. Qaracıq çobanı əmiraxur elədi. Yedi gün, yedi gecə yimə-içmə oldı. Qırq baş qul, qırq qırnaq oğlı Uruz başına azad elədi. Cılasun qoc yigitlərə qalaba ölkə verdi; şalvar, cübbə, çuqa verdi.

Dədəm Qorqut gəlübən boy boyladı, soy soyladı. Bu oğuznaməyi düzdi-qoşdı...” [47, s. 50].

Maraqlıdır ki, Dədə Qorqud bir ulu ozan kimi oğuz qəhrəmanları haqqında oğuznamələrin yalnız yaradıcısıdır. O, özü sonra bu nəğmələri ifa etmir. Dədə Qorqudun yaratdığı bu oğuznamə-nəğmələri ondan sonra ozanlar ifa edirlər. Bu, eposun beşinci boyunda (“Dəli Domrul”) xüsusi vurğulanır: Boyda deyilir:

“Dədəm Qorqut gəlübən boy boyladı, soy soyladı. “Bu boy Dəli Domrulun olsun. Məndən sonra alıb ozanlar söyləsün! Alnı açuq comərd ərənlər dinləsün!” – dedi” [47, s. 83].

“Beovulf” dastanındakı şair-nəğməkarlar da “Dədə Qorqud”dakı ozanlarla eyni vəzifəni yerinə yetirirlər. Həmin nəğməkarlar Siqmund və Heromoda kimi əfsanəvi igidlərin şərəfinə qoşulmuş nəğmələr oxuyurlar.

Göründüyü kimi, həm oğuz ozanlar, həm də danimarkalı nəğməkarlar xalqın əfsanəvi qəhrəmanları haqqında qoşulmuş dastanları el məclislərində oxuyurlar.

“Kitabi-Dədə Qorqud” da bu nəğməkarlar *ozan* adlanır. “Beovulf”da isə biz onların *bard* adlandığını görürük. Bard – orta əsrlər şair-nəğməkarıdır. “Kitabi-Dədə Qorqud”da Dədə Qorqud həm ozan, həm də gələcəkdən xəbər verən övliya-şamandır. Epos onu belə təqdim edir: “Rəsul əleyhissəlam zəmanına yaqın Bayat boyından Qorqut ata diyərlər bir ər qopdı. Oğuzın ol kişi təmam bilicisiydi, – nə diyərsə, olurdı. Ğaibdən dürlü xəbər söylərdi. Həqq təala anın könlinə ilham edərdi” [47, s. 31].

Eyni “övliya-şaman” funksiyasını Hrodqarın Beovulfun ilk qələbəsi şərəfinə verdiyi ziyafətdə oxuyan bardın obrazında müşahidə edirik. O, deyildiyi kimi, burada Finnsburq haqqında dastanı oxuyur. Bard nəğmədə Danimarkanın keçmişindəki daxili müharibələrlə bugünkü şənliklərini qarşılaşdıraraq, Danimarka kral xanədanının tezliklə xəyanət üzündən süqut edəcəyini eyhamla xəbər verir. Beləliklə, o da Dədə Qorqud kimi gələcəkdən xəbər verir.

Göründüyü kimi, hər iki dastanda qəhrəmanın qələbəsi böyük bir ziyafətlə qeyd olunur və həmin ziyafətdə ozanlar və bardlar qəhrəmanın şərəfinə nəğmələr oxuyurlar. Lakin bu epizodda hər iki dastanı bir-birinə yaxınlaşdıran, hətta belə demək mümkünsə, eyniləşdirən bir məqam da var.

"Beovulf"da danimarkalılar Qrendelin qoparılmış əlini, qolunu və çiynini ortaya qoyub qələbəni bayram edirlər. Eyni hadisəni olduğu kimi Qrendelin "Kitabi-Dədə Qorqud"dakı analogiyası Təpəgözlə bağlı da görürük. "Basatın Təpəgözü öldürdüyü boy"un sonunda deyilir: "Qalın Oğuz bəgləri yetdilər. Salaxana qayasına gəldilər. Dəpəgözin başını ortaya gətürdilər. Dədəm Qorqud gəlübən şadlıq çaldı" [47, s. 103].

"Beovulf"da daha sonra deyilir ki, Beovulfa tənə etmiş Unferth öz hərəkətinə görə üzr diləyir. Kraliça çıxış edərək Beovulfa çox qiymətli hədiyyələr verir. Hamı içib sərxoş olur. Axşam Hrotqar sarayı tərk edir. Hamı yatır.

Qrendelin anası öz oğlunun ölümündən dəhşət qəzəblənir və intiqam almaq qərarına gəlir:

So his mother, greedy
and gloomy as the gallows,
went on a sorrowful journey
to avenge her son's death [157, s.53].
Buna görə də onun  hirsli
Və dar ağacı kimi hüznlü anası
Oğlunun ölümünün intiqamını almaq üçün
Ağrılı bir yol tutdu.

Ana div qəzəb içində Herota gəlir. Beovulf bu zaman orada yox idi. Qrendelin anası Hrotqarın bir adlı-sanlı igidini öldürərək, bataqlığa aparır. Hərə bir yana qaçır və xalqın canına qorxu düşür. Beovulfa xəbər verirlər. O, Hrotqarla görüşür. Özünün ən cəsur igidinin öldürülməsinə görə dərin kədər içərisində olan kral Qrendelin anasının harada yaşadığını Beovulfa başa salır. Beovulf isə öz növbəsində Hrotqara səbirli olmağı, dost üçün ağlamaqdansa onun intiqamının alınmasına çalışmağın daha yaxşı olduğunu ona söyləyir.

Hrotqar və adamları atlara minib ana divin yaşadığı yeri Beovulfa göstərirlər. Bura dəhşətli bir bataqlıqdır. Qətiyyən heç bir qorxu hissi keçirməyən Beovulf bataqlıqda suyun altında olan ana divlə döyüşmək üçün əyninə qalın zireh geyir, başına isə parlaq və möhkəm bir dəbilqə qoyur. Vaxtilə sərxoş vəziyyətdə Beovulfa lağ etmiş, lakin Qrendelin ölümündən sonra peşman olaraq üzr istəmiş Unferth özünün məşhur qılıncını Beovulfa verir. Bu, adi qılınc deyildi. "Hrunting" adlanan bu qəbzəli qılınc qiymətli dəmirdən hazırlanmış zəhərli silah idi. Onu əlinə alan qələbə çalırdı. Lakin Unferth özü ana divlə döyüşməyə cəsarət etmədiyi üçün qılıncı Beovulfa verir.

Süjet tipologiyası baxımından şərti olaraq "qılınc motivi" adlandırdığımız bu motiv Azərbaycan epos ənənəsi üçün səciyyəvidir. Əvvəla, "Kitabi-Dədə Qorqud"da Təpəgözün öldürüldüyü boyda ayrıca qılınc motivi var. Basat Təpəgözü onun öz qılıncı ilə öldürür [47, s. 103]. Unferthin Beovulfa verdiyi qılınc adlı qılınc olduğu kimi ("Hrunting"), "Koroğlu" dastanında da onun göydən düşmüş daş (dəmir) parçasından (ildırım daşından) hazırlanmış qılıncı da "Misri qılınc" adlanır. Uşaq vaxtı adı hələ Rövşən olan Koroğlu çöldə oynadığı vaxt yerdən parıldayan, balaca, lakin çox ağır bir daş tapır. Atası Alı kişi daşın göydən düşmüş ildırım parçası olduğunu görür. O, həmin daşdan bir qılınc düzəltdirir. Vaxtı gələndə onu oğluna verib deyir: "Rövşən, al bu qılıncı belinə bağla. Bu qılınc sən gördüyün qılınclara bənzəməz. Bu qılınca ildırım qılınc deyərlər... Bu qılınc ilə sən bəylərə, xanlara, paşalara qan udduracaqsan... Bu qılınc ilə sən qalalar sındıracaqsan, sədlər dağıdacaqsan. Ancaq bunun ildırım qılınc olduğunu heç kəsə bildirmə! Bundan sonra bunun adına Misri qılınc deyərsən" [48, s. 31-33].

Məmmədhüseyn Təhmasib yazır ki, "*bir sıra dastanlarımızda qəhrəmanların qılıncı Misri qılınc adlanır. Lakin, ümumiyyətlə, bu qılınc Koroğluya məxsusdur. Koroğlunu hətta Misri qılıncsız təsəvvür etmək mümkün belə deyildir. Qıratsız, bir də Misri qılıncsız Koroğlu Koroğlu deyil, kor kişinin oğludur*" [80, s. 142]. Behruz Həqqi də yazır ki, "*Koroğlunun qılıncı xeyir, bərəkət ruhuna malik olduğuna görə qəhrəmanların müdafiəçisi sayılaraq, döyüşün çətin anlarında daşlı qayaları şaqqalayıb hamının təəccübünə səbəb olurdu*" [35, s. 155]

Beovulf döyüşə girməzdən qabaq kral Hrotqardan əgər o ölərsə, onun döyüşçülərini qorumağını, ona bağışlanmış qiymətli hədiyyələrdən ibarət xəzinəni kral Hiqelaka yollamasını və onun öz qılıncını Unferthə verməsini xahiş edir. O, daha sonra suyun altına enir. Suyun altında gizlənən Qrendelin anası yuxarıdakı səs-küyü eşidir və adamların onun yuvasını axtardığını bilir. O daha sonra suyun altına enən Beovulfu görüb ona hücum edir. Ana div özünün qorxunc pəncələri ilə Beovulfu parçalamaq istəyir, lakin döyüşçünün zirehi onu qoruyur. O, bu dəfə Beovulfu sürüyüb öz yuvasına dartır. Beovulf isə qılıncını çıxarıb ana divin başına endirir. Lakin o, dərhal anlayır ki, bu qılıncla divə heç nə edə bilməyəcək. Ona görə də qılıncı yerə atıb əlləri ilə divə hücüm edir. Qrendelin anası cəld tərpənib, onu yerə yıxır və xəncəri ilə öldürmək istəyir. Lakin Beovulfun zirehi onu bu dəfə də qoruyur. Beovulf divin əlindən qurtulub ayağa durur. O, divin yuvasında nəhəng və əzəmətli bir qılınc görür. Beovulf həmin qılıncla Qrendelin anasını öldürür. Beləliklə, “Kitabi-Dədə Qorqud”da Basat Təpəgözü onun öz qılıncı ilə öldürdüyü kimi, “Beovulf”da da qəhrəman ana divi onun yuvasındakı nəhəng qılıncla öldürür [157, s. 77-78].

Beovulf mağarada cansız şəkildə düşüb qalmış Grendelin də başını kəsir. Bu dəm yuxarıdakılar suyun üzünü qan aldığını görüb, Beovulfun həlak olduğunu düşünürlər. Hətta kral Hrotqar ümidsizlik içərisində evinə gedir, Beovulfun döyüşçüləri isə oturub ümidsizcəsinə və qəm-kədər içində suya baxırlar. Bu dəm Beovulf Qrendelin başı ilə bərabər üzüb suyun üzünə qalxır. Döyüşçüləri sevinc bürüyür. Dörd nəfər Qrendelin nizəyə keçirilmiş başını götürüb Herot sarayına gəlirlər. Onlar başı Hrotqara təqdim edirlər. Beovulf krala bildirir ki, danimarkalıların intiqamı alındı. İndi kral da, onun xalqı da rahat yaşaya bilərlər [157, s. 81].

Süjetin bu hissəsi “Kitabi-Dədə Qorqud”la birbaşa tipoloji eynilik təşkil edir. Yada salaq ki, hələ Beovulf ilk dəfə Qrendelin qolunu qoparanda danimarkalılar qolu ortaya qoyub bayram etmişdilər. Biz bu epizodun Oğuz bəylərinin Təpəgözün başını ortaya gətirməsi ilə oxşarlıq təşkil etdiyini qeyd etmişik. İndi isə Qrendelin Beovulf tərəfindən kəsilmiş başının Herot sarayına gətirilməsi epizodu ilə

Təpəgözün Basat tərəfindən kəsilmiş başının meydana gətirilməsinin tam eyniyyət təşkil etdiyini görürük.

Dastanda deyilir ki, Beovulf daha sonra divlərin onlara qələbə gətirən məşhur qılıncını Danimarkanın kralı Hrotqara verir. Kral Hrotqar nitq söyləyərək Beovulfa şöhrətdən başı gicəllənməmək, təkəbbürdən qaçmaq, ölkəni ədalətlə idarə etmək, dostlara və xalqa qarşı diqqətli olmaq, dostluqda vəfalı olmaq, hakimiyyət və var-dövlətə uyub qəflətə düşməmək, günah işlərdən uzaq qaçmaq və s. haqqında nəsihətlər verir [157, s. 82-85].

Hrotqarın söylədiyi bu nəsihətlər bir tərəfdən onun özünün şəxsi həyat və idarəçilik təcrübəsini əks etdirirsə, o biri tərəfdən Danimarka cəmiyyətində bir igidin, qəhrəmanın, tayfa, xalq başçısının, yaxud kralın necə olması, xalqla, dostlarla necə davranması haqqında o zamanın ictimai görüşlərini əks etdirir. Hrotqarın bu nitqini süjet tipologiyası baxımından şərti olaraq "nəsihət motivi" adlandırmaq olar. Bu motivə geniş şəkildə "Kitabi-Dədə Qorqud"un müqəddiməsində, dastanın süjetində isə ayrı-ayrı boylarda Dədə Qorqudun Oğuz igidlərinə verdiyi nəsihətlərdə rast gəlmək olar.

Hrotqarın nəsihətindən sonra böyük yemə-içmə məclisi olur, hamı qələbənin, Danimarkanın əzazil düşmənlərdən qurtulmasının, ölkənin və onun kralının Beovulf kimi xeyirxah və yenilməz dostu Beovulfun şərəfinə çoxlu içib bayram edir. Daha sonra qəhrəman və onun döyüşçüləri dincəlirlər. Danimarkalılar onların qulluğunda durub, ən kiçik arzularını belə böyük bir sevinclə yerinə yetirirlər. Səhər açılanda Beovulf və dəstəsi gəmi ilə vətənlərinə yola düşürlər. Bununla da süjetin birinci hissəsi qurtarır. Bu hissə Beovulfun Danimarka torpağında göstərdiyi möhtəşəm qəhrəmanlıqlardan bəhs edirdi. İkinci hissədəki hadisələr isə artıq onun öz vətənində – igid qeatların yurdunda baş verir. Qeatlar (Geatas) vaxtilə İsveçin cənubunda yaşamış tayfalardır. Beovulf qeat kral ailəsindən idi. Ölkəni onun əmisi Hiqelak (Hygelac) idarə edirdi.

Dastanda deyilir ki, Beovulfun əmisi Hiqelakın oğlu Heardred isveçlilərlə döyüşdə öldürüldükdən sonra taxt-tacın yeganə varisi Beovulf geatların kralı olur. O, əlli il ölkəni ədalətlə idarə edir. Onun bu xoşbəxtliyinə əjdahanın hücumu ilə

son qoyulur. Əjdaha isə təsadüfən hücum etmir. O, bir ucqar mağarada üç yüz il idi ki bir xəzinəni qoruyurdu. Qeatların ölkəsindən bir nəfər əjdaha yatarkən mağaradan oğurluq edir. Buna görə də əjdaha gecə vaxtı qeatlara hücum edib, öz atəşi ilə onları yandırır. Səhərə qədər qabağına nə keçirsə – hər şeyi və hər yeri xaraba qoyur. Səhər öz mağarasına qayıdır. Beovulf bundan xəbər tutur. Artıq çox yaşlaşsa da, döyüşə hazırlaşır. O, əmr edir ki, əjdahanın püskürdüyü oda davam gətirən bir qalxan hazırlasınlar.

Beovulf on iki adamla əjdahanı ziyarət edir və onun qeatlara düşmən kəsilməsinin səbəbinin bir oğru olduğunu öyrənir. Ölümünün yaxınlaşdığını bilən Beovulf yoldaşlarını başına toplayıb, keçmiş günləri, əmisini, əmisi oğlunun intiqamını almasını, şanlı döyüşləri və s. xatırlayır. O, sözlərini belə bitirir:

I ventured many battles
in my youth; now, old,
I will seek another,
try again for glorious,
if that avenger
will come out" [157, s. 101].
Gəncikən bir çox savaşlara
Cəsarətlə atıldım, indi isə qocalmışam.
Başqa bir igid axtarıram:
Əgər peydə yenə də bir qisasçı,
belə şanlı işlərdə sınayın onu.

Fikirlərini davam etdirən Beovulf bildirir ki, əjdaha Qrendeldən fərqli olaraq od püskürür. Bu, çox ciddi bir silahdır, ona görə də mən olunla Qrendellə vuruşduğum kimi zirehsiz vuruşmayacam. Əjdahanın püskürdüyü oddan, atəşdən qorunmaq üçün zireh geyinməyimə, qalxan götürməyimə böyük ehtiyac var. Mən əjdaha ilə axıradək döyüşəcəyəm, Tanrı kimə versə, o da qalib olacaq. Mən inanıram ki, bu döyüşdən qalib ayrılacam.

Maraqlıdır ki, Basat Təpəgözün üzərinə tək getdiyi kimi, Beovulf da əjdahanın üzərinə yalnız getmək istəyir. Ona görə də o, yoldaşlarına müraciətlə

bildirir ki, onlar arxada gözləsinlər. Döyüşə atılan Beovulf əjdahanın püskürdüyü alovdan mağaraya girə bilmir. Beovulfun əyninə geyindiyi zireh və əlinə aldığı qalxan onu axıra kimi qorumur. Qısa müddətdən sonra onlar sıradan çıxır. Qeatların kralı dədə - baba qılıncını çəkib əjdahanı vursa da, onun zərbəsi sarsıdıcı olmur. Əjdaha əvvəlki kimi qəhrəmanın üzünə od püskürür. Bu mənzərənin şahidi olan Beovulfun adlı- sanlı igidləri qorxub qaçırlar. Onlar arasında yalnız bir nəfər – Uiqlaf adlı döyüşçü (Wiglaf) Beovulfu tərk etmir, yoldaşını qoyub qaçmır. Uiqlaf döyüşə atılmasa da, özünün ruhlandıran çağırışları ilə Beovulfa cəsarət verir, onu qəhrəmanlığa səsləyir. Lakin bir qədər sonra özü də qılınca əl atıb əjdahaya hücum edir. Uiqlafın çağırışından cəsarətlənən Beovulf "Neagling " adlı qılıncını çəkib əjdahanın başına güclü bir zərbə endirir, lakin qılınc bu zərbəyə tab gətirməyib qırılır:

Naegling, the great sword of Beowulf,
ancient and shining,
broke, failed in battle [157, s. 110].
Beovulfun qədim və parlaq,
Böyük qılıncı Naegling
Döyüşdə bacarıqsız olub qırıldı.

Bu zaman əjdaha hücum edib, Beovulfun boynunu gəmirir. Aləmi qan bürüyür. Uiqlaf əlləri yanmış olsa da, Beovulfa kömək etməyə çalışır. O, zirehinin altında gizlətdiyi böyük qəməsini çıxarıb əjdahanın qarnına soxur. Beovulf bütün gücünü toplayıb əjdahanın axırına çıxır. Bu, ölməkdə olan qoca qəhrəmanın son igidliyi idi:

That was Beowulf's last victory;
his last work in this world [157, s.111].
Bu, Beovulfun son qələbəsi,
Bu dünyada edə bildiyi son iş idi.

Beovulfun bu son döyüşünü süjet tipologiyası baxımından şərti olaraq "əjdaha ilə döyüş motivi" adlandırmaq olar. Bu motiv "Kitabi-Dədə Qorqud"da öz analogiyasına malikdir. Belə ki, dastanın on birinci boyunda bu eposun əsas silah

qəhrəmanı olan Salur Qazanın əjdaha ilə vuruşması haqqında nəğmə ("soylama") var [47, s. 117-118].

"Beovulf" dastanında daha sonra deyilir ki, qəhrəmanın yaraları şişməyə və incitməyə başlayır. O anlayır ki, ömrünün son anlarını yaşayır. Beovulf Uiqlafa deyir ki, indi mən öləndə öz döyüş əlbisələrimi övladlarıma verməli idim. Lakin tale mənə övlad sahibi olmağı qismət eləmədi. Əlli il hakimiyyətdə oldum. Heç bir kral ölkəm üzərinə qılınc çəkməyə cürət etmədi. İndi ölsəm də, həyatımı belə keçirdiyimə görə özümdən razıyam. Tanrı məni kimsəni nahaq öldürdüyümə görə günahlandırmayacaq.

Uiqlaf Beovulfun istəyi ilə xəzinəni daşıyıb onun yanına gətirir. Beovulf ölməmişdən qabaq öz xalqına bir xəzinə bəxş edə bildiyi üçün Tanrıya şükür edir. O, Uiqlafa vəsiyyət edir ki, meyidi yandırıldıqdan sonra onun döyüşçüləri sahildə "Beovulfun təpəsi" deyiləcək böyük bir təpə ucaltsınlar. Sonra o, boynudakı qızıl boyunbağısını, dəbilqəsini, üzüyünü və zirehini Uiqlafa bağışlayır.

Bir azdan qorxub qaçmış digər on döyüşçü də qayıdıb gəlir. Uiqlaf onları böyük bir nifrətlə qarşılayır, Beovulfun çörəyinə, hədiyyələrinə, etimadına xain çıxmaqda, namərdlikdə günahlandırır və xalqın onlara nifrət edəcəyini söyləyir.

Saraya göndərilən qasid Beovulfun öldüyünü, buna görə qonşuların onların üzərinə baş qaldıracağını, onları kədərli tale gözlədiyini qeatlara xəbər verir.

Qeatlar göz yaşı içərisində qəhrəmancasına həlak olmuş hökmdarlarını gətirməyə getdilər. Uiqlaf Beovulfun onun necə dəfn edilməsi haqqında vəsiyyətini qeatlara söylədi. Onun nəşini okeanın sahilindəki "Hronesness" burnuna gətirdilər. Öz adətlərinə uyğun olaraq cənazə tonqalı hazırladılar, ağlaşdılar və tonqalı yandırdılar. On gündən sonra həmin yerdə böyük bir təpə (kurqan) ucaltdılar [157, s. 134].

"Beovulf" dastanında süjet tipologiyası baxımından şərti olaraq "dəfn (kurqan) motivi" adlandıra biləcəyimiz bu motiv oğuz eposu üçün də xarakterikdir. "Dədə Qorqud"da "Dügməsi böyük bizim dağlarımız olur" ("Tökməsi böyük bizim dağlarımız (tökmə təpə – R.Vəliyeva) olur")" ifadəsi var [47, s. 80].

Ümumiyyətlə, oğuz-türk tarixində kurqanların yeri qədim və böyükdür. Avrasiya materikinin, demək olar ki, hər yerində türk sərkərdələrinin kurqanları var. Kurqanlar hökmdarların, sərkərdələrin cənazəsi üzərində ucaldılan tökmə təpələrdir.

Rəşidəddin "Oğuznaməsi"ndə tökmə təpənin necə hazırlanması təsvir olunur. Dünyanı fəth edən Oğuz xan Arran və Muğana gəlir: "*Yaylaqda qaldıqları zaman bu tərəflərdə olan bütün ölkələri ələ keçirib zəbt etdilər. Azərbaycan vilayətini də aldılar. Özünün xas atlarını otlaqları çox geniş və gözəl olan Ucan səhrasının otlaqlarında bəslədi. Orada olduğu vaxt hər gün hər kəsin toplanıb, bir ətək torpaq gətirərək burada bir təpə düzəltmələrini əmr etdi. Öncə özü bir ətək torpaq gətirib tökdü. Şəxsən özü torpaq tökdüyü üçün bütün əskərlər də bir ətək torpaq gətirib tökdülər. Böyük bir təpə oldu. Adına Azərbaycan dedilər*" [70, s. 31].

Bu məqam çox diqqətçəkicidir. Təpələrin düzəldilməsi Oğuz və Beovulfun mifik mədəni qəhrəman cizgilərini nümayiş etdirir. Burada mədəni qəhrəmana aid iki akt müşahidə olunur:

1. Yeni təbiət obyektinin yaradılması:

Beovulf da, Oğuz xan da təpə qurdururlar.

2. Yeni obyektə ad verilməsi:

Beovulf öz təpəsinə – "Beovulf təpəsi", Oğuz isə – "Azərbaycan" adını verir.

Yeni obyektlərin yaradılması və onlara ad verilməsi mifologiyada ilkin əcdadın "mədəni qəhrəman" funksiyasına daxil olan sabit hərəkət aktlarıdır.

Beləliklə, "Beovulf" və "Kitabi-Dədə Qorqud" dastanlarının süjet tipologiyasının tədqiqi bizə aşağıdakı ortaq tipoloji motivləri müəyyənləşdirməyə imkan verdi:

1. "Şəcərə motivi";
2. "Yağmalama motivi";
3. "Şərab içib sərxoş olma motivi";
4. "Yuxu motivi";
5. "Vuruşmağa icazə istəmək motivi";
6. "Ozan motivi";

7. “Qılınc motivi”;

8. “Nəsihət motivi”;

9. “Əjdaha ilə döyüş motivi”;

10. “Dəfn (kurqan) motivi”

Aparılmış tədqiqatlar göstərir ki, hər iki dastandakı motivlərin tipoloji ümumiliyi təsadüfi olmayıb, epik mətnlər üçün xarakterik olan formulların ümumiliyindən doğur. Yəni motivlərin ümumiliyi mətnin təşkil olunduğu, əsasında qurulduğu formulların ümumiliyi ilə şərtlənir.

“Formul” süjetə aid ünsürdür. B.N.Putilov yazır ki, *“süjet” termini müasir folklorşünaslıqda üç müxtəlif mənada işlədilir:*

*1. “Süjet” adı altında hər hansı etnik ənənədə bir mətn, yaxud variantlar “dəstəsi” ilə təqdim olunan konkret bir əsərin əsas məzmunu başa düşülür.*

*2. “Süjet” termini müxtəlif etnik ənənələrə və müxtəlif janrlara mənsub olan, məzmunda oxşar, təkrarlanan, yaxud üst-üstə düşən əhəmiyyətli və xüsusi məqamları olan folklor əsərləri toplusuna münasibətdə daim işlədilir...*

*3. “Süjet” termini ilə həmçinin son həddə çatdırılan ümumiləşdirici sxematik formul bildirilir ki, bu da bir sıra mətnləri əhatə edən yalnız əsas kolliziyanı nəzərdə tutur. Belə formul-sxemləri daha dəqiq olaraq “süjet mövzuları” adlandırmaq lazımdır”* [115, s. 121-122].

Beləliklə, B.N.Putilov “formul” anlayışının iki əsas cəhətini vurğulayır:

Birincisi, formulun süjetin “son həddə çatdırılan ümumiləşdirici sxematik” səviyyəsi olmasını;

İkincisi, bu formul-sxemlərin mahiyyətcə “süjet mövzuları” olmasını.

K.V.Nərimanoğlu mövcud nəzəri ədəbiyyatlara söykənərək epik formulların üç təsnifat prinsipini göstərir:

*I. Sintaqmatik prinsip (başlanğıc formullar; keçid formullar; sonluq formullar);*

*II. Semantik prinsip (ritual formulları; döyüş-müharibə formulları: kütləvi səhnə formulları; öygül formulları; dua-alqış formulları; məişət formulları; təbiətə münasibət formulları; sentensiya (hikmətamiz kəlamlar) formulları; yol formulu);*

*III. Linqvistik prinsip (söz-formul; müqayisə-formul; söz birləşməsi-formul; cümlə-formul; mətn formul)* [66, s. 155].

Hər bir dastan – istər Azərbayan, istər ingilis, istərsə də digər xalqların dastanları, fərq etməz – ənənəvi formullar əsasında qurulur. Nizami Adışirinovun yazdığına görə, "*folklorda ənənəvi eposun yaşamasında tipik yerlər və ənənəvi formullar böyük əhəmiyyətə malikdir. Dastan yaradıcılığında rast gəlinən ümumi yerlər şifahi xalq yaradıcılığında xarakterik element kimi çıxış edir və digər ənənəvi elementlərlə bərabər folklor daşıyıcılarının ümumi bir xəzinəsini təşkil edir*" [8, s. 95]. Müəllif başqa bir yazısında qeyd edir ki, "*epik dastanlarda iştirak edən qəhrəmanların bioqrafiyasını, doğulmasını və fəaliyyətini təsvir edən formulların aşkara çıxarılması hər zaman tədqiqatçıları düşündürən məsələ olmuşdur*" [9, s. 84].

Qeyd etmək lazımdır ki, formullar epik janrın, demək olar ki, bütün janrları üçün xarakterikdir. Bu formullar mətnin girişində, özündə və sonunda təkrarlanır. Vəfa İsgəndərova nağıllara əsaslanaraq yazır ki, "*söylənilən hər bir əhvalatın, hadisənin başlanğıcı olduğu kimi, sonu da olmalıdır. Sonluq formulları digər formullarla müqayisədə daha rəngarəng və çoxsaylıdır. Bəzən nağıl söyləyiciləri başlanğıc formullarından yararlanmırlar, ancaq sonluq formulları bütün hallarda iştirak edir*" [41, s. 100].

Jalə Coşğun da nağıllara əsaslanaraq yazır ki, *"başlanğıc – giriş formulları nağıllarda bir neçə formada ortaya çıxır: zamanla bağlı başlanğıc formulları, məkanla bağlı başlanğıc formulları, həm zaman, həm məkanla bağlı başlanğıc – giriş formulları və təkrarləməli (ritmik söz oyunu) giriş formulları*" [19, s. 161].

Beləliklə, "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanları da başqa bütün dastanlar kimi, formullar əsasında qurulmuşdur. Bu formullar müxtəlif süjet motivlərini ifadə edir. Həmin motivlər hər iki dastanı bir-biri ilə yaxınlaşdıran, birləşdirən tipoloji bağlardır. Bu oxşarlıqlar "Kitabi-Dədə Qorqud" və "Beovulf"u bir-birinə bağlamaqla dünya mədəniyyətinin ortaq mədəni-tipoloji köklərini, vahid humanitar-bəşəri ümumiliyini ortaya qoyur.

## 1.3. "Dədə Qorqud" və "Beovulf"dastanlarında oxşar personajlar

Həm "Kitabi-Dədə Qorqud", həm də "Beovulf" obrazlarla zəngindir. İlk baxışdan bu obrazlar bir-birindən fərqli və çox uzaq təsiri bağışlayır. Çünki bunlar qədim zamanlarda tamamilə fərqli məkanlarda yaşamış, tamamilə fərqli dillərə malik xalqların (oğuzların və anqlosaksonların) dastanlarıdır. Lakin bütün bu zahiri fərqliliklərə baxmayaraq, hər iki dastanı birləşdirən tipoloji ümumiliklər var. Bir-birindən tamamilə uzaq və fərqli məkan-zaman sistemində yaşayan xalqların dastanları arasındakı oxşarlıqlar, bəzən isə insanı heyrətə salacaq dərəcədə yaxınlıqların olması bir yandan epos mədəniyyətinin heyrətamizliyini, fenomenallığını göstərirsə, o biri yandan dastan adlanan janrın öz təbiətini, özünəməxsus janr poetikasını nümayiş etdirir.

Dastandakı ümumiliklər mətnin süjet səviyyəsində özünü göstərdiyi kimi, obrazlar sistemi səviyyəsində də təzahür edir. Bu cəhətdən təkcə "Kitabi-Dədə Qorqud" və "Beovulf" arasında deyil, ümumiyyətlə, bir-birindən fərqli istənilən xalqların eposları arasında süjet və obraz oxşarlıqları, səsləşmələri vardır.

Hər bir dastanın süjeti və obrazlar sistemi bir-biri ilə qırılmaz halda bağlıdır. Bu, vahid bir mətnin daxili səviyyələridir. M.Cəfərli məhəbbət dastanlarına əsaslanaraq söyləyir ki, *"folklor süjeti ənənəvi formullardan təşkil olunur. Məsələnin bu cəhəti folklor obrazına da məhz belə bir ənənə prizmasından baxmağı tələb edir. Ona görə ki, folklor süjeti folklor obrazının hərəkəti kimi realizə olunur*" [15, s. 127-128].

"Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarına da bu cəhətdən nəzər salsaq, hər iki dastanın obrazları arasında müəyyən tipoloji oxşarlıqlar tapmaq mümkündür. Lakin bu paralelləri bütün obrazlar arasında aparmaq formalizmlə nəticələnər. Ən başlıcası, belə kütləvi tipoloji paralellər aparmaq düzgün elmi nəticələrə gətirib çıxarmaz.

Qəhrəmanlıq dastanının məzmunu, forması, mahiyyəti, ideyası, bütün poetik quruluşu və s. qəhrəman obrazı ilə bağlıdır. M.Cəfərli yazır ki, "*istər məhəbbət dastanları, istərsə də ümumiyyətlə dastanların obrazlar sistemi iki qarşı duran*

*obrazın ətrafında təmərküzləşir: qəhrəman və onun antiqonisti. Antiqonist elmdə antiqəhrəman da adlandırılır*” [15, s. 139].

M.Cəfərlinin bu fikrindən göründüyü kimi, hər bir dastanda qəhrəman və antiqəhrəman, əslində, konsentrasiya mərkəzləridir və onlar dastandakı digər obrazları özlərinə konsentrasiya (cəlb, cəzb) etməklə öz ətraflarında semantik sahələr yaradırlar. Buradan çıxan əsas nəticə ondan ibarətdir ki, “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarında da belə konsentrasiya mərkəzləri yaradan obrazlar və onların yaratdığı semantik sahələr vardır. Elə bu səbəbdən irəli gəlməklə tipoloji paralellər həmin semantik mərkəzlər arasında aparılmalıdır.

“Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarının semantik baxımdan cazibə mərkəzləri qəhrəmanlığı və müdrikliyi təmsil edən obrazlardır. Bunlar baş qəhrəman və onun düşmənləri, eləcə də müdrikliyi təmsil edən hökmdar, ağsaqqal surətləri, həmçinin xüsusi magik-mifoloji semantikaya malik obrazlardır.

Biz burada hələlik üç tip obrazın tipologiyasını öyrənməyi məqsədəuyğun hesab edirik:

*Birincisi*, hər iki dastanda qəhrəman obrazının tipologiyası:

Bu tipoloji müqayisələr “Beovulf və Oğuz xan”, “divlə vuruşan Beovulf və Basat”, “əjdaha ilə vuruşan Beovulf və Salur Qazan” kimi xətləri əhatə edir.

*İkincisi*, hər iki dastanda müdrik obrazının tipologiyası:

Bu tipoloji müqayisələr “Hrotqar və Bayındır xan”, Hrotqar və Dədə Qorqud” kimi xətləri əhatə edir.

*Üçüncüsü*, hər iki dastanda xüsusi semantik aktuallığa malik qılınc obrazının tipologiyası.

“Beovulf” dastanında biz bir çox döyüşçülərin qəhrəmanlıqlarının şahidi oluruq. Ancaq dastandakı ən parlaq qəhrəman cizgiləri Beovulfa məxsusdur. O, sözün həqiqi mənasında baş qəhrəmandır. “Kitabi-Dədə Qorqud”da da bir çox oğuz qəhrəmanları vardır: Salur Qazan, Bamsı Beyrək, Dəli Domrul, Basat, Uruz və s. Bu oğuz igidlərinin bütün qəhrəmanlıq cizgiləri ulu əcdad Oğuz kağandan gəlir. Bu cəhətdən diqqəti birinci olaraq Beovulf və Oğuz xan obrazları arasındakı paralellər cəlb edir. Onların hər ikisi qeyri-adi görkəmləri ilə fərqlənirlər.

Qədim ingilis sözü olan “Beowulf” hərfi tərcümədə “arı canavarı”, yəni “ayı” deməkdir. İndi bu sözdəki birləşən zooloji mənalara diqqət edək:

Arı – həşərat, qanadları olan uçan canlı;

Canavar – vəhşi, yırtıcı, ətyeyən heyvan;

Ayı – vəhşi, yırtıcı, ətyeyən heyvan [88, s. 253-255] .

Göründüyü kimi, dastanda igid, qəhrəman, gözəl görkəmə malik insan kimi təsvir olunmuş Beovulfun adında üç zooloji varlığın əlamətləri əks olunmuşdur. O, sanki heyvanlar aləminin (üç heyvanın) şəkillərinin ümumiləşdirilməsindən yaranmışdır.

Əsl igid kimi gözəl fiziki görkəmə malik Beovulfun heyvani cizgiləri ilk baxışdan ziddiyyət yaradır: insani gözəllik və heyvani cizgilər bizim təsəvvürümüzdə bir-biri ilə uyuşmur. Lakin bu məsələ mifologiya ilə bağlıdır və bu ziddiyyətə mifoloji görüşlərə əsaslanıb nəzər saldıqda ziddiyyət aradan qalxır.

Məlumdur ki, mifik qəhrəmanlar öz mənşələri baxımından, adətən, ilk insan, ilk əcdadlar olurlar. İlk əcdadlar insan kimi təsvir olunsalar da, onlar heyvani əlamətlərə, şəkillərə də malik olurlar. Elə Beovulfun bir insan kimi həm də heyvanların əlamətlərinə malik olması onun mifik mənşə baxımından ilk qəhrəman, ilk insan, ilk əcdad kompleksi ilə bağlılığını göstərir. Bu cəhət Beovulfu oğuzların ulu əcdadı, mifik cəhətdən ilk insan, ilk əcdad olan Oğuz kağana yaxınlaşdırır.

Uyğur “Oğuznamə”sində Oğuz belə təsvir olunur:

Olsun dedilər. Onun şəkli budur.
Bundan sonra sevinc tapdılar.
Yenə günlərin bir günü Ay kağanın gözləri
yarıdı, bir oğlu oldu.
Bu oğlanın üzü göy idi.
Ağzı atəş kimi qırmızı, gözləri ala,
saçları, qaşları qara idi.
Gözəllikdə mələklərdən də gözəl idi.
Bu oğlan anasının döşündən ağız südünü əmdi.

Bundan sonra bir də əmmədi,
çiy ət, aş istədi, şərab istədi, dil açdı.
Qırx gündən sonra böyüdü, yüyürdü, oynadı.
Onun ayağı öküz ayağına, beli qurd belinə,
kürəyi samur kürəyinə,
köksü ayı köksünə bənzəyirdi.
Bədəninin hər yeri sıx tüklə örtülmüşdü [13, s. 124].

Göründüyü kimi, dastan Oğuzu "gözəllikdə mələklərdən də gözəl" bir insan kimi təqdim edir. Oğuz da Beovulf tək bir neçə heyvanın şəkil əlamətlərinə malikdir:

Öküz – ayağı öküz ayağına bənzəyir;

Qurd (canavar) – beli qurd belinə bənzəyir;

Samur – kürəyi samur kürəyinə bənzəyir;

Ayı – köksü (sinəsi) ayı köksünə bənzəyir;

Tüklü heyvan – bütün bədəni heyvan kimi tüklə örtülüdür.

Göründüyü kimi, hər iki obraz həm də heyvani cizgilərə malikdir. Bu, Beovulf və Oğuzun mifoloji əcdad kompleksi ilə bağlılığından irəli gəlir. Hər iki obraz özündə ilkin heyvan-əcdad obrazının cizgilərini qorumaqda davam edir.

Digər bir tipoloji paralelizmi çox asanlıqla Beovufla Basat arasında qurmaq mümkündür. Bu paralelizmi şərti olaraq "Divlə vuruşan Beovulf və Basat" adlandırmaq olar. Hər iki qəhrəmanın vuruşu dastanın poetik strukturu ilə birbaşa bağlıdır.

Məlumdur ki, hər bir dastanda iki qarşı duran qüvvə var: Qəhrəman-Antiqəhrəman (Xeyir-Şər, Mərd-Namərd, Yaxşı-Pis, İşıq-Qaranlıq və s.). Beovulf qəhrəman kimi danimarkalıların qorxunc düşməni Qrendeli (daha sonra isə onun anasını) məhv edərək eli xilas etdiyi kimi, Basat da oğuzların qorxunc düşməni, Oğuzda heç kəsin gücü çatmadığı Təpəgözü məhv edərək, eli xilas edir. Növbəti fəsildə Qrendel və Təpəgöz obrazları arasında detallı tipoloji paralellər aparılacağı üçün bir çox təfərrüatları hələlik kənara qoyub, bir sıra tipoloji səsləşmələrə diqqət verək.

Beovulf və Basat obrazlarını birləşdirən birinci tipoloji cizgi hər iki qəhrəmanın qorxunc düşmən haqqında xəbəri başqalarından eşitməsidir. “Beovulf”da Qrendel Danimarka xalqını on iki il qanlı itkilər və əzablar içərisində yaşadır. Bardlar (ozanlar) bu barədə kədərli nəğmələr qoşurlar. Beovulf Qrendel haqqında bu nəğmələr vasitəsilə xəbər tutur.

Poets sang sad songs
throughout the world,
how Grendel tormented Hrothgar;
how no warrior,
no matter how brave,
could kill Grendel.
How Grendel wasn't
about to stop,
or pay damages [157, s. 13].
Ozanlar Qrendelin Hrotqara necə əzab verdiyi,
Ən igid döyüşçülərin belə onu öldürə bilmədiyi,
Qrendelin durmadığı, yaxud ona qarşılıq verilmədiyi haqqında
bütün dünya üçün qəmgin nəğmələr oxudular.

...But a warrior of Hygelac's
heard of Grendel's doings; he was the strongest of men
alive in that day,
mighty and noble [157, s. 14].
Lakin Higelakın bir döyüşçüsü
Qrendel’in etdiklərindən xəbər tutdu.
O (Beovulf – *R. Vəliyeva*) həmin vaxt
İnsanların ən güclüsü, qüdrətlisi və adlı-sanlısı idi.

Basat da Təpəgöz haqqında bir anadan eşidir. Dədə Qorqud Oğuz elinə durmadan hücum edən Təpəgözlə danışır və onlar müqavilə bağlayırlar ki, Təpəgözün Oğuz elinə hücum etməməyinin müqabilində oğuzlar ona hər gün

yemək üçün iki adam və beş yüz qoyun versinlər: "Dörd oğlu olan birini verdi, üçü qaldı. Üç oğlu olan birini verdi, ikisi qaldı. İki oğlu olan birini verdi, biri qaldı. Qapaqqan adlı bir kişi var idi. İki oğlu vardı. Bir oğlunu vermiş, biri qalmışdı. İndi növbə dolanıb ona çatmışdı. Anası fəryad edib zar-zar ağladı. Sən demə, xanım, Aruz oğlu Basat harasa döyüşə gedibmış; bu zaman gəlib çıxdı. Oğlanın anası dedi: "Basat indi çapqınçılıqdan gəlib. Gedim, bəlkə, mənə bir əsir verdi, oğulcığazımı qurtara bildim" [47, 45]. Basat da Təpəgöz haqqında ilk dəfə beləcə xəbər tutur.

Qəhrəmanların qorxunc düşmən haqqında ilk dəfə eşitmələri ilk baxışdan adi hadisə təsiri bağışlayır. Ancaq tədqiqatlar göstərir ki, dastanlarda "xəbər" xüsusi məna daşıyır və dastanın məna aləmində, poetik sistemində xüsusi yeri vardır. Rüstəm Kamal "Kitabi-Dədə Qorqud" dastanına əsaslanaraq yazır ki, "*eposun kommunikativ sistemində çobanlar, ozan, casuslar və bəzirganlar xəbər daşıyıcıları kimi aparıcı mövqeyə malikdirlər. Bəzirganlar yad-özgə məkanlarla, uzaq məmləkətlərlə, yəni yol xronotopu ilə bağlı marginal varlıqlardır"* [45, s. 114].

R.Kamalın bu fikrindən aydın olur ki, eposlarda müxtəlif əks dünyalar var və onların arasında xəbərçilər (xəbər aparıb-gətirənlər) də var. Eyni vəziyyəti hər iki dastanda görmək olur. Burada iki dünya var:

1. Beovulfun və Basatın xeyir dünyası
2. Qrendelin və Təpəgözün şər dünyası.

Bu dünyalar arasında əlaqəçilər var. Beovulf Qrendel haqqında bard-ozan vasitəsilə, Basat Təpəgöz haqqında ananın dili ilə xəbər tutur.

Biz belə fikirləşirik ki, burada xəbər tutmanın altında həm də qəhrəmanı döyüşə çağırmaq motivi durur. Təpəgöz də, Qrendel də ən böyük, ən güclü düşmənlərdir. Onları heç kəs yenə bilmir. Onlara yalnız ən güclü, ən igid, ən cəsur qəhrəmanlar qalib gələ bilərlər. Danimarkada çox igid Qrendellə vuruşur, lakin məğlub (məhv) olur. Axırda onun gücü və vəhşiliyi qarşısında qorxuya düşür, məğlubiyyəti boyunlarına götürüb, döyüşdən əl çəkirlər. Bu motiv "eyni ilə" "Dədə Qorqud"da da var. Dastanda oxuyuruq: "Dəmir donlu Mamaq onun əlində

məhv oldu. Bığı qanlı Bügdüz Əmən də Təpəgöz tərəfindən məğlub edildi. Təpəgöz ağ saqqallı Aruz qocaya qan qusdurdu. Qıyan Səlcikin ödü yarıldı. Oğuzlar Təpəgözə heç nə edə bilmədilər, vahiməyə düşüb qaçdırlar" [47, s. 197].

Göründüyü kimi, hər iki cəmiyyətdə qeyri-adi düşmənin qabağına çıxmaq üçün qeyri-adi qəhrəmana ehtiyac yaranır. Belə olan vəziyyətdə Beovulfun Qrendel haqqında bardlardan eşitməsinin və Basatın Təpəgöz haqqında bir anadan eşitməsinin mənası dastan poetikası baxımından "qəhrəmanın xəbər vasitəsilə çağırılmasıdır".

Beovulf və Basat obrazlarını birləşdirən başqa tipoloji cizgilər aşağıdakılardır:

Hər iki qəhrəman düşmənlə təkbaşına vuruşur;

Hər iki qəhrəman düşmənlə qılıncsız vuruşur;

Hər iki qəhrəman düşməni onun öz qılıncı ilə məhv edir.

Daha bir tipoloji paralelizmi yenə də çox asanlıqla Beovuf obrazı ilə "Dədə Qorqud"un baş silah qəhrəmanı, igidlərin başçısı Salur Qazan obrazı arasında qurmaq mümkündür. Salur Qazan dastanın ən məşhur qılınc qəhrəmanıdır. Bu obraz tədqiqatçılar üçün o qədər maraqlı və mürəkkəb semantik cizgilərə malikdir ki, onun haqqında Azərbaycan qorqudşünaslığında iki monoqrafik əsər yazılmışdır. Bəhlul Abdulla Salur Qazan obrazını tarix və mif baxımından, Atif İslamzadə isə oğuz epik ənənəsi baxımından tədqiq etmişdir [2; 42]. Salur Qazanı "Oğuznamə" eposunun üç əsas obrazından biri hesab edən A.İslamzadə göstərir ki, *bu obraz epik-mifoloji semantem olaraq oğuz-türk epik-mifoloji ənənəsinin əsas struktur oxlarından birini təşkil edir* [42, s. 3].

Salur Qazan dastanda sosial-siyasi mövqeyinə görə bəylərbəyidir və dastanın sonunda biz onu Bayındır xandan sonra Oğuz elinin başçısı kimi görürük. Eposun bir neçə boyu birbaşa onun qəhrəmanlığından bəhs edir. O, igidlik, qəhrəmanlıq baxımından Oğuz elinin baş qəhrəmanıdır. Bir çox bu kimi cəhətləri ilə Beovulf obrazı ilə eyni tipoloji cərgədə dura bilir. Lakin bu iki obrazı paralelləşdirən ən mühüm məqam onların hər ikisinin əjdaha ilə vuruşaraq qalib gəlmələridir. Bu

paralelizmi şərti olaraq "Əjdaha ilə vuruşan Beovulf və Salur Qazan" adlandıra bilərik.

Bundan əvvəlki yarımfəsildə "Beovulf" dastanının süjetini izləyərkən gördük ki, Beovulf öz əlli illik hakimiyyətinin sonunda, qoca vaxtında əjdaha ilə vuruşur. Bu, ağzından od püskürən, uçan bir əjdahadır. O, üç yüz il idi ki, bir xəzinəni qoruyurdu. Qeatların xalqından bir nəfər əjdaha yatarkən xəzinədən oğurluq edir. Əjdaha qəzəblənib qeatların üzərinə hücum edir. Hər yeri yandırıb-yaxır. Beovulf sayı özü ilə on iki nəfər olan bir dəstə ilə onun üzərinə gedir. Lakin əjdaha ilə təkbətək vuruşur. Axırda əjdahaya qalib gəlir. Lakin bu, onun son döyüşü olur. O, aldığı yaralardan həlak olur.

Beovulfun cəsurluğunu, əjdahadan qorxmamasını, onunla təkbaşına vuruşmasını və nəhayət, əjdaha üzərində qələbə çalması kimi hadisələri Salur Qazan obrazı ilə də bağlı görürük. "Kitabi-Dədə Qorqud"un on birinci boyunda düşmənlərə əsir düşmüş Qazan özünü öyərək altı nəğmə-soylama oxuyur. O, ikinci nəğmədə əjdaha ilə döyüşməsindən belə bəhs edir:

Qılağuzsuz yol başaran Qazan ər idim.
Yedi başlı əjdərhaya yetüb vardım.
Heybətindən sol gözüm yaşardı.
Hey gözüm, namərd gözüm, müxənnət gözüm.
Bir yılandan nə var ki, qorxdun! – deyü ögünmədim [47, s. 117-118].

Göründüyü kimi, Qazan yeddi başlı əjdaha ilə təkbətək vuruşur. Əvvəlcə vahiməyə düşür, lakin sonra özünü ruhlandırıb, əjdahaya qalib gəlir.

Qeyd etmək lazımdır ki, "Dədə Qorqud"da Qazanın əjdaha ilə vuruşu qısa şəkildə təsvir olunub. Lakin "Beovulf"da qəhrəmanın əjdaha ilə vuruşması dastanın ikinci hissəsinin bütöv məzmununu təşkil edir. Ancaq tədqiqatçılara görə, Salur Qazanın əjdaha ilə vuruşması "Dədə Qorqud"da özünə az yer alsa da, ümumiyyətlə geniş yayılmış motivdir. F.Bayatın verdiyi məlumata görə, "*Salur Qazanın əjdaha ilə vuruşması haqqındakı əfsanələr XIX yüzilin sonlarına qədər türkmənlərin arasında qalırdı. Bunu A.Tumanskinin verdiyi məlumat da təsdiq edir*" [83, s. 30].

“Beovulf”dakı əjdaha uçur və ağzından od püskürür. “Dədə Qorqud”dakı əjdahanın isə yeddi başı var və Salur Qazan onu həm də ilan adlandırır. Bütün bu keyfiyyətlər əjdaha obrazının mifik cizgiləri kimi ümumi xüsusiyyətlərdir. Rus alimi V.V.İvanov əjdaha haqqında müxtəlif xalqların mifologiyalarındakı məlumatlara əsaslanaraq yazır ki, “*o, qanadlı (uçan) ilan, müxtəlif heyvan elementlərinin birləşməsi şəklində təsəvvür olunan mifoloji varlıqdır. Əjdaha ilan obrazının sonrakı inkişafı sayıla bilər. Əjdaha ilə bağlı əsas əlamət və mifoloji motivlər əsas cizgiləri etibarilə mifoloji ilanı səciyyələndirən əlamət və motivlərlə üst-üstə düşür. Əjdaha da ilan kimi, məhsuldarlıqla və sahibi kimi çıxış etdiyi su stixiyası ilə bağlıdır”* [105, s. 394].

Əjdaha qədim mifik görüşlərdə bir çox hallarda nəhəng, uçan ilan görkəmində təsəvvür olunmuşdur. Azərbaycan yuxu inanclarında da əjdaha və ilan bəzən eyni varlıqlar kimi təqdim olunur. Aşağıdakı inanc mətni bunu təsdiq edir:

“Yuxuda ilan görmək əjdahadır” [7, s. 15].

İlan folklorda bütün hallarda əjdaha ilə eyniləşdirilməsə də, bu inancda biz onları eyni mənaya malik obrazlar kimi görürük.

Göründüyü kimi “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarında qəhrəman obrazının tipologiyası açıq şəkildə “Beovulf və Oğuz xan”, “divlə vuruşan Beovulf və Basat”, “əjdaha ilə vuruşan Beovulf və Salur Qazan” kimi tipoloji xətləri əhatə edir. Beovulfun eyni zamanda üç obrazla (Oğuz, Basat, Qazan) paralelləşməsi ondan irəli gəlir ki, “Beovulf” dastanında bir obrazda (Beovulfda) cəmləşən keyfiyyətlər (heyvani cizgilər, divlə vuruş, əjdaha ilə vuruş) “Dədə Qorqud”da sanki üç obrazın arasında bölünmüşdür. Lakin bu, zahir bir bölünmədir. Basat təkgöz divlə (Təpəgözlə) vuruşduğu kimi, onun ulu əcdadı (ulu babası) Oğuz xan da təkbuynuz divlə (Kıatla vuruşur). Bu vuruşmalar məna etibarilə elə Salur Qazanın əjdaha ilə vuruşmasına bərabərdir. Belə düşünmək olar ki, “Dədə Qorqud”da qəhrəmanlıq hadisələri, funksiyaları şaxələnmiş, daha da inkişaf edərək müxtəlif qəhrəmanlar silsiləsi yaratmışdır (*Bu bənddə əldə olunmuş elmi nəticələrin nəşr olunduğu qaynaqlar üçün bax.: 84; 88*).

“Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanları üçün xarakterik olan daha bir tipoloji müqayisəni müdrikliyi təmsil edən obrazlar arasında aparmaq mümkündür. Bizim müşahidələrimizə görə, bu tipoloji müqayisələr “Hrotqar və Bayındır xan”, Hrotqar və Dədə Qorqud” kimi xətləri əhatə edir [99, s. 122-126].

Hrotqar Danimarkanın kralı, Bayındır xan isə Oğuz elinin xanlar xanıdır. Bayındır xan “Dədə Qorqud”un birinci boyunda belə təqdim olunur: “Bir gün Qam Ğan oğlı Bayındır yerindən turmışdı...” [47, s. 34].

Onun adındakı “qam” sözünün mənası “şaman”, “ğan” sözü isə “xan” deməkdir. Bu da Oğuz elinin başçısı Bayındırın həm xan olduğunu, həm də öz kökləri etibarilə “şaman” olduğunu göstərir. Ancaq qeyd olunmalıdır ki, biz dastanda onun şaman funksiyasına təsadüf etmirik. Belə olan vəziyyətdə bu fikri söyləmək olar ki, şaman olmaq Bayındır xan obrazının mifik keçmişinə aid keyfiyyətdir.

Kral Hrotqar və Bayındır xan arasında aşağıdakı tipoloji paralelləri qurmaq mümkündür:

1. Hər iki obraz ali siyasi hakimiyyəti təmsil edir: biri – kral, o biri – xanlar xanıdır.

2. Hər iki obraz dastanda xüsusi süjet fəallığına malik deyil. Bayındır xanın bəzi boyların əvvəlində, yuxarıda verdiyimiz nümunədə olduğu kimi, yalnız adı çəkilir. “Beovulf” dastanında Hrotqarı çox görsək də, o, bir növ, hərəkətsiz fiqurdur. Qocadır, heç bir qəhrəmanlıq göstərmir, div qarşısında acizdir, yalnız bir müdrik kimi məsləhət, nəsihət, yaxud göstəriş verir. Onun da Bayındır kimi süjet fəallığı yoxdur.

3. Hər iki obraz öz davranışları ilə müdrikliyi təcəssüm etdirir. Hrotqarın bütün davranışlarında müdriklik, sabitlik, təmkin, ibrətamizlik var. O, Danimarka siyasi hakimiyyətinin sabitliyini təmsil edir. Süjet fəallığına malik olmasa da eyni müdriklik və sabitliyi Bayındırın idarəçiliyində də görmək olur. Məsələn, o, ildə bir dəfə qonaqlıq edib, Oğuz bəylərini cəmləyir və burada Oğuz elinin bütün müşkülləri həll olunur.

4. Hər iki obrazın müdrikliyi cəmiyyətin siyasi, ictimai və mənəvi cəhətdən möhkəmlənməsinə xidmət edir. Hrotqarın bütün fəaliyyəti Danimarkanın mənafeyinə yönəlib. Həmçinin Bayındırın dastandakı az təsvir olunmuş fəaliyyəti də onun Oğuz elinin mənafeyi uğrunda çalışdığını göstərir. Məsələn, dastanın birinci boyunda deyilir ki, o, ildə bir dəfə keçirdiyi qonaqlıqda üç yerdə çadır qurdurur: biri – ağ, biri – qırmızı, biri isə – qara. Oğlu olan Oğuz bəyini ağ çadıra, qızı olanı – qırmızı çadıra, oğlu-qızı olmayanı qara çadıra yerləşdirirlər. Bayındır xan belə hesab edir ki, "oğlı-qızı olmıyanı Tənri-təala qarğayıbdır, biz dəxi qarğarız" [47, s. 34].

Burada ilk baxışdan ədalətsizlik görünür. Axı insanın övladının olub-olmaması onun özündən asılı deyil. Lakin birinci boydakı hadisələr Bayındırın necə bir müdrik hökmdar olduğunu nümayiş etdirir. Boyda deyilir ki, Dirsə xanın övladı olmadığı üçün onu qara çadıra yerləşdirirlər. O inciyir və küsərək məclisi tərk edir. Lakin məlum olur ki, yetimə-yesirə əl tutmadığı, kasıblara kömək etmədiyi üçün Tanrı ona qarğış edib. O, səhvini düzəldir və bundan sonra Tanrı ona bir oğul verir. Beləliklə, burada Bayındırın necə bir müdrik və bilikli bir rəhbər olması üzə çıxır.

5. Hər iki obrazın qocalığı onların müdrikliyinin zahiri göstəricisidir. Hrotqar da, Bayındır da həm müdrik, həm də qocadırlar. Yəni onlar müdrik qocalardır. Hikmət Quliyevin tədqiqatlarını əsas götürsək, hər iki obraz Müdrik Qoca arxetipini təcəssüm etdirir. O, Müdrik Qoca arxetipinə daxil olan obrazların funksiyasını aşağıdakı kimi ümumiləşdirmişdir:

*a) sosial münasibətlərdə müəyyənləşdirici, yönləndirici və nəzarətedici keyfiyyətə malikdir (ağsaqqallıq, müdriklik, seyidlik və s.);*

*b) norma müəyyənləşdiricilik xarakterinə sahibdir (atalar sözləri timsalında);*

*c) mədəni mühitdə transformativ paradiqmalarla təzahür edir (dağ, ocaq, pir, ağac və s.);*

*d) cəmiyyətdə (tayfa, nəsil, kənd, el-oba səviyyəsində) informasiya yaddaşı rolunu oynayır (ənənə özü toplumda nəsil səcərələrinin "dosyesini" bilən obrazlar – müdrik ağsaqqalları yetişdirir);*

e) *tanrının transformativ paradiqması kimi çıxış edir (tanrının yaşlı, ağsaqqal cildində təsəvvür olunması..."* [55, s. 84];

Bu funksiyaları Hrotqar və Bayındır xan obrazlarında görmək mümkündür. Hər iki obraz sosial münasibətlərdə müəyyənləşdirici, yönləndirici və nəzarətedici keyfiyyətə malikdir (ağsaqqallıq, müdriklik), norma müəyyənləşdiricilik xarakterinə sahibdirlər, tanrının transformativ paradiqması kimi çıxış edirlər. Bayındırın adındakı qam (şaman) sözü, həmçinin Hrotqarın bir kral kimi mifik baxımdan ilk əcdad obrazı ilə bağlılığı onları nəticə etibarilə tanrının transformativ obraz cərgəsi kimi götürməyə imkan verir. Bundan başqa, hər iki obraz ağlın fiziki qüvvəyə qalib gəlməsini təcəssüm etdirir, ideal keçmiş zamanın qoruyucuları və yaşadıcıları kimi çıxış edirlər.

"Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarında müdriklik xəttini həm də Hrotqarla Dədə Qorqud obrazı arasında görmək mümkündür. H.Quliyev yazır ki, "*Müdrik Qoca arxetipinin obraz paradiqmalarından biri də Dədə Qorquddur. İstər "Kitabi-Dədə Qorqud" eposundan, istərsə də müxtəlif türk xalqlarında bu obrazla bağlı olan çoxsaylı mətn informasiyalarından Dədə Qorqudun müdrik, ağsaqqal, yaşlı, bilgin, şaman və s. semantikalarını daşıdığını aydın şəkildə görmək mümkündür*" [55, s. 69].

Türk dünyasında Dədə Qorqud haqqında çoxlu əfsanələr var. Bu əfsanələrdə o, bütün başqa vəzifələri ilə yanaşı, həm də müdrik ağsaqqaldır. Həmin əfsanələri tədqiq etmiş F.Bayat göstərir ki, *"Qorqud ata ilə bağlı əfsanələrin böyük əksəriyyəti eyni motivin – ölümdən qaçmanın dəyişik variantlarıdır. Bu əfsanələrdən birində Qorqud həm ozan, həm ağsaqqal, digərində qopuzun yaradıcısıdır. Başqalarında isə övliya, təbib, şeyx, şaman, dədə şəklində təzahür edir və sürəkli olaraq ölümsüzlüyü axtarır"* [91, s. 4].

Ümumiyyətlə, Dədə Qorqud çox mürəkkəb obraz, daha doğrusu obraz-kompleksidir. Onun obrazında bir çox cizgilər qovuşur. Cəlal Bəydili Qorqud obrazı haqqındakı elm aləmində olan fikirləri belə ümumiləşdirmişdir:

"*Dədə Qorqud*

*– qədim mifoloji görüşlərlə bağlıdır;*

*– haqqında tutarlı tarixi qaynaqlar olmadığından onun tarixi və ya əsatiri şəxsiyyət olduğu bəlli deyil;*

*– bir el müdrikidir ki, getdikcə ümumiləşmiş rəmzə çevrilmişdir;*

*– əfsanəvi şəxsiyyət olması haqqında söhbətlər əsassızdır, Qorqut Ata tarixi şəxsiyyətdir;*

*– gerçək tarixi prototipini axtarmağa ehtiyac yoxdur;*

*– ehtimal ki, öz kökü ilə mərasim hamisi obrazına bağlanır və b.k.*" [14, s. 225].

T.Hacıyev Dədə Qorqudu ümumiyyətlə müdrikliyin rəmzi hesab edir: "*Qorqud bu əsərin qəhrəmanı deyil, heç əslində ona obraz da demək olmaz. O, bir rəmzdir – türkün ağsaqqala, müdrik söz sahibinə hörmətinin rəmzidir*" [34, s.6].

Hər iki dastanın süjeti əsasında Hrotqar və Dədə Qorqud çoxlu paralellər aparmaq olar. Ancaq dastanlarda biri hökmdar, o biri ağsaqqal kimi fəaliyyət göstərən bu iki obraz arasındakı ortaqlıq onların, əsasən, müdrikliyində, daha doğrusu, verdikləri müdrik məsləhətlərdə parlaq formada təzahür edir. Odur ki, süjet təfərrüatlarını müqayisə etməyi gələcək tədqiqatçıların öhdəsinə buraxıb, bu əsas məqama diqqət verək. Bu məqam "Beovulf" dastanında Hrotqarın Qrendel və onun anası üzərində qələbə çalmış Beovulfa verdiyi nəsihətləri, "Dədə Qorqud"da isə dastanın müqəddiməsində Dədə Qorqudun dili ilə deyilən nəsihətləri əhatə edir.

Beovulf Danimarkanın əzazil və yenilməz düşmənlərini məhv edəndən sonra Hrotqar onun şərəfinə məclis qurdurur. Burada o, bir ata, ağsaqqal, dost, müdrik kimi Beovulfa həyati nəsihətlər verir. Həmin nəsihətlər Dədə Qorqudun oğuz eposunun müqəddiməsindəki nəsihətləri ilə heyrətamiz dərəcədə oxşarlıq təşkil edir. Müqayisəli şəkildə izləyək:

Hrotqar Beovulfa deyir ki, şöhrətdən başın gicəllənməsin, qoy bu şöhrətin səndə təkəbbür yaratmasın [157, s. 82].

Dədə Qorqud deyir: "Təkəbbürlük eyləyəni Tənri sevməz" [47, s. 31].

Hrotqar Beovulfa deyir ki, insana var-dövləti, şöhrəti, uca məqamı, xoşbəxtliyi Tanrı verir [157, s. 83].

Dədə Qorqud deyir: “Qadir Tənri verməyincə ər bayımaz”; “Könlünü yuca tutan ərdə dövlət olmaz” [47, s. 31].

Hrotqar Beovulfa deyir ki, ölkədən ötrü dayanmadan vuruşmaq, qılınc oynatmaq lazımdır [157, s.106].

Dədə Qorqud deyir: “Qarağuca qıymayınca yol alınmaz; Qara polad uz qılıcı çalmayınca qırım dönməz” [47, s.31].

Bu paralelləri süjetlərdən gətirilmiş nümunələrlə daha da genişləndirmək olar. Misal verməyə ehtiyac duymadığımız həmin nümunələr də hər iki dastanda qəhrəmanlıqla bərabər müdrikliyin də aparıcı ideya olduğunu, Hrotqar, Dədə Qorqud və Bayındır xanın bu xətlə bağlı olduğunu təsdiq edir (*Bu bənddə əldə olunmuş elmi nəticələrin nəşr olunduğu qaynaq üçün bax.: 99*).

“Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarının obraz tipologiyası baxımından tədqiqində qılınc obrazının xüsusi yeri var. Qılınc hər iki dastanda qəhrəmanların ayrılmaz atributudur. Bunun belə olması qəhrəmanlıq dastanları üçün təbiidir. Heç bir qəhrəmanı silahsız təsəvvür etmək olmaz. B.N.Putilov qəhrəmanın gücünün üç şeydən asılı olduğunu göstərir ki, bunlardan biri silahdır: “*Bahadırlıq gücü öz əsası etibarilə üç göstəricinin vəhdətindən təşkil olunur: bahadırın özünün qabiliyyətləri, atının xüsusi keyfiyyətləri və silahının möcüzəli xüsusiyyətləri*” [114, s. 68].

Beovulfu bu baxımdan “Dədə Qorqud” qəhrəmanları ilə müqayisə etdikdə yalnız bir fərq görürük. Oğuz qəhrəmanları “At igidin qardaşıdır”, “At işləməsə ər öyünməz” desələr də, “Beovulf” dastanında atın belə kultlaşdırılmasına rast gəlmirik. Lakin dastanda qılıncın qeyri-adi yeri və xüsusiyyətləri var. Dastanın tədqiqatçılarından T.A.Şippey yazır ki, “*Beovulf”da qılıncın özünəməxsus həyatının olması göz qabağındadır. Gənc vassal Uiqlaf əjdahanın yuvasındakı hökmdarına köməyə gedərkən qılıncını sıyırır və şair* (bard-ozan – R.Vəliyeva*) həmin silahın əhəmiyyətini və vacibliyini nəzərə çarpdırmaq üçün ona iyirmi misra həsr etmişdir”* [143, s. 21].

“Dədə Qorqud” dastanında qılıncın işlənmə yeri, məqamları və mənaları çox genişdir. Bu söz “qılıc” şəklində 173 dəfə, “qılınc” şəklində 1 dəfə işlənmişdir [57,

s. 18]. Bu nümunələrin hamısından burada bəhs etmək imkanımız xaricindədir. Digər tərəfdən, Ə.Tanrıverdi bu dastandakı silah adlarından bəhs edən kitabında qılıncla bağlı faktları da ümumiləşdirmişdir [79, s. 77-93]. Müəllif "qılınc" sözünün dastanın poetik strukturundakı əhatəsini aşağıdakı bucaqlardan səciyyələndirmişdir:

– *"Kitab"ın dilində "qılıc" sözü daha çox sadə söz formasında işlənmişdir* [79, s. 82];

– *Oğuz igidləri Qazan xana döyüşə hazır olmaları barədə hesabat verərkən işlətdikləri ilk söz məhz "çal qılıncın"dır* [79, s. 83];

– *"Kitab"da qılınc, at və qəhrəman obrazları bir-birini tamamlayır ki, bu da qəhrəmanlıq eposları üçün ən səciyyəvi cəhətlərdəndir* [79, s.84];

– *"Qılıc" qəhrəmanı səciyyələndirən ən mühüm vasitələrdən biri kimi çıxış edir* [79, s. 85] və s.

Bütün bu sadalananlar göstərir ki, dastanda qılınc obrazı sadəcə bir silah deyildir, o, oğuz döyüşçüsü üçün müqəddəs bir əşyadır. Hətta o, bəzən kultlaşdırılır. Məsələn, dastanın üçüncü boyunda Bamsı Beyrək onu sevən kafir qızına sədaqətini sübut etmək üçün qılınca da and içir: "Qılıcıma toğranayın! Oxıma sancılayın!..." [47, s. 59].

Eynilə "Beovulf" dastanında da qılıncın işlənmə yeri, məqamları və mənaları çox genişdir. Bu faktlardan bəziləri süjet üçün xüsusi əhəmiyyət kəsb etməklə qılınc obrazının mənasını daha aydın nəzərə çarpdırır. Məsələn, dastanda Qrendel Herot sarayına hücum edir. Beovulf onunla döyüşə girir. Yatmış döyüşçülər oyanıb, qılınclarını çəkir və köməyə tələsirlər. Dastanda Qrendeli qılıncın kəsməməsi xüsusi nəzərə çarpdırılır:

Beowulf's warriors brandished
many a sword, inheritances
from the ancient days,
trying to protect their chief,
but that did no good: they
could not have known, those

brave warriors as they fought,
striking from all sides, seeking
to take Grendel's soul, that
no battle sword could harm him--
he had enchantment against
the edges of weapons [157, s.39].
Beovulfun döyüşçüləri öz başçılarını qorumaq üçün
Köhnə günlərdən qalan mirası – qılınclarını siyirdilər.
Ancaq işə yaramadı.
Hər yandan hücum edən,
Qrendelin canını almağa çalışan
Bu igid döyüşçülər bilmirdilər ki,
Ona heç bir qılınc zərər verməz:
Qılınclara qarşı tilsimi vardı.

"Beovulf" dastanında bir sıra məşhur qılıncların adları vardır. Məsələn, Beovulfun öz qılıncı adlı-sanlı, məşhur qılıncdır. Onun adı "Naegling"dir [157, s. 77-78]. Yaxud Beovulf Qrendelin anası ilə döyüşə girməzdən qabaq Unferthin ona bağışladığı məşhur qılınc "Hrunting" adlanır [157, s. 70]. Lakin bu qılınc da Ana divin tilsimli bədənini kəsmir [157, s. 73]. Beovulf Qrendelin anasını onun yuvasında olan çox böyük, adi bir döyüşçünün daşıya bilməyəcəyi bir qılıncla öldürür [157, s. 74-75]. Bu qılınc sehrli qılıncdır. Ana divin ölməsi ilə tilsimlər qırılır və bu qılınc da əriyib kül olur

The blade
had melted… the
ornamented sword burned up –
so hot was the blood,
so poisonous the alien
spirit who died there [157, s. 77-78].
Qılınc ərimişdi…
Bəzəkli qılınc yanıb kül oldu.

Qan çox isti idi.
Burada ölən,
Yad ruh çox zəhərli idi.

Göründüyü kimi, "Dədə Qorqud" dastanında olduğu kimi, "Beovulf" dastanında da qılınc obrazının xüsusi yeri var. O, sadəcə, bir silah, döyüş aləti deyildir. İstər Danimarkada, istərsə də qeatlar arasında məşhur olan qılınclar var. Bu qılınclara ad qoyulması onların şəxsləndirildiyini, kultlaşdırıldığını nümayiş etdirir. Eləcə də qılıncların tilsimlərlə bağlı olması qılıncın fetişləşdirildiyini, yəni canlı əşya kimi təsəvvür olunduğunu göstərir. Belə hesab olunur ki, qəhrəmanın gücü həm də qılıncın gücündədir. Belə qılınclara sahib olan qəhrəmanlar, əslində, həmin gücün sahibinə çevrilirlər.

Beləliklə, qılınc obrazı hər iki dastanda onu yaradan xalqların poetik düşüncə özünəməxsusluğunu nümayiş etdirməklə bərabər, bu dastanları birləşdirən, yaxınlaşdıran, doğmalaşdıran tipoloji bağ kimi çıxış edir.

# II FƏSİL

# TƏPƏGÖZ VƏ QRENDEL OBRAZLARININ TARİXİ-TİPOLOJİ ƏLAQƏLƏRİ

Birinci fəsildə buraya qədər aparılan araşdırma dissertasiyanın predmetinin, yəni Təpəgöz və Qrendel obrazlarının müqayisəli tipologiyası məsələsinin ümumi planını təşkil etdi. Bu, ümumi müqayisə, yəni problemə uzaqdan baxış müstəvisidir. Belə bir ümumi baxış olmadan Təpəgöz və Qrendel obrazaları havadan asılı görünər və aparılan müqayisə formal təsir bağışlayardı. Çünki bu iki obrazın hər biri özünün mənsub olduğu dastanın poetik dünyasına çoxsaylı tellərlə bağlıdır. Təpəgöz və Qrendel epik dünyanın poetik strukturu baxımından şəri təmsil edən obrazlar olub, xeyir dünyasına qarşı dururlar. Mifologiyada şər dünyası – xaos, xeyir dünyası – kosmos adlandırılır. Təpəgöz və Qrendel həm mənsub olduqları xaos, həm də qarşı durduqları, düşmən olduqları kosmos dünyasındakı canlı-cansız bütün obrazlarla bağlıdırlar. Onları öz xaos dünyalarındakı personajlarla qohumluq, doğmalıq, eyni dünyaya mənsub olmaq birləşdirdiyi kimi, qarşı durduqları kosmos dünyasındakı personajlarla da düşmənlik, nifrət, kin, ziyanxorluq və s. kimi bağlar birləşdirir. Təpəgöz və Qrendel obrazlarına ümumi tipoloji baxış hər iki obrazın mövcud olduğu epik sistemi bütövlükdə görməyə imkan verdi. Bu ümumi baxış indi bizə ikinci fəsildə Təpəgöz və Qrendel obrazlarını detallı müqayisə etməyə də imkan verəcəkdir.

## 2.1. Təpəgöz və Qrendel obrazlarına mövcud elmi baxışlar

Təpəgöz obrazı “Kitabi-Dədə Qorqud”un on iki boyundan yalnız birində – səkkizinci boyda iştirak edir. Lakin buna baxmayaraq, bu obraz öz mifik semantikası baxımından tədqiqatçıları ən çox düşündürən, haqqında çoxsaylı və fərqli fikirlər deyilmiş obrazdır. “Beovulf” dastanındakı Qrendel də qəhrəman Beovulfun vuruşduğu üç fövqəladə düşməndən biridir. Lakin o da Təpəgöz kimi

adi düşmən deyildir. Döyüşlərdə ad çıxarmış neçə-neçə qəhrəmanları olan nəhəng Oğuz eli Təpəgözün əlində çarəsiz və məzlum günə düşdüyü kimi, Qrendel də bütöv Danimarka igidlərinə qan uddurub, onları ağlar günə qoymuş, düz on iki il xalqı qəm, kədər, faciə içərisində saxlamışdır. Hər iki dastanda bu şər qüvvələr fövqəladə, qeyri-adi varlıqlar kimi təqdim olunur. Bu da hər iki obrazın semantik çəkisinin ağır olduğunu göstərir. Baş qəhrəmanların (Basat və Beovulf) fəaliyyətinin bu obrazlara qarşı yönəlməsi, onların mifik-magik xüsusiyyətlərə malik olması Təpəgöz və Qrendelin semantik cəhətdən mürəkkəb, əsrarəngiz personajlar olduğunu nümayiş etdirir.

"Dədə Qorqud" ensiklopedik lüğətində Təpəgöz haqqında deyilir ki, *o, Orta Asiya rəvayətlərində "bir gözlü div" və ya "yalnız gözlü div"dir. İnsan qatilləri təhlükəli varlıqlar, Təpəgöz, Polifem, Siklop, əjdaha, qırxbaşlı nəhəng divlər kimi obrazlaşmışdır. Araşdırıcılar dünya xalqlarının folklorunda bu tipli 200-dən çox mifik obraz qeydə almışlar. "Kitabi-Dədə Qorqud"un Təpəgözü yarıinsan, yarımifoloji varlıqdır* [20, s. 320].

İslam Sadıq da qeyd edir ki, "*dünya xalqlarının folklorunda geniş yayılmış süjetlərdən biri də Təpəgözlə bağlıdır. XIX yüzillikdə Aarne bu süjetin 200-ə yaxın variantını toplamışdır... Onun topladığı Təpəgöz süjetlərinin, bəlkə də, yarısı türk xalqlarının ağız ədəbiyyatından götürülmüşdür*" [73, s. 132].

Polifem, Siklop obrazlarına gəlincə hələ iki əsr öncə "Kitabi-Dədə Qorqud"u ilk dəfə elm aləmi üçün aşkarlamış Haynrix Fridrix fon Dits əfsanəvi ozan Homerdəki təkgöz div Polifemin oğuzların Təpəgöz obrazı əsasında yaradıldığını iddia etmişdir. O yazır: "*Mən inanıram ki, Homer Asiyaya səyahətində Təpəgöz nağılını eşitmişdir. Hərçənd tərcüməçi ilə danışmalı olduğu zaman bu, natamam şəkildə olur ki, o, bunun da əsas cizgilərini öz Polifeminə verməyə meyl etmişdir. Ola bilsin ki, o, bu əhvalatı İoni yaxınlığında özü eşitmişdir. Çünki oğuzların bir qəbiləsi, kim bilir hansı ad altında, Priamın müttəfiqi olmuş və Troyanın mühasirəsi zamanı yunanlara qarşı vuruşmuşdur. Beləliklə də, Təpəgöz nağılı Kiçik Asiyaya gətirilmiş və Homerin vaxtında olduqca yeni bir xatirə kimi*

*yaddaqalan olmuşdur. Lakin Homer bundan istədiyi kimi istifadə etmişdir"* [21, s. 14].

Qeyd edək ki, H.F.Ditsin bu fikri Əli Sultanlı, Xalıq Koroğlu, Məmmədhüseyn Təhmasib, Vaqif Vəliyev, Şamil Cəmşidov, Aqil Hacıyev kimi Azərbaycan qorqudşünasları tərəfindən də müdafiə və təsdiq olunmuşdur [74, s. 8; 108, s. 40; 109, s. 79; 92, s. 39; 80, s. 129; 81, s. 314-315; 18, s. 36; 29, s. 9).

E.D.Tursunov türk xalqlarının folklor mətnlərində Homerin "Odisseya" əsərindəki Polifem süjeti ilə oxşar olan otuz yeddi süjet müəyyənləşdirmişdir. *O, bundan başqa, insanın siklopla üz-üzə gəldiyi əlavə iyirmi üç süjet də göstərmişdir. Onu qeyd edək ki, bu süjetlərdən elə təkcə on səkkizi qazax folklor mətnlərinə aiddir* [119, s. 36-37].

Maraqlıdır ki, Təpəgöz obrazına qırğız türklərinin dünyaca məşhur "Manas" eposunda da rast gəlinir. Təpəgözlər burada icma halındadır, hər birinin öz adı var. Dastanda Təpəgözlərin gözlərinin tək (bir) olması semantik sıra yaradır. Belə ki, Madı-xan-divin özü tək gözlü olduğu kimi, onun mindiyi buğa da tək buynuzludur [103, s. 82].

İ.Sadıq bununla bağlı yazır ki, "Manas" eposundakı Təpəgöz süjetinin mənşəyindən danışan alimlər arasında da yekdil fikir yoxdur. Məsələn, A.N.Bernştam da bəzi alimlər kimi, *"Odisseya"nın e.ə. VII əsrdə yarandığını əsas tutur və yazır ki, həmin vaxt qırğızlardan ayrıca tayfa kimi söhbət gedə bilməzdi*" [96, s. 140-141). İ.Sadıq A.N.Bernştamın bu yanaşması ilə haqlı olaraq razılaşmır, polemikaya girir və öz fikrini təkzibolunmaz şəkildə belə arqumentləşdirir: "*Müəllif məsələyə çox səthi yanaşır, bu süjetin qırğız yox, türk mənşəli olduğunu unudur. "Dədə Qorqud kitabı"nın adını çəkmir, ordakı Təpəgöz süjetindən yan keçir. "Manas"ı "Odisseya", "Roland haqqında nəğmə", "Şahnamə" ilə müqayisə edir, ancaq süjetin ümumtürk epik ənənəsində daha zəngin yer tutduğundan və tarixinin qədimliyindən danışmır*" [73, s. 133].

Ümumiyyətlə, Təpəgöz obrazı öz qeyri-adiliyi ilə tədqiqatçıların diqqətini daim cəlb etməkdədir. İ.Sadıq bu barədə yazır ki, "*Təpəgöz doğuluşundan tutmuş*

*adına, oğulluğundan tutmuş ölümünə qədər hələ də mifoloji semantikasının açılmasına ehtiyac duyulan qeyri-adi obrazdır"* [73, s. 148].

Tədqiqatçı bu obrazı şumer-türk əlaqələri kontekstində geniş şəkildə əlaqələndirərək belə qənaətə gəlir ki, *"bu süjet türklərdən yunanlara keçmişdir. Homer Türkiyənin İzmir şəhərində doğulub yaşamış, türk xalq yaradıcılığı ilə yaxından tanış olmuş, bu süjeti türk folklorundan götürüb öz eposuna daxil etmişdir"* [73, s. 154].

A.Xudiyeva Təpəgöz obrazını demonik mənşəli obraz hesab edir və belə bir arqument gətirir ki, *"ilahi varlıqların məkanı kimi, demonlara aid məkanlara da daxil olmaq qadağan idi... Həm Qrendel, həm də Təpəgöz cəmiyyətdən təcrid olunmuş halda yaşayırlar"* [39, s. 154].

Qeyd edək ki, Təpəgöz obrazı daim Azərbaycan folklorşünaslarının diqqətindədir. Bu barədə tədqiqatlar durmadan davam edir. Maraqlıdır ki, son dövrlərdə meydana çıxan fikirlər daha çox fərqlilikləri ilə diqqəti cəlb edir. Həmin fikirlərə irəlidə konkret məsələlərlə bağlı toxunulacağı üçün onları burada təsvir etməyib, yalnız bir fikir deməklə kifayətlənirik: meydana çıxan yeni yanaşmalar bir-birini inkar edən fikirlər olmayıb, Təpəgöz obrazının semantik genişliklərini əks etdirir. Yəni bu obrazın dərin qatlarına endikcə o, daha da açılmaqla tədqiqatçıları öz məna aləminin zənginliyi ilə heyran edir.

Eyni fikri Beovulf obrazı haqqında da demək olar. Qərbdə "Beovulf" dastanı ilə bağlı çoxlu araşdırmalar aparılmışdır [140; 141; 133; 139; 132; 142; 135; 129; 127; 128; 136; 143; 144; 145 və s.). Bu araşdırmalar abidənin dili, üslubu, məzmunu, forması, obrazlar sistemi, mənsub olduğu epik ənənə və s. kimi ən müxtəlif məsələləri, o cümlədən Qrendel obrazını əhatə edir. Onlardan bəzi səciyyəvi fikirlərə diqqət yetirək.

Tədqiqatçı J.Tolkien Qrendel obrazını şərin fövqəladə gücə malik olan təcəssümü və eyni zamanda insanlığın şər qarşısında acizliyi, gücsüzlüyü, ümidsizliyi, ona qalib gələn Beovulfu isə bu gücə qarşı dura bilən yeganə fövqəladə qəhrəman kimi səciyyələndirmişdir [148, s. 199-211].

Lakin “The Structure of Beowulf” (“Beovulfun quruluşu”) əsərinin müəllifi Kennet Sisam J.Tolkienin “Beovulf” dastanın əsas ideyasının şər ilə amansız, lakin ümidsiz bir savaş olduğu haqqındakı fikrini qəbul etmir. Alimə görə, “*əsərdə Qrendel və digər şəri təmsil edən obrazların fövqəladə və amansız təsviri acizlik, ümidsizlik motivinin deyil, baş qəhrəman Beovulfun qəhrəmanlıqlarının tərənnümünə xidmət edir*” [142, s. 83-87].

Bu məqamda Oruc Əliyevin bir səciyyəvi fikri məsələnin mahiyyətini tam şəkildə izah edir: “*Xalqın bədii təfəkküründə şərə ayrılan masştabın genişliyi bu şərin konkret ifadəçilərinin nəhəngliyində də ifadə olunmaqdadır. Şərin böyüklüyü öz növbəsində ona qarşı duran qəhrəmanın da əzəmətindən xəbər verir*” [26, s.33]

E.Talbot Donaldson əski anqlosaks düşüncəsi üçün xarakterik olan düşməndən qisas almaq hissinin sosial davranışlardakı rolundan bəhs etmiş, qisas hissini “Beovulf” dastanı qəhrəmanlarının fəaliyyətini və Qrendelin məhvini şərtləndirən əsas mənəvi faktor kimi səciyyələndirmişdir [127, s. 102].

Frenk Klaeber özünün “Beowulf and the fight at Finnsburg” (Beovulf və Finnsburqda döyüş”) adlı əsərində Qrendel obrazının poetik quruluşunu təhlil etmiş, bu obrazda xaos (şər dünyası) ilə bağlı əski mifik görüşlərlə bərabər, xristianlıqdakı şeytan obrazının təsirinin də olduğunu göstərmişdir [133, s. 39].

Qrendel obrazı ilə bağlı A.Xudiyeva maraqlı məqamlara toxunmuşdur. O, öz məqaləsində Qrendeli demonik obraz kimi səciyyələndirir, onun su ilə bağlı obraz olduğunu göstərir və belə hesab edir ki, *“istər Qrendel, istərsə də Grendles modor (Qrendelin anası – R.Vəliyeva) obrazlarında anqlo-saksonların şər barədə təsəvvürləri xristian dünyagörüşündəki şər qüvvə (iblis, şeytan) ilə bağlı təsəvvürlərlə çulğalaşmışdır”* [39, s. 41]. Müəllif Qrendel adının etimologiyası haqqında fikirlərin çoxluğunu qeyd edərək yazır: *“Ən çox belə hesab edilir ki, Qrendel adı qədim ingiliscədəki “Qrindan” sözünün təhrif edilmiş formasıdır. Qədim ingiliscədəki Grindan “to grind” feliondən olub, mənası “əzən” deməkdir* [39, s. 41].

Qeyd edək ki, bu etimologiya Qrendel obrazının vəhşi təbətini, onun demonuik mahiyyətini və bir bir obraz kimi epik funksiyasını, doğrudan da, əks etdirir.

Qrendel haqqında bu fikirləri daha da genişləndirmək olar. Lakin bu fikirlərin hamısında o, şər, xaos dünyasına mənsub bir qüvvə kimi qiymətləndirilmişdir. Bunun bizim tədqiqatımız üçün böyük əhəmiyyəti vardır. Çünki biz Qrendel və Təpəgöz obrazlarının tipologiyasını şərin yaranışı (doğuluşu), fəaliyyəti və məhvi xətti üzrə təhlil etməyi məqsədəuyğun hesab edirik. Çünki folklorda və mifologiyada hər bir obraz onun həyatının hansı dövrünün qabardılmasından asılı olmayaraq, keçmişi (doğuluşu), bu günü (fəaliyyəti) və sabahı (sonu) baxımından səciyyələndirilir. Biz də burada bu xronoloji xətti əsas götürəcəyik.

### 2.2. Təpəgöz və Qrendelin yaranışı

Bütün tədqiqatçılar Təpəgöz və Qendel obrazlarının mifik görüşlərlə bağlılığı barəsində yekdil fikirdədirlər. Bu obrazlara sonrakı dövrlərdə hansı epik-bədii, dini-ideoloji cizgilərin əlavə olunmasından asılı olmayaraq, onların hər ikisinin "mayası mifologiya ilə yoğrulmuşdur". Mifologiyada isə hər bir obrazın "tarixi", mahiyyəti, kimliyi, varlığı onun doğuluşu ilə şərtlənir.

L.A.Sedov mifologiyada doğuluş motivi ilə bağlı yazır ki, "*heç bir canlının ölməməsi, yenidən dünyaya qayıtmaq üçün yalnız müvəqqəti olaraq ölməsi və təkrarən doğulması haqqındakı təsəvvür də doğuluşla bağlıdır"* [116, s. 385].

L.A.Sedovun bu fikrində iki tipoloji cəhət əhəmiyyətlidir:

Birincisi, doğuluşun yerlə bağlanması;

İkincisi, doğuluşun təkrar ölüb-dirilmə ilə bağlı olması.

Əvvəlcə Təpəgözün doğuluşunu izləyək. Bu, məşhur bir süjetdir. Dastanda deyilir ki, "Aruzuñ bir çobanı vardı. Qoñur qoca Sarı çoban deyərlərdi. Oğuzıñögincə bundan əvvəl kimsə köçməzdi. Uzun biñar diməklə məşhur bir biñar vardı. Ol biñara pərilər qonmışdı. Nagahandan qoyun ürkdi. Çoban ərkəcə qaqdı, ilərü vardı. Gördi kim, pəri qızları qanat qanada bağlamışlar, uçarlar. Çoban kəpənəgini

üzərlərinə atdı. Pəri qızınıñ birini tutdı. Təmə edüb, dərhal cima eylədi. Qoyun ürkməgə başladı. Çoban qoyunuñ öginə səgirtdi. Pəri qızı qanat urub uçdı. Aydır: "Çoban, yil tamam olıcaq məndə əmanətiñ var, gəl, al! – dedi. – Əmma Oğuzuñ başına zaval gətürdüñ", – dedi. Çobanıñ içinə qorxu düşdi. Əmma qızıñ dərdindən bəñizi sarardı [47, s. 379-384].

Zamanla Oğuz genə yaylaya köçdi. Çoban genə bu biñara gəldi. Genə qoyun ürkdi. Çoban ilərü vardı. Gördi kim, bir yığanaq yatur, yıldır-yıldır yıldırır. Pəri qızı gəldi. Aydır: "Çoban, əmanətiñ gəl, al! Əmma Oğuzuñ başına zəval gətürdüñ!" – dedi. Çoban bu yığanağı görcək ibrət aldı. Gerü döndi. Sapan taşına tutdı. Urduqca böyüdi. Çoban yığanağı qodı qaçdı; qoyun ardına düşdi.

Məgər ol dəm Bayındır xan bəglər ilə seyrana yetmişlərdi. Bu biñarıñ üzərinə gəldilər. Gördilər kim, bir ibrət nəsnə yatur, başı-köti bəlürsiz. Çevrə aldılar. Endi bir yigit bunı dəpdi. Dəpdikcə böyüdi. Bir qac yigit dəxi endilər, dəpdilər. Dəpdiklərincə böyüdi. Aruz qoca dəxi enüb dəpələdi, mahmuzı toqundı. Bu yığanaq yarıldı, içindən bir oğlan çıqdı. Gövdəsi adam, dəpəsində bir gözi var. Aruz aldı bu oğlanı ətəginə sardı. Aydır: "Xanım, munı maña veriñ, oğlum Basatla yaşlıyayın!" – dedi" [47, s. 98-99].

Təpəgözün bu doğuluş süjeti bir neçə epizoddan ibarətdir:

I. Çobanın pəri qızına cinsi təcavüz etməsi;

II. Pəri qızının çobandan uşağa qalması;

III. Pəri qızının yığnaq formasında doğduğu Təpəgözün Oğuz bəyləri tərəfindən yığnaqdan çıxarılması.

Professor Kamran Əliyev bu doğuluşu miflə gerçəkliyin qovuşması kimi səciyyələndirmişdir: "*Təpəgöz Çobanla Pərinin izdivacından doğulur və yarıməfsanəvi bir obrazdır, deməli, reallıqla mifin müştərək təcəssümüdür*" [25, s. 40].

K.Əliyevin bu fikrinə münasibət bildirən A.Xəlil göstərir ki, "*burada tədqiqatçı obrazın genezisini deyil, genealogiyasını əsas xətt kimi götürür və "çobanlıq xisləti"ni oğuz mədəniyyəti kontekstində bir kateqoriya olaraq aydınlaşdırır*" [37, s.148].

S.Rzasoy da K.Əliyevin eyni fikrinə münasibət ifadə edərək yazır ki, "*müəllifin təhlilində çox maraqlı bir ümumiləşdirmə diqqəti cəlb edir. O, Təpəgözün fövqəlobraz – reallıqüstü olmasına diqqət verməklə, əslində, boyun (bütövlükdə: eposun) obrazlar sistemində "fövqəlobraz" konseptinin xüsusi səviyyə, yaxud xüsusi sahə olduğunu müəyyənləşdirə bilmişdir*" [72, s. 133].

İ.Sadıq Təpəgözün doğulması faktını qədim tayfa düşüncəsi üçün səciyyəvi olan qan təmizliyi motivi ilə izah edərək yazır ki, "*Təpəgöz Oğuz qanına (Sarı çoban) yad qanın (Pəri qızı) qarışmasından doğulmuşdur. Burada yad qanın Oğuz qanına mənfi təsiri gözün birini ixtisara salmışdır*" (73, 148-149).

Rafiq Babayev də yazır ki, *Təpəgöz Oğuz mühitinə yaddır. Təpəgözün anası pəri qızıdır. Epik məkanda bu çox ciddi məsələdir"* [12, s. 50].

Lakin bizim fikrimizcə, bu zina məsələsini arxa plana çəkmək də olmaz. Hər halda, pəri qızının Oğuzdan olub-olmamasına baxmayaraq, ona qarşı cinsi təcavüz aktının həyata keçirilməsi göz qabağında olan faktdır. Günahsız bir varlığın, hətta insan deyil, pəri də olsa, namusuna təcavüz edilməsini oğuz babalarımız qəbul edə bilməzdilər.

Pərilərin folklorda müqəddəsliyini, xeyirxahlığını xüsusi vurğulayan R.Qafarlı göstərir ki, "*"Kitabi-Dədə Qorqud"da Sarı çoban kimsəsiz yerdə bir pəri qıza rast gəlir, ona təcavüz edir. Bunun nəticəsində qəddar, adamcıl Təpəgöz doğulur, saatla, günlə böyüyən qeyri-normal məxluq el içində yağ-balla bəslənməsinə baxmayaraq insanlara – öz qan qohumlarına qənim kəsilir, say-seçmə igidlərin ölümünə bais olur*" [51, s. 37].

Türk tədqiqatçısı K.Üçüncü də yazır ki, "*Təpəgöz bir tabunun pozulması nəticəsində ortaya çıxır*" [95, s. 54].

Qeyd edək ki, pərilərlə insanların cinsi münasibəti dünya folklorunda rast gəlinən haldır. D.L.Aşliman yazır ki, "*pərilər cinsi olan (*qadın cinsi nəzərdə tutulur – R.Vəliyeva*) varlıqlardır və tez-tez insanlarla əlaqəyə girirlər. İnsanlar və pərilər arasında yaxınlıq qorxuları geniş yayılmışdır və bunların sonu çox vaxt faciə ilə nəticələnir. Folklor ölümlü və qeyri-adi varlıqlar arasında təhlükəli əlaqə barədə qadağalarla doludur. Bu hekayələrin çoxu qadağan edilmiş tərəf-müqabillə*

*cinsi əlaqənin bədbəxt sonluğunu göstərən xəbərdaredici nağıllar kimi izah edilə bilər”* [125, s. 22].

Çobanın pəri qızına cinsi təcavüz epizodu və deyilmiş fikirlər göstərir ki, Təpəgöz qeyri-qanuni, əxlaqsız, antimənəvi münasibətin nəticəsi olaraq doğulur. Pəri qızının dediyi: “Çoban, yil tamam olıcaq məndə əmanətiñ var, gəl, al! – dedi. – Əmma Oğuzuñ başına zaval gətürdüñ” xəbərdarlığı çobanın hərəkətinə olan pis münasibəti ifadə edir. Çoban mənəvi sərhədləri, sakral yasaqları pozur. O, pəri qızının namusuna toxunmamalı idi. Məhz toxunduğu üçün Oğuz elinin başına görünməmiş bəla gəlir. Bəlanın böyüklüyü dolayısı ilə oğuzların namus anlayışına nə qədər dəyər verdiklərini göstərir.

Təpəgözün doğuluş süjetində diqqəti cəlb edən ən mühüm məqam onun adi insan kimi doğulmamasıdır. Əslində, o, adi olmayan (qeyri-adi) bir varlıq olduğu kimi, onun doğuluşu da qeyri-adi formada həyata keçir. Pəri qızı onu öz bətnində adi insanlarda olduğu kimi doqquz ay deyil, bir il gəzdirir (“Çoban, yil tamam olıcaq məndə əmanətiñ var...”). Digər tərəfdən, o, adi insan kimi deyil, yığnaq şəklində doğulur.

Bu yığnaq formasında doğuluş yalnız “Dədə Qorqud” dastanı üçün səciyyəvidir. Tədqiqatlarda onun barəsində xüsusi bir fikrə rast gəlmədik. Yalnız S.Qarayev bu barədə araşdırma apararaq, bu doğuluşu xaosdan kosmosun yaranmasının bir forması hesab etmişdir. O yazır ki, “*ümumilikdə, folklorda “sınmaq”, “çatlamaq”, “yarılmaq” simvolik olaraq yenidən doğulma, meydana gəlmə işarəsi hesab edilə bilər”* [52, s. 132].

S.Qarayev belə düşünür ki, “*burada araşdırmağa ehtiyac olan bir çox simvol vardır. Əslində, yığnaq qadın uşaqlığının simvoludur. Xatırladaq ki, belə bir yığnaq (şiş) müqəddəs Orfik vazada da əks olunmuşdur ki, J.Kempbel bu obrazı izah edərkən onu “toxum mənbəyi” adlandırır. Və bildirir ki, “Bu yerdə daima mövcud olan qadın gücüdür ki, fırdan daima həyat toxumu verir”* [107, s. 311]. *Yeniləşən həyatın simvolu olan ulu Ana (Pəri) qəzəbləndirildiyinə görə Oğuz elini bəlaya düçar edir... Pərinin qadın cildində məhz suyun başında görünməsi təsadüfi deyildir... Mifologiyada xaos həm də qadın bətninə bənzədilmişdir... Bu mənada*

*Təpəgöz bilavasitə xaosu simvolizə edən ananın bətnindən, Xaosdan doğulmuşdur*" [52, s. 160-161].

Müəllif belə hesab edir ki, Bayındır xanın rəhbərliyi ilə ova çıxmış oğuz bəylərinin ovda tapdıqları bu yığnağı təpikləməkləri də adi hadisə olmayıb, qeyri-adi doğuluş mərasimini təcəssüm etdirir. S.Qarayev yazır: "*Burada maraqlı məqamlardan birisi də boyda yer alan aşağıdakı informasiyadır: "Aruz qoca dəxi enüb dəpələdi, mahmuzı toqundı. Bu yığanaq yarıldı, içindən bir oğlan çıqdı". Bu qadın dölünün simvolu ətrafında həyata keçirilən ritualdır... K.Q.Yunq Avstraliyanın vaçandi tayfasında keçirilən bir mərasimi belə təsvir edir: "Yerdə quyu qazılır. Və sonra kol-kosla həmin quyuya qadın cinsi orqanının şəkli verilir. Daha sonra əllərində kişi cinsi orqanının simvolu olan nizə tuturlar. Onlar rəqs edə-edə həmin quyunun ətrafında dövrə vurur və nizəni həmin o quyuya batırırlar. Təbiidir ki, burda əsas iki simvol var: yarıq və fallos"* [122, s. 156]

Qeyd edək ki, "Beovulf" dastanında Təpəgözün analogiyası olan Qrendelin doğuluşu təsvir edilmir. Lakin dastanda olan məlumatlar onun da şərdən – xaosdan törədiyini göstərir.

He was of a race of monsters
exiled from mankind by God--
He was of the race of Cain,
that man punished for
murdering his brother.
From that family comes
all evil beings--
monsters, elves, zombies [157, s. 9].
O, Tanrının insanlar arasından qovduğu
Divlərin nəslindən idi.
Qardaşını qətl etdiyi üçün cəzalandırılmış
Qabilin nəslindən idi.
Bütün pis törəmələr:
Canavarlar, cinlər, yaşayan ölülər bu nəsildəndir.

Göründüyü kimi, Qrendel də Təpəgöz kimi bir şər varlıq, antiinsani, antimənəvi dəyər kimi doğulmuşdur. Lakin Təpəgözdən fərqli olaraq, dastanda onun doğuluşu təsvir edilmir. Biz onu yalnız Hrotqarın sarayına hücum edən yetkin bir vəhşi kimi görürük. Amma burada bir məqam da vardır. "Kitabi-Dədə Qorqud"da Təpəgözü doğan ana, yəni pəri qızı dastanda epizodik rola malikdir. Biz onu cəmi iki dəfə görürük: bir dəfə çoban ona təcavüz edəndə, bir dəfə də doğduğu Təpəgözü çoban üçün gətirəndə. Onun boydakı iştirakı bununla da qurtarır və biz bir də həmin pəri qızı obrazına təsadüf etmirik. "Beovulf"da isə vəziyyət ayrı cürdür. Qrendelin anası dastanda üç qeyri-adi düşməndən (Qrendel, anası və əjdaha) biridir. O, süjetin fəal obrazlarındandır. Ümumiyyətlə, Beovulfun fəal qəhrəmanlığı üç məqamın üzərində qurulur:

I. Qrendellə döyüş;

II. Qrendeilin anası ilə döyüş;

III. Əjdaha ilə döyüş.

Göründüyü kimi, Qrendelin anası Beovulfun dastanın süjetini əhatə edən qəhrəmanlığının ikinci mərhələsidir. Bu cəhətdən o, pəri qızından fərqli olaraq, insanların düşməni, şər (xaotik) obrazdır. Əgər "Dədə Qorqud"da pəri qızı insan təcavüzünə məruz qalırsa, "Beovulf"da Qrendelin anası insanları təcavüzə məruz qoyur. Lakin burada da hər iki ananı birləşdirən maraqlı tipoloji nöqtə var. Pərilər dinc varlıqlardır. Onların insanlarla heç bir işi yoxdur. Pəri qızı yalnız ona təcavüz edildikdən sonra bütün Oğuz elinə cəza olaraq Təpəgözü doğur. "Beovulf"da da biz ana divi insanlara hücum edən görmürük. Ana divin təcavüzü oğlunun ölümcül yaralanmasından sonra başlanır. Hər halda, o, nə qədər şər varlıq olsa da, dastanda onun oğlu yaralanana qədər insanlara hücum etməsi haqqında heç nə deyilmir.

Beləliklə, Təpəgözü pəri qızı doğduğu kimi, Qrendeli də onun anası doğmuşdur. Qrendelin dastanda şər varlıq, antiinsani, antimənəvi varlıq kimi səciyyələndirilməsi onun doğuluşunu da xaosun yaranışı kimi səciyyələndirməyə imkan verir. Mifologiyada xaosdan kosmos, kosmosdan xaos yaranır və bu növbəli yaranış zəncir (silsilə) kimi davam edir. Bu cəhətdən Təpəgözün və Qrendelin yaranışı kosmosdan xaosun yaranması, daha doğrusu, kosmos halının xaos halına

keçməsi deməkdir. Təpəgözün doğuluşuna qədər Oğuz eli kosmik nizam içərisində yaşayırdı, onun doğuluşu ilə cəmiyyətin nizamı tərsinə dəyişir: kosmos xaosa keçir. Qrendelin yaranışı ilə də Danimarkada kosmos (sabitlik, sakitlik, dinc həyat) xaosla (bədbəxtliklə, nizamsızlıqla) əvəz olunur (*Yarımfəsildə əldə olunmuş elmi nəticələrin nəşr olunduğu qaynaq üçün bax.: 87*).

### 2.3. Təpəgöz və Qrendelin ailə bağları

Təpəgözlə Qrendeli bir-birinə yaxınlaşdıran yalnız onların bitik doğuluşları deyil, eyni zamanda ailə bağlarıdır. Məlumdur ki, Qrendelin ailəsi iki varlıqdan ibarətdir: özü və anası. Təpəgöz süjetini onlarla müqayisə etdikdə görürük ki, bu süjet Qrendellə onun anasının arasında bölünür:

I. Beovulfla Qrendel arasında döyüş və onun qolunun qopardılması Basatla Təpəgöz arasında döyüşün birinci mərhələsinə uyğun gəlir. Qolu qoparılmış Qrendel anasının su altındakı yuvasına qaçır və burada huşsuz vəziyyətdə ölür.

II. Basatın Təpəgözlə vuruşu, onu divin öz qılıncı ilə öldürməsi isə Beovulfun Qrendelin anası ilə vuruşması və onu ana divin öz qılıncı ilə öldürməsi ilə uyğun gəlir.

Beləliklə, "Dədə Qorqud" dastanında Təpəgözlə bağlı olan süjetin əvvəli "Beovulf"da Qrendellə, sonrası isə Qrendelin anası ilə bağlıdır.

Maraqlıdır ki, Təpəgözün ailə münasibətləri, daha doğrusu, anası ilə münasibətləri haqqında dastanda xırda bir məqamdan (pəri qızının onu ölümsüz etməsindən) başqa heç nə deyilmir. "Beovulf"da isə ana divin öz oğluna məhəbbəti, oğlunun ölümcül yaralanmasından qəzəblənməsi, onun intiqamını almaq üçün vuruşması kimi səhnələr geniş təsvir olunur. Ancaq Azərbaycan folklorunda Təpəgözlə oxşar süjetlər, yəni nəhənglər, azmanlar haqqında mətnlər var. Onlar Təpəgözün ailəsi haqqında müəyyən təsəvvürlər yaradır.

Naxçıvan bölgəsindən toplanmış bir mətndə Sədərəkdəki Şərur adlı şəhərin qırağında yaşayan Ucuqulu adlı bir nəhəngdən bəhs olunur. Ucuqulu o qədər böyük idi ki, adamlar onun topuğu hündürlüyündə idilər. O, odun qırmaqdan ötrü

meşəyə gələn insanları buraxmırmış. Odunları özü tədarük edir, gətirib camaata paylayır, əvəzində özünə və anasına ərzaq, atına yem alırmış. O, şəhərə gələndə hər dəfə kimsə bu nəhəngin ayaqları altında qalıb ölür, yaxud şələsi ilə kiminsə evini uçurub-dağıdırmış. Şəhərin ağsaqqalları onun yanına gəlib deyirlər ki, sən şəhərə gəlmə, qoy odunu özümüz yığaq, əvəzində də sizin yeməyinizi verək. Bir müddət belə olsa da, sonra insanlar atını yemini çatdıra bilmirlər. Ona görə də atın yeminin bir hissəsini murdarlayırlar ki, at iyrənib az yesin. At təmiz otu yeyip, murdarlanmış hissəyə dəymir. Ucuqulu atın az yeməsinin səbəbəini anasından soruşur. "Anası da deyir ki, a bala, bı cırtdanlarınan işin olmasın. Bınlar dünyanın bicidirlər. Elə bicliklərindən də belə cırtdan oluplar".

Ucuqulu çox yekə olduğu üçün Əzrayılın da ona gücü çatmırmış öldürsün. Bir gün onun ayağına tikan batır, uzanır ki, bacısı tikanı çıxratsın. Əzrayıl dərhal onun sinəsinə çöküb canını alır. Ancası ilə bacısı elə bilirlər ki, Ucuqulunu adamlar öldürüblər. Ona görə Şərur şəhərini dağıdırlar. "Ucuqulu öləndən sonra onun üstünü yavaş-yavaş toz-torpax basır, sonra bı toz-torpax bərkiyip dağ-daşa çevrilir. Ucuqulunun ayağı ki, Arazın o tayına uzanılı qalmışdı, sonralar körpüyə dönür. Camahat bı körpüynən o tay-butaya gedip-gəlirmiş. Çox xatalar elədiyinə görə camahat Ucuqulunun adını dəyişip Buculux qoyur. Ucuqulunun ayağından düzələn körpüyə də Buculux körpüsü deyillər" [62, s. 22-24]

Bu əfsanəni geniş şəkildə təhlil etmiş E.İmaməliyev göstərir ki, *burada iki dünya və buna uyğun iki durum var: biri nəhəngin (Ucuqulunun), o biri insanların dünyası. Bu iki dünya quruluşu, görkəmi, onlardakı davranış qaydaları baxlımından bir-birinə ziddir. Ucuqulunun Təpəgözü xatırlatmasını, Təpəgözün xaosun təmsilçisi olduğunu nəzərə alsaq, bu dünyalardan biri – xaosu, o biri – kosmosu göstərir"* [40, s.59-60].

Biz müəllifin gəldiyi bu qənaətlərlə razılaşmaqla bərabər, bildirmək istərdik ki, burada təkcə Ucuqulu-Təpəgöz münasibətləri müşahidə olunmur. Belə hesab edirik ki, Ucuqulu-Əzrayıl münasibətləri də Dəli Domrul-Əzrayıl münasibətlərini xatırladır.

Məlumdur ki, Əzrayıl İslam dinində ölüm mələyidir. Allahın əmri ilə bir insanın ölüm vaxtı çatdıqda onun canının alınması işini Əzrayıl həyata keçirir. İslam dininə görə, heç bir qüvvə onun öz işini icra etməsinə mane ola bilməz. Ancaq sözü gedən mətndən görürük ki, Əzrayıl Ucuqulunu öldürmək istəsə də, bunu istədiyi vaxt edə bilmir. Ucuqulu ayaq üstə olanda bu nəhəng insana yaxınlaşmağa qorxur. Ucuqulunun yerə uzanmağını gözləyir. Nəhayət, bu fürsət əlinə düşür və Əzrayıl onu öldürə bilir.

Buradan aydın şəkildə görünür ki, əfsanədə haqqında bəhs olunan Əzrayıl adı baxımından İslam dinindəki Əzrayıl ilə səsləşsə də, özü islamaqədərki mifik obrazdır. İslam dinindəki Əzrayılın qarşısında heç bir qüvvə durmağa qadir deyil. Mətndəki Əzrayıl isə Ucuquludan qorxur, onu öldürməyə fürsət axtarır. Ucuqulu isə Əzrayıldan qorxur və onu yaxınına buraxmır. Onun Əzrayıldan qorxmamağı Dəli Domrulun Əzrayıldan qorxmamağını, onunla vuruşmağını yada salır.

Maraqlıdır ki, Təpəgözlə Ucuqulu arasında paralellər aşkarlayan E.İmaməliyev Təpəgözün ailə quruluşu haqqında da məntiqi qənaətlər söyləmişdir. O yazır ki, "*Ucuqulunun ailəsi bizə Təpəgözün ailəsi barəsində də düşünməyə imkan verir. Təpəgözün atası Qonur Qoca Sarı Çoban Oğuzdandır, anası pəri qızı isə ayrı dünyadandır... Belə ki, Təpəgözlə eyni məna yuvasına girən Ucuqulunun da anası var, lakin anası ilə bərabər bacısı da var. Deməк, Təpəgözün anası olduğu kimi, babası, nənəsi ola bilər. Buradan çıxan nəticə ondan ibarətdir ki, Azərbaycan əfsanələri Oğuz mif dünyasının davamı kimi, mifologiyamızın unudulmuş məqamlarını bərpa etməkdən ötrü bizə indiki halda olduğu kimi qiymətli material verə bilər*" [39, s. 60].

Bizcə, müəlliflə razılaşmaq olar. Ucuqulu ilə Təpəgöz arasındakı yaxınlıq göz qabağındadır. Yəni onların hər ikisinin ailəsi, doğmaları var. Ancaq belə hesab edirik ki, Ucuqulu ilə Təpəgözü tam şəkildə eyniləşdirmək olmaz. Bunlar fərqli obrazlardır. Ucuqulu ilk əcdad haqqındakı miflərdə olan əcdadları yada salır. İnsanların nəhənglərdən əmələ gəlməsi haqqında əfsanələr dünya folklorunda geniş yayılıb. Bu əfsanədə də Ucuqulugillə insanlar eyni varlıqlardır. Sadəcə, indiki insanlar cırtdan insanlar, Ucuqulugil nəhəng insanlardır. Bu da onu göstərir ki,

Ucuqulugil indiki insanların əcdadları olan nəhəng insanların son nümayəndələridir. Təpəgöz isə bir div, qaniçən məxluqdur və o, eposda insanların əcdadı kimi təqdim olunmur.

“Beovulf”da Qrendelin anasından başqa bir doğması yoxdur. “Dədə Qorqud”da isə Təpəgözün atası, atalığı və süd qardaşı da var. Təpəgözün bioloji atası olan Qonur qoca Sarı çoban obrazına tədqiqatçılar, demək olar ki, əhəmiyyət verməmişlər. Araşdırmalarda onun yanlış hərəkəti həmişə qınanmışdır. Professor Kamran Əliyev Təpəgöz obrazının poetik mahiyyətindən danışarkən “çoban xisləti” faktorunu qabardaraq məntiqi nəticələr əldə etmişdir. O, çobanın atadan və anadan gələn genetik xüsusiyyətlərinə diqqət yönəldərək Təpəgözün “çoban xisləti”nin mifik xüsusiyyətlərini üzə çıxarır. Məlum olur ki, Təpəgözün çoxlu qoyun və insan əti yeməsi heç də təsadüfi hadisə deyil, bu bədheybətin çobanlıq xislətindən doğan bir haldır. Xalıq Koroğlunun “*Təpəgözün Polifem və başqa versiyalardakı sikloplar kimi çoban atributunu qoruyub saxlaması*” haqqındakı fikrini [49, s. 145] də əsas götürən müəllif göstərir ki, Təpəgöz reallığı – atasından gələn xüsusiyyətləri, daha geniş mənada isə öz Oğuzluğunu – çoban zümrəsinə xas keyfiyyətləri qoruyub saxlayır [25, s. 40].

K.Əliyevin Təpəgöz obrazının mifik şəcərəsində “çoban xisləti” geni haqqındakı fikrinə əsaslanan A.Xəlil də öz növbəsində göstərir ki, “*bununla “obrazın reallıq konteksti açıqlanmış olur. Məlum olur ki, Təpəgöz özündə çoban xüsusiyyətləri daşıyır. Burada Təpəgöz öz xarakteri etibarilə həm də “çoban”dır. Bu “çobanlıq” xüsusiyyəti Oğuz mədəniyyətinin mərkəz xətlərindən birini təşkil edir. Beləliklə, Təpəgözdəki “çoban xisləti”nin aşkarlanması Oğuz mədəniyyətinin əsas xüsusiyyətlərini antiqəhrəman paradiqmasında aydınlaşdırmağa imkan verir*” [37, s. 148-149].

Beləliklə, araşdırmalar dərinləşdikcə Təpəgöz obrazının ətrafındakı sirli-sehrli (mifik) semantikalı sahəyə aydınlıq gəlir. Bu cəhətdən, K.Əliyevin Təpəgözün çoban mənşəyinin qabartmasında dərin məna vardır. Müəllif bununla Təpəgözün genetik mənşə etibarilə qəhrəman əxlaqının daşıyıcısı olmadığını göstərmək istəyir. Yəni Təpəgöz murdar əxlaqlı çobandan dünyaya gəldiyi üçün bu qədər

çirkin və murdardır. Qonur Qoca Sarı çoban "Dədə Qorqud" dastanı qəhrəmanları üçün xarakterik olan əxlaqdan məhrumdur. Dastan qəhrəmanı olan bəylər ali əxlaqi keyfiyyətlərin daşıyıcıları olduğu halda, Qonur Qoca Sarı çoban bu cür mənəvi keyfiyyətlərdən məhrumdur.

Ancaq bu sözü Oğuz elindəki bütün çobanlara aid etmək olmaz. Düzdür, eposda yalnız iki çobandan bəhs olunur: Aruzun çobanı və Salur Qazanın çobanı. Ancaq təbii ki, Oğuz elində bunlardan başqa da çobanlar var idi. Eposdakı bu iki çoban bir-birinə fərqli əxlaqi qütblərdə dururlar. Qaraca Çoban mərd bir insan, el-oba namusu yolunda ölümə hazır igid insandır.

Qeyd olundu ki, Təpəgözün öz atası ilə bərabər atalığı və süd qardaşı da vardır. Dastanda gördüyümüz kimi, öz doğma atası olan çoban yığnaq şəkildə olan Təpəgözü qoyub qaçır. Lakin Aruz onu oğulluğa götürür, evinə gətirir və öz ailəsində böyüdür: "Bu yığanaq yarıldı, içindən bir oğlan çıqdı. Gödəsi adam, dəpəsində bir gözi var. Aruz aldı bu oğlanı, ətəginə sardı. Aydır: "Xanım, munı maña veriñ, oğlum Basatla yaşlıyayın!" – dedi. Bayındır xan "Səniñ olsun!" – dedi. Aruz Dəpəgözi aldı, evinə gətürdi. Buyurdı, bir dayə gəldi. Əmcəgini ağzına verdi. Bir sordı, olanca südin aldı. İki sordı, qanın aldı. Üç sordı, canın aldı. Bir qac dayə gətürdilər, həlak etdi. Gördilər olmaz, "Süd ilə bəsliyəlim" – dedilər. Gündə bir qazan süd yetməzdi. Bəslədilər, böyüdi, gəzər oldı. Oğlancıqlarla oynar oldı. Oğlancıqlarıñ kiminüñ burnın, kiminüñ qulağın yeməgə başladı. Əlhasili, ordı bunuñ ucından qatı incindilər. Aciz qaldılar. Aruza şikayət edüb ağlaşdılar. Aruz, Dəpəgözi dögdi-sögdi, yasaq eylədi, əsləmədi. Axır evindən qodı" [47, s. 99].

Məlum olur ki, öz atası Qonur qoca Sarı çoban yığnağı qoyub qaçandan sonra, onu oğuz bəyləri tapır və bu eybəcər uşağı Aruz oğulluğa götürərək, ailəsinə qəbul edir.

Qeyd edək ki, burada bir məqam diqqəti cəlb edir: Təpəgözü nəyə görə Aruzun oğulluğa qəbul edir?

Dastandan göründüyü kimi, Oğuz bəyləri Pəri qızının qoyub getdiyi yığnağa birgə rast gəlirlər. Lakin Oğuz bəylərindən yalnız Aruz onu oğulluğa qəbul edir. Görəsən, Aruz bu eybəcər uşağı nəyə görə oğulluğa qəbul edir? Axı orada digər

Oğuz bəyləri də var idi? Axı onlar da uşağı götürüb bəsləyə bilərdilər? Bizcə, bunun gizlində qalan səbəbi var.

Biz bir oxucu kimi bu uşağın atasının Aruzun çobanı olduğunu bilirik. Ancaq Aruz da bunu bilirmi? Bizcə, Aruzun bundan xəbəri yox idi. Çünki xəbəri olsa idi, ya Qonur Qoca Sarı çobanı Pəri qızına sataşdığı üçün cəzalandırar, ya da Təpəgözü ona verərdi ki, al, oğlunu saxla.

Bizə belə gəlir ki, bəylərin Təpəgözə rast gəldiyi sahə Alp Aruza aid ərazidir. Bilirik ki, oğuzlarda hər bir bəyin sürülərinin otarıldığı özünə məxsus sahələri var idi. Qonur Qoca Sarı çoban da Pəri qızına Aruza aid ərazidəki bulaqda rast gəlmişdi. Məntiqlə Pəri qızı da uşağı öz atasına vermək üçün onun olduğu yerə gətirməli idi. Bu yerin sahibi isə Alp Aruz idi. Beləliklə, Təpəgöz Alp Aruza aid ərazidə tapıldığı üçün Aruz ona sahiblənir.

Göründüyü kimi, Təpəgöz Qrendeldən fərqli olaraq, əvvəlcə insan ailəsində böyümüşdür. Lakin o, öz vəhşi adamyeyən xislətindən əl çəkə bilmədiyi üçün ailədən qovulur.

Təpəgözün Aruzun ailəsinə oğul kimi qəbul olunmasını onun Basatla dialoqundakı "süd qardaşı" məsələsi təsdiq edir. Dastanda Basata məğlub olan Təpəgöz ona süd qardaşı olduqlarını xatırladır. Mətnin orijinalında süd qardaşı ifadəsi "əmdi qardaş" şəklində verilmişdir:

*"Əmdi qardaşlar, qıyma maña!" – dedi"* [47, s. 102].

"Əmdi qardaşlar" ifadəsi eyni bir anadan süd əmən qardaş deməkdir. R.Qafarlı bunu qan qohumluğu kimi şərh edir : "*Hamının bir-birinə qohum olması ideyasına inamın mövcudluğuna rast gəlirik. Təpəgöz Basata bildirir ki, biz süd qardaşıyıq. Hadisələrin əvvəlini xatırladıb demək olar ki, burada qeyri-adi heç nə yoxdur. Təpəgözə Basatın atası Alp Aruz baxmışdı, ona görə də bu sözü deməyə haqqı vardı. Elə məsələnin canı ondadır ki, Alp Aruz insana bənzəməyən məxluqu (halbuki Təpəgözdən doğma atası Sarı Çoban imtina etmişdi) öz qanından hesab edib, evinə gətirmişdi. Deməli, qədim insanlar onlara tanış ərazidə rastlaşdıqları bütün varlıqların "qan qohumluğuna" inanırdılar*" [51, s. 43].

Qeyd edək ki, "qan qohunluğu" məsələsi çox mürəkkəb məsələdir. Bunun əsasında qanla gələn bağlılıq, qohumluq durur. Təpəgözlə Basatın qan qohumu olmaları üçün Təpəgözün də Aruzun doğma oğlu olması lazım idi. Lakin Təpəgözün doğma atasının çoban olduğunu bilirik. Belə hesab edirik ki, R.Qafarlının qan qohumluğu məsələsi ilə razılaşmaq lazımdır. Aruzun Təpəgözü necə oğulluğa götürdüyü yada salaq. Dastanda deyilir ki, "Aruz aldı bu oğlanı, ətəginə sardı" [47, s. 99]. Burada "ətəyinə sarımaq" övladlığa götürmək adətidir. Azərbaycanda bir uşağı övladlığa götürəndə yeni ana onu öz köynəyinin içərisindən keçirir. Bu, uşağın yenidən doğulmasını simvollaşdırır. Bizcə, Aruzun da Təpəgözü "ətəyinə sarması" uşağın bu dəfə Aruzun belindən gəlməsini simvollaşdırır.

S.Qarayev Təpəgözlə Basatın süd qardaşlığının altında başqa bir eyniliyin, yəni onların hər ikisinin heyvan mənşəli obraz olduğunu nəzərə çarpdıraraq yazır ki, "*burada ən maraqlı informasiyalardan biri də "quduz aslana döndü Dəpəgöz" ifadəsidir. Qayıdaq daha əvvələ. Oğuz elinin gözündə bir zamanlar Basat da aslan kimi görünmüş və ona da "sazdan çıxan aslan" təyinatı verilmişdir. Yəni hər iki obraz* (Basat və Təpəgöz – R.Vəliyeva) *xtonik mənşəyə malikdir və bununla əlaqədar olaraq hər ikisinin aslan cildində təsviri vardır. Ümumiyyətlə, hər ikisi "zoo" və "persona" layını öz içində əritmişlər. Onların mif səviyyəsindəki mənşə yaxınlığı epik mətnə transformasiya olunduğu zaman onların qardaş kimi ortaya çıxmalarına səbəb olmuşdur"* [52, s. 166].

Göründüyü kimi, S.Qarayev Təpəgözlə Basat arasında olan yaxınlığın "əmdi qardaşlar", yəni süd qardaşları olmaqdan daha dərin bir bağlılıq olduğunu göstərir. Süd qardaşı olmaq, onların eyni anadan süd əmmələri bu iki qardaş arasındakı bağlılığın, əlaqənin görünən, yəni üzdə olan tərəfidir. Daha dərində başqa əlaqələr var. S.Qarayev bu əlaqələri "xtonik mənşəli" əlaqələr hesab edir.

Xtonik əlaqələr xaos dünyası, yer altı dünya, qeyri-insani dünya, heyvanlar dünyası ilə olan əlaqələrdir. S.Qarayev, göründüyü kimi, Təpəgözün də Basat kimi "aslansayağı" hərəkət etdiyini göstərir. Yəni Basat onu böyüdən aslana bənzədiyi kimi, Təpəgöz də aslana bənzəyir. Aslan Basatın totem atasıdır. Demək, Aruz

Təpəgözü oğulluğa götürəndən sonra Basatın doğma anası Təpəgözün də anası hesab olunduğu kimi, Basatın heyvan atası olan Aslan da Təpəgözün heyvan atası hesab olunur. Yəni Aruzun Təpəgözü oğulluğa götürməsi ilə Basata aid olan bütün əlaqələr eyni zamanda Təpəgözə aid olur.

S.Qarayevə görə, aslanın tərbiyə etdiyi Basat da Təpəgöz kimi qaniçəndir: *"Boyun ilk təsvirindən aydın olur ki, yağı gəlmiş, bu zaman Oğuz igidlərindən Aruz qoca övladını itirmişdir. Bunu bir aslan tapıb bəsləmişdir. Bir gün həmin uşaq ilxıya soxulur. Bunu görən ilxıçı gedib onu Oğuz cəmiyyətinə xəbər verir.* "Xanım, sazdan bir aslan çıqar, at urar, apul-upul yürüyüşi adam kibi. At basuban, qan sümürər" [47, s. 98]. *Əslində, onun barəsində verilən bu kiçik informasiya onun mifoloji laydan gələn mahiyyətini ifadə edir. İnformasiyadan aşağıdakı məlumatlar aydın olur:*

*1) Görünüşü, əlamət təyinatı: aslandır.*

*2) Davranışı: qanla qidalanır"* [52, s. 166 ].

Düzdür, eposda Təpəgözün daha çox adamyeyən olması qabardılmışdır. Ancaq o, təkcə adam yemir. Dastandan bəlli olduğu kimi, oğuzların çöldə otlayan heyvanlarını, o cümlədən at ilxılarını da yeyir. Beləliklə, "aslan kimi at basıb qan sümürmək" Basatı və Təpəgözü birləşdirən xtonik əlamətlərdir. Onlar hər ikisi "aslansayağı" hərəkət edirlər. Lakin Basat Dədə Qorqud tərəfindən insan cəmiyyətinə uyğunlaşdırıldığı halda, Təpəgöz uyğunlaşmır. Bunun səbəbi onun genetikası ilə bağlıdır. Basat halal münasibətlərdən dünyaya gəldiyi halda, Təpəgöz zinadan doğulmuşdur. Eposun məntiqinə görə, o, bir cəza olaraq yer üzünə gəlmişdir və öz missiyasını axıradək yerinə yetirməlidir.

M.Seyidova görə Basatın "qaniçənliyi" ("At basub, qan sümürməsi") onun adında da qorunub qalmışdır. O belə hesab etmişdir ki, "*Basat adının mənası "at basan", "ata qalib gələn" deməkdir*" [75, s. 87].

Deyildiyi kimi, "Beovulf" dastanında Qrendelin ailəsi onun özü və anasından ibarətdir. A.Xudiyeva Qrendelin anası haqqında yazır ki, bu obrazın *"mifoloji semantikasına toxunsaq, ilk əvvəl qeyd etməliyik ki, germanlarda daha arxaik Ulu Ana ilahəsinin olması haqqında hələ Roma tarixçisi Publi Korneli Tatsit məlumat*

*vermişdir. Maraqlıdır ki, bu ilahəyə günahkarların qurban verilməsi bataqlıqlarda həyata keçirilirdi"* [39, s. 39].

Müəllif daha sonra hind-Avropa mifik təsəvvürləri əsasında ilkin ana obrazı, onun Qrendelin anası ilə semantik əlaqəsi haqqında məlumat verərək çox maraqlı bir məsələyə toxunur: *"Qrendelin anasının dərinlik və ya qaranlıq mağara ilə bağlılığına münasibət bildirərkən onu da qeyd etməliyik ki, Avropa xalqlarının mifologiyasında mağaranın dar mənada ana bətni, geniş anlamda kosmosu işarələyən arxetipik təzahürləri izlənilə bilər"* [39, s. 40].

Qeyd edək ki, A.Xudiyevanın mövcud tədqiqatlar əsasında Qrendelin anası obrazını Ulu Ana, yaxud başqa adı ilə İlkin Ana kompleksi ilə əlaqələndirməsini doğru hesab edirik. Ulu Ana (İlkin Ana) qəhrəmanların inisiasiyası ilə bağlı mühüm obrazdır. Qəhrəmanlıq göstərmək yaşına çatan fərd xaos dünyasına yollanır və orada Ulu Ana tərəfindən yeyilərək yenidən doğulur. Bu baxımdan, mağara analatik-psixoloji tədqiqatlarda ana bətni ilə eyniləşdirilir. Lakin biz A.Xudiyevanın mağaranın "geniş anlamda kosmosu işarələyən arxetipik təzahür" olması haqqındakı qənaətini qəbul etmirik. Mağaranın bütün dünya miflərində kosmosla xaos arasında yerləşmiş olub, ya xaosun özünü, ya da ona keçidi bildirən məkandır.

Göründüyü kimi, Təpəgözlə Basatın qardaşlığının dərin kökləri var. Ümumiyyətlə isə, "Dədə Qorqud"da Təpəgözün öz anası ilə münasibətlərinin epizodik təsvirinə nisbətdə "Beovulf"dakı Qrendelin ailə münasibətlərinin geniş təsvir olunması bu obrazlar arasında paralellər qurmağa mane olmur. Onları birləşdirən əsas əlamətlərdən biri hər ikisinin şər-xaos dünyasının atributlarına malik olmalarıdır. Bu, ilk növbədə tək göz və tək qol ünsürləridir.

## 2.4. Personajların asimmetrik görkəmi: tək göz və tək qol

Mövcud tədqiqatlarda birmənalı şəkildə həm Təpəgöz, həm də Qrendel şəri, xaosu, pisliyi, bəlanı və s. təmsil edən obrazlar kimi təqdim edilir. Bu xüsusiyyət

onların xarakterindən, eləcə də sözün müstəqil mənasında, görkəmlərində də əks olunmuşdur. Onlar öz bədheybət  vücudları ilə çevrələrindəkilərə zərər vura biləcək (əslində elə belədirlər ) amansız varlıq təsiri bağışlayırlar. Təpəgöz bədəncə insana bənzəsə də, alnında bir gözü var. Onu normal insandan anormal insana çevirən əsas amillərdən biri də tək göz olmasıdır: "Bu yığanaq yarıldı, içindən bir oğlan çıqdı. Gövdəsi adam, dəpəsində bir gözi var" [47, s. 99].

Göründüyü kimi, yığnaq içindən çıxan oğlanın adı da təpəsində "yazılıb". O insan övladı olsa da adi insan deyil. Yəni, Təpəgöz bədən quruluşu etibarilə tamamilə insandır və onu insanlardan fərqləndirən əsas əlamət bir gözünün olmasıdır. Bu göz xüsusi mənaya malik obrazdır. Çünki o, insanlarda olduğu kimi, nə sifətin sağında, nə də solunda yerləşir: Təpəgözün gözü alnının ortasındadır. Deməli, o, xüsusi yaradılışdır.

Təpəgözün bədən quruluşu xüsusi mənaya malikdir. Onu bədən quruluşu baxımından insanlardan (oğuzlardan) yalnız bir gözünün olması fərqləndirmir. O, həm də nəhəng bir varlıqdır. Bu, semantik baxımdan onun antiqəhrəman funksiyası ilə bağlıdır. Təpəgöz Oğuz elinə bəla kimi doğulur. O, təkbaşına Oğuz eli ilə vuruşur. Bu cəhətdən epos onu elə yaratmışdır ki, Təpəgözün Oğuz elinə qarşı durması onun bədən quruluşunda ifadə olunsun. Gördüyümüz kimi, bir çox məşhur Oğuz igidləri onun əlində həlak olurlar. Əgər Təpəgöz də bədən quruluşu baxımından Oğuzdakı qəhrəmanlar böyüklüyündə olsa idi, bu halda Oğuz igidlərinin şücaətləri kölgədə qalardı. Oğuz igidləri onun əlində ona görə həlak olurlar ki, Təpəgöz qeyri-adi dərəcədə nəhəng bir varlıqdır və epos onu məğlub etmək üçün qeyri-adi qəhrəman olan, yəni aslanın böyütdüyü bir qəhrəman olan Basatı ona qarşı qoyur.

Məlumdur ki, Təpəgözün atası insan, anası göydən yerə enən pəri qızıdır. Ancaq burada bir incə məqam var. Azərbaycan folklorunda insanlar bəzən insan donlu qurdlarla, ilanlarla ailə qururlar. Düzdür, burada uşaqların olmasından söhbət getmir, ancaq ailə bütün hallarda halal, düzgün, normal əsaslar üzərində qurulduğu üçün orada xoş münasibətlərin (ailə harmoniyasının) olması nəzərə çarpdırılır. Məsələn, Naxçıvan bölgəsindən əldə edilmiş "Qurd arvad" adlı mətndə

deyilir ki, “Bir kişi dostugilə gəlir. Çörəh yeyillər, içillər, axşam olur. Kişi durur getsin, dostu deyir ki, əkişi, getmə, gecədi, bir şey olar. Kişi deyir ki, yox gedəcəm, at altımda, tüfəng belimdə, nədən qorxacam?

Dostunun arvadı bını eşidir. Demiyəsən, bı arvad bizdən yeylərdən imiş. Arvad durup çıxır eşiyə, donun dəyişip qurt donuna düşür. Durur kişinin yolu üstünə. Bınnar tutaşır. Kişi görür ki, yox, bacarmayacax, birtəhər pıçaxnan bı adamcılın döşünnən yaralayır. Adamcıl aradan çıxır. Kişi də ta gedəmmiyip qeyidir dostugilə, başına gələni danışır.

Bu dəmdə arvad gəlir. Kişi baxır ki, arvadın döşü yaralanıp. Məsələni annıyır. Qeyidip dostuna deyir ki, bə o adamcıl sənin arvadındı. Mən onu yaralamışam.

Dostu heş zad demir. Durup ev-eşiyi axtarır. Kərmə qalağında arvadın donunu tapır, yandırır. Arvad qışqırır, özünnən gedir. Əncax ta əli hara yetəcək. Donu yanannan sora adam adamçıllıxdan çıxır, adam olur [62, s. 25-26].

Burada çox maraqlı bir məsələ diqqəti cəlb edir. Kişinin arvadı insan yox, “bizdən yey”dir. Yəni insan deyildir, fərqli mənşəyə malikdir. Mətndəki arvadın qurd donu var. O, həmin donu geyməklə qurda çevrilə bilir. Buradan aydın olur ki, arvad ikili həyat sürür: gah insan (qadın), ha da qurd olur. Burada əsas olan qurd donudur. Qadının qurda və əksinə dönməsi, çevrilməsi qurd donu vasitəsilə baş verir. Arvadın əri onun qurd donunu yandırmaqla arvadın qurda çevrilməsinin qarşısını birdəfəlik almış olur.

Göründüyü kimi, burada insan (kişi) insan olmayan bir varlıqla (qadınla) evlidir. Bu insan olmayan varlıq mətndə “bizdən yey” adlandırılır. Bəs bu varlıq nədir?

Yenə də Naxçıvandan əldə edilmiş mətndən məlum olur ki, bizdən yey cindir: “Cinnərə bizdən yeylər diyərix. Bizdən yeylər hər yerdə var, ancax insannara görsənməz. Təhcə mal-davar onnarı görür. Ona görə qoyun-keçi olan yerdə bizdən yeylər olmaz, yoxsa, ayax altında qalıp qırılallar” [11, s. 46].

Bu iki mətni izah edən E.İmaməliyev yazır: “*Göründüyü kimi, cin – bizdən yey ev sahibinin arvadıdır. Bu, insanla mistik varlıqlar arasında olan qohumluğu göstərir. Həmin qohumluq yaradılış konsepsiyası ilə bağlıdır. Çünki evlənmək –*

*nikah, nikah isə uşaqların – yeni həyatın yaradılışı deməkdir. Bu yaradılış konsepsiyasında qurd obrazı xüsusi hadisədir. Bizdən yeyin hamıdan gizlədiyi donu var... Arvadın qurd geyimi ilə qurda dönməsi mifologiyada çevrilmə adlanır*" [40, s. 70].

Müəllifin evlənmək məsələsinə diqqət verməsi təsadüfi deyildir. Aydın olur ki, insanla cinin evlənməsi onların eyni yaradılış xəttində birləşə bilməsinə işarə edir. Yəni insanın cinlə evliliyindən bəzən uşaqlar dünyaya gəlir. Mifik mətnin bizə təlqin etmək istədiyi ideya həm də ondan ibarətdir ki, insanın mənşəyi göründüyündən daha mürəkkəbdir. O, bir varlıq kimi insan olmayan varlıqlarla da əlaqələrə malikdir. Bizcə, bu ideyanın kökü totemizmə qədər gedib çıxır. Totemizmdə insanlarla heyvanların, bitkilərin qohumluğu əsas götürülür. Burada da insanın cinlə evlənməsi, bir növ, totemizm olmasa da, ona bənzər bir düşüncədən xəbər verir.

E.İmaməliyev öz düşüncələrini əsaslandırmaq üçün S.Y.Neklyudovun bu fikrinə istinad edir: "*Mifologiyada "çevrilmə" personajın öz görkəmini magik şəkildə dəyişməsidir. Bu, əksər hallarda ilkin (əsil) görkəmə qayıtmanı nəzərdə tutan müvəqqəti çevrilmədir. Çevrilmə motivi, görünür, ovçuluq maskalanması təcrübəsinə və bir sıra totemistik və animistik görüşlərə əsaslanır*" [113, s. 234-235].

Neklyudovun bəhs etdiyi çevrilmə Azərbaycan folklorunda geniş yayılmışdır. Quşların, bitkilərin və s. yaradılmasından bəhs edən əfsanələrin hamısında çevrilmə var. Bu da onu göstərir ki, mifologiyada çevrilmə yaradılışın üsuludur. Yeni yaradılış çevrilmə yolu ilə baş verir. Buna folklor mətnlərindən yüzlərlə misallar gətirmək olar. Digər tərəfdən, nağıllarda dərviş çevrilmələri ilə rastlaşırıq. Onlar magik üsullarla müxtəlif şəkillərə düşə bilirlər.

Yuxarıdakı mətn göstərir ki, kişi ilə onun "cin və qurd mənşəli" arvadı arasında yeganə maneə arvadın qurd cildidir. Bu maneə aradan qaldırıldıqdan sonra ailə özünün xoş həyatına davam edir. Lakin bu sözü Təpəgözün ailəsi haqqında demək olmaz. Çünki burada oğuzlar üçün minilliklər boyu müqəddəs dəyər sayılmış ailənin qurulmasından söhbət gedə bilməz. Təpəgöz xoş niyyətlə

qurulmuş ailənin övladı yox, çobanın çirkin niyyətinin, müqəddəs tabunu pozmasının nəticəsi olaraq şər varlıq kimi yaranmışdır. Ona görə də eybəcərdir. Onun eybəcərliyi məhz gözü ilə bağlıdır [89, s. 335-343].

Göz insanın ən mühüm həyati orqanlarından biridir. O, normal halda heç vaxt eybəcərliyin ifadəsi ola bilməz. Lakin Təpəgözün gözü normal göz yox, insanları vahiməyə salan dəhşətli gözdür. Bu gözün dəhşəti onun təkliyindədir. Bir gözü kor, yaxud qüsurlu insanlar cəmiyyətdə heç vaxt anormal qəbul olunmurlar. Çünki onlar bütün insanlar kimi iki gözlüdürlər. Ola bilər ki, bu gözlərin birində, yaxud ikisində hər hansı qüsur olsun. Bu, heç bir dəhşət və vahimə yaratmır. Təpəgözün dəhşəti ondan ibarədir o, bütün ikigözlü varlıqların əksinə olaraq, anadan birgözlü doğulur.

Təpəgözü təkgözlüyü xüsusi quruluşa malik olub, onun mənsub olduğu dünyanın quruluşunu ifadə edir. Bütün insanlar anadan cütgözlü doğulurlar. Lakin elə olur ki, insanın bir gözü kor da ola bilir və bu, cəmiyyət arasında rast gəlinən haldır. Bu halda insanın bir gözü görür, o birisi isə görmür. İnsan bununla faktiki olaraq təkgöz durumuna düşür. Lakin başqa adamlar bir gözü görməyən insanı heç vaxt təpəgöz adlandırmırlar. Əgər həmin insan yaxşı insandırsa, onun bir gözünün görməməsi cəmiyyət üçün heç bir məna kəsb etmir, lakin pis insandırsa, adamlar öz aralarında ona, uzaqbaşı, “taygöz” deyirlər. Dastanda zinadan doğulan uşaq isə Təpəgöz adlandırılır. Bu, onunla bağlıdır ki, bu uşağın malik olduğu yeganə göz onun alnında idi. Buradan görünür ki, Təpəgöz öz sifət quruluşu və tək gözü ilə insanlardan fərqli bir quruluşa malikdir. İnsanların gözləri bütün hallarda sifətin sağında və solunda yerləşir. Təpəgözdə isə tək göz alının ortasındadır. Bu, o deməkdir ki, o, başqa bir dünyanın adamıdır. Həmin dünya xaos dünyasıdır.

Beləliklə, Təpəgözün varlığının bütün dəhşəti və vəhşəti onun gözündədir. Çünki bütün dünyanın qədim xalqlarının düşüncəsində (mifologiyasında) qoşalığa (ikiliyə, cütlüyə) əks olan təklik şərin – xaosun əlaməti sayılmışdır.

F.Bayat yazır ki, “*anormallığa adekvat anlamında təklik bir sıra obrazlarda: tək ayaq, tək qol, tək buynuz, tək göz və s. formalarda variasiya olunur. Tək normal olana (*cüt olana – R.Vəliyeva) *əks anlamında demonluğun əsas atributudur. Belə*

*xtonik keyfiyyətli (*xaosla bağlı – R.Vəliyeva*) obrazlar eyni semantik bölgüdə dururlar. Bu baxımdan Dədə Qorqud oğuznamələrindəki Təpəgöz mifik Kıatın (təkbuynuzun) analoqudur*" [13, s. 25].

Təpəgözün də tək gözü tək ayaq, tək qol, tək buynuz, tək göz və s. kimi anormallığı ifadə edir. Bu da onu demonlar, iblislər, divlər dünyasına aid edir. Bu dünya insanlığa düşmən dünyadır. Təpəgözün də təkgözlü olması onu cütgözlülərin dünyası olan insan cəmiyyətinə qarşı qoyur. Başqa sözlə, Təpəgöz bütün varlığı və zahiri görkəmi etibarilə insanların dünyasına zidd varlıqdır. Onu insan cəmiyyətinə nə qədər uyğunlaşdırmaq istəsələr də, bu – alınmır. Çünki Təpəgöz həm zatı-kökü, həm zahiri görkəmi etibarilə başqa dünyanın, özü də insanlara düşmən olan dünyanın varlığıdır.

V.V.İvanov yazır ki, "*əksər mifoloji personajların xarakterik xüsusiyyəti təkgözlülükdür. Təkgözlülük korluq kimi xüsusi magik qüvvədən də xəbər verə bilər*" [104, s. 306].

İvanova görə, təkgözlülük həm də magik qüvvə funksiya ilə bağlıdır. Təpəgöz də belə bir magik xüsusiyyətə malikdir. Anasının onun barmağına taxdığı üzü, yaxud sehrli qılıncı həmin magik funksiyadan soraq verir.

Təpəgözün tək gözü onu "təklik" atributu olan başqa obrazlarla bir sıraya qoyur. Yenidən yada salırıq ki, oğuz folklorunda Təpəgöz tək deyil. "Oğuznamə"nin uyğur versiyasında onun kimi şər varlıq olan Kıat var. Oğuz onunla vuruşur:

Günlər, gecələr ötdü, o bir igid oldu.
O vaxtlar o yerdə bir ormanvardı.
Ordan çoxlu irili-xırdalı çaylar axırdı.
Orda vəhşi heyvanlar, uçan quşlar çox idi.
Ormanda nəhəng bir Kıat yaşayırdı,
atları, adamları yeyirdi.
Çox böyük bir yırtıcı idi.
O, elin yaxşı gününü aldı, adamları əzaba saldı.
Oğuz kağan cəsur alp idi.

O, bu Kıatı ovlamaq istədi.
Günlərin bir günü ova çıxdı.
Cida, yay-ox, qılınc-qalxan götürdü,
Yola düşdü. Bir maral tutdu.
Bu maralı söyüd çubuqları ilə bir ağaca bağladı, getdi.
[13, s. 24-125].

Təpəgözlə Kıat arasındakı əsas oxşarlıqlara diqqət edək:

a) Hər ikisi çöldə, vəhşi təbiətdə yaşayırlar;

b) Hər iksi həm adamları, həm də heyvanları yeyirlər;

c) Hər ikisi yırtıcı varlıqlardır;

ç) Hər ikisi insan cəmiyyətinə düşməndir.

Əsas odur ki, Təpəgözün tək gözü olduğu kimi, Kıatın da tək buynuzu var. F.Bayat bu haqda yazır ki, "*bu təkbuynuzlu heyvanın adı orijinalın başqa səhifələrində Tik, Ktakk, Ndkk, Kat və s. kimi də oxunur. Adın mənşəyi məlum deyil. Ancaq güman etmək olar ki, o, təkbuynuz, tək göz, tək qol, tək ayaq kimi mifik obrazlarla eyni semantik cərgədə durur"* [13, s. 142-143].

Göründüyü kimi, Kıatın bütün vəhşi təbiəti, yırtıcı keyfiyyətləri, antiinsani davranışları vizual (görüntülü) obraz olaraq onun tək buynuzunda ifadə olunduğu kimi, Təpəgözün də xaosdan gələn bütün xüsusiyyətləri onun tək gözündə ifadə olunmuşdur. Yəni tək buynuz və tək göz xüsusi işarədir: xaosa məxsus görüntülü əlamətlər olub kosmosa qarşı durmanı ifadə edir.

Təpəgözün tək gözü qorqudşünaslığın əsas suallarından biridir. K.Abdulla məsələni "Nə üçün Təpəgözün bir gözü var?" şəklində qoyaraq yazır: "*Bu suala ən birinci və ən sadə cavab, yəqin ki, belə səslənərdi: adı Təpəgöz olduğuna görə. Və bu cavab həm də, yəqin ki, ən bəsit cavab olardı. Aydındır ki, ad özü, əslində, mahiyyətin işarəsidir və bu mənada hər bir işarə kimi ikincidir, mahiyyətdən sonrakıdır. Bizi isə indi ilk növbədə məhz mahiyyət maraqlandıracaq"* [3, s. 122]. Bu mahiyyəti təhlil edən müəllif yazır ki, "*Təpəgözün yeganə zədə ala biləcək yeri varsa, o da gözüdür... Göründüyü kimi, Basat da öz taktiki planını bu vacib*

*məlumatın üzərində qurur... Mif Təpəgözü əvvəlcədən, bilərəkdən təkgözlü yaradır”* [3, s. 124].

Bizcə, burada K.Abdulla mifin poetik xüsusiyyətini qabartmışdır. Miflər həm də mif yaradıcılığının məhsulu kimi bütün hallarda bədii yaradıcılıq hadisəsidir. Hər bir bədii mətnin özünə məxsus yaradıcılıq poetikası olduğu kimi, mifin də mifə məxsus poetikası var. K.Abdulla buna işarə edir. Müəllifə görə, Təpəgözün tək gözü təkcə xaosu, yəni onun mənsub olduğu aləmin keyfiyyətini işarə etmir. Burada mifin özünə məxsus olan poetikası özünü göstərir: Təpəgözün iki gözü olsa idi, təbii ki, Basat bu yatmış divi öldürə bilməyəcəkdi. Bu halda mifin məntiqinə görə, Təpəgözə qalib gəlməli olan Basat onu öldürmək üçün başqa bir üsul fikirləşməli idi.

K.Abdulla başqa bir əsərində yazır ki, “*Yunan və Oğuz mifoloji sistemlərində təkgözlülük, bəlkə də, öz-özlüyündə dəhşətli bir şey deyil... Təkgözlərin qazandığı mənfi çalar, prinsip etibarilə qəbul edilməmələri ilk növbədə onların hanniballıqları ilə bağlıdır. Onlara ilk növbədə adam əti yeməklərini bağışlamırlar*” [5, s. 260].

Müəllifin bu fikrində bir-biri ilə məntiqi şəkildə bağlı iki məqam diqqəti cəlb edir:

a) Təkgözlülük təkgözlərə məxsus cəmiyyətlərdə, yəni onların öz cəmiyyətlərində normal haldır;

b) Təkgözlərin adam əti yeməsi onları insanlara düşmən statusuna gətirir.

Bu iki məqam təkgöz-insan qarşıdurma modelini ortaya qoyur. Buradan aydın olur ki, təkgözlülük hannibalhığınn işarəsi kimi eyni zamanda onların bütün mahiyyəti etibarilə insan cəmiyyətinin əksinə olan varlıqlar olduğunu ortaya qoyur.

Qeyd edək ki, mifologiyada göz günəşlə, astral miflərlə bağlıdır. V.V.İvanov yazır ki, “*günəşin gözlə, görmə ilə əlaqəsi bir çox solyar miflərdə* (yəni günəş haqqında olan miflərdə – R.Vəliyeva) *məşhurdur*” [104, s. 461]. Müəllif dünya xalqlarının miflərində gözlə bağlı geniş yayılmış motivin olduğunu göstərir: “*Gözün oğurlanması, yaxud tanrının onun rəqibi tərəfindən kor edilməsi və*

*tanrının yenidən doğulması üsulu kimi başa düşülən sonrakı sağalması yayılmış mifoloji motivdir"* [104, s. 306].

Müəllifin bu fikirləri mifik düşüncənin xüsusiyyətləri, başqa sözlə, mifoloji metaforizm deyilən bir məsələ ilə bağlıdır. Təpəgöz-Oğuz münasibətləri həm də metaforik olaraq gecə-gündüz münasibətlərini əks etdirir. Yəni bəzi tədqiqatçılara görə, Təpəgözlə Oğuz cəmiyyətinin arasındakı münasibətlərin əsasında gecə ilə gündüzün mübarizəsi durur.

Məsələn, S.Rzasoy Təpəgözün gözünü astral miflərlə əlaqələndirmişdir. O yazır ki, "*Oğuzun Gecənin//Qara xanın (Qara xan Oğuz xanın atasıdır – R.Vəliyeva) tək gözünü çıxararaq öldürməsi" invariant formulu "Basatın Təpəgözün gözünü çıxararaq öldürməsi" formulunda paradiqmalaşmışdır. Bu da öz növbəsində Basatı Oğuzun paradiqması hesab etməyə imkan verir"* [71, s. 125-126].

Müəllifin bu fikrindən göründüyü kimi, Basatla Təpəgözün mübarizəsi Oğuzla Qara xanın mübarizəsinin paradiqması, yəni məna baxımından təkrarıdır. İvanovun göz haqqında yuxarıdakı fikrinə əsaslansaq, bu iki mübarizənin özü də gündüzlə gecə arasındakı mübarizənin paradiqmasıdır.

Tədqiqatın bu məqamında qarşımıza bir məntiqi sual çıxır: Təpəgözün bir gözlü olmasını bir qolunu itirdikdən sonra təkqollu qalan Qrendellə müqayisə etmək olarmı? Təpəgöz anadangəlmə təkgözlə doğulub, lakin Qrendel anadan təkqollu doğulmayıb. O, iki qollu olmuş, sonradan bir qolunu itirmişdir. Belə olan vəziyyətdə hesab etmək olar ki, onun "təklik" simvolu ilə heç bir əlaqəsi yoxdur. Ancaq bu, zahirən belədir. Qrendelin Beovulf tərəfindən bir qolunun qopardılmasına epik məntiqlə nəzər saldıqda onun da Təpəgöz kimi xaosun əlaməti sayılan "təklik" atributu ilə bağlı olduğunu görmək olar.

Öz dəstəsi ilə Danimarka kralı Hrotqara köməyə gəlmiş Beovulf məşhur Herot sarayında qaldıqları ilk gecə Qrendel onlara hücum edir. Yada salaq ki, hələ Beovulfun gəlişindən çox illər qabaq Qrendel artıq Herot sarayını ələ keçirmişdi. Onunla vuruşan Danimarka igidləri qanlı itkilər verdikdən sonra qorxub mübarizəni dayandırmışdılar. Qrendelin ilk hücumundan Beovulfun gəlişinə qədər

on iki il keçdiyini nəzərə alsaq, onda belə hesab etmək olar ki, Qrendel artıq on iki il idi ki Herotda gecələyirdi. Bu o deməkdir ki, Herot artıq Qrendelin evi (yuvası) idi. Bu məqamda Təpəgözü öz mağarasında öldürən Basatla Beovulfun arasında daha bir mühüm tipoloji paralel qurulur: qəhrəmanların hər ikisi divlərə onların öz evində hücum edir. Burada "öz evi" bizə nisbi anlayış kimi gələ bilər. Nə Təpəgöz öz mağarasını, nə də Qrendel Herot sarayını tikməmişdilər. Onlar insana bənzəsələr də, təbiətləri etibarilə vəhşi idilər. Aruzun evindən qovulan Təpəgöz indi yaşadığı mağaranı hansısa başqa heyvanların əlindən aldığı, zəbt etdiyi kimi, Qrendel də artıq on iki il idi ki, Herotu kral Hrotqarın əlindən alaraq zəbt etmişdi.

Qrendel Herot sarayına həmişə gecələr gəlirdi. Gecə bütün şər, xaos, antiinsani qüvvələrin zamanı olduğu kimi, Qrendel də bir şər varlıq kimi Herota gecənin düşməsi ilə gəlir. Beovulfu gündüz Herot sarayında qarşılayan və onun şərəfinə təmtəraqlı ziyafət verən Hrotqar gecənin düşməsi ilə sarayı tərk edir. Çünki bilir ki, Qrendel gecəni sarayda keçirir:

The gladness of warriors continued
until the son of Healfdene
wished to go to his evening rest.
Hrothgar knew the wretch
planned to attack the hall
after the sun had set,
night over the hall,
when the shadows came
striding dark under the clouds [157, 44]
Döyüşçülərin şadlığı Healfdene oğlu
Yatmağa gedənə qədər davam etdi.
Hrotqar günəş batdıqdan,
Sarayın üstünə qaranlıq çökdükdən sonra,
Buludların altında qaranlıqda addımlayan
Kölgələr gəldiyi zaman
O əclafın (Qrendelin – *R.Vəliyeva*)

Saraya hücum edəcəyini bilirdi.

Bir azdan Beovulfla Qrendelin arasında ilk döyüş olağacağını bilən Hrotqar gedərkən Beovulfa deyir:

Never, since I have been able
to lift shield, have I entrusted
this hall, this mighty house
of the Danes, to any man.
But now I entrust it to you.
Have and hold this best of houses.
Keep fame in mind, watch
against the foe, and make
your valor known! You shall
lack nothing if you
survive this deed [157, 44-45].

Qalxan götürə bildiyim zamanlardan
Bu sarayı – Danimarkalıların bu qüdrətli evini
Heç kəsə əmanət etmədim.
Lakin indi sənə əmanət edirəm.
Evlərin ən yaxşısını al və qoru.
Şöhrəti unutma, düşmənə diqqət et
Və cəsarətini ona göstər.
Bu işin öhdəsindən gəlsən,
Heç nəyin korluğunu çəkməyəcəksən.

Döyüşçülər yatmazdan qabaq Beovulf onlara Qrendellə bir azdan aralarında baş tutacaq döyüş barəsində planını bildirir. Maraqlıdır ki, bu planda əsas yeri qol motivi tutur. Beovulf Qrendellə silahla deyil, qol gücünə (əlbəyaxa) vuruşacağını bildirir:

I don't claim myself
any lower in strength or brave deeds
than Grendel. Therefore, I will

not kill him with a sword,
though I easily might.
Though he is famous for strength,
he knows no weapons to cut a shield.
If he chooses to forego a sword,
if he dares seek me without weapon,
then we two shall fight without,
and wise God, that king, shall
choose who shall win glory [157, s.45].
Demirəm ki, gücdə və igidlikdə Qrendeldən zəifəm.
Buna görə də mənim üçün nə qədər asan olsa da,
Onu qılıncla öldürməyəcəyəm.
Gücü çox olsa da, heç bir silahın
Bir qalxanı kəsməyəcəyini bilir.
Qılıncdan vaz keçməyi seçərsə
Və silahsız vuruşmağa cəsarət edərsə,
O zaman ikimiz də silahsız döyüşəcəyik.
Və müdrik Tanrı, o hökm verən
Kimin şərəf qazanacağını özü müəyyənləşdirəcək.

Göründüyü kimi, Beovulf Qrendellə əlbəyaxa döyüşmək istəyir. Əlbəyaxa döyüş qol gücünə, silahsız döyüş deməkdir. Yəni qılınc döyüşü qol döyüşü ilə əvəz olunur. Bu da Beovulfla Qrendelin savaşının "qol" simvoluna əsaslandığını, epik məntiqin "qol" simvolu üzərində qurulduğunu göstərir. Bu simvolun nəyə xidmət etdiyini bilmək üçün Qrendelin ölüm səbəbini yada salmaq lazımdır. Qrendel ona görə ölür ki, Beovulf onun qolunu qoparır. Beləliklə, Təpəgözün ən zəif nöqtəsi onun gözü olduğu kimi, Qrendelin də ən zəif nöqtəsi onun qoludur. Birinin ölümünə gözünün çıxarılması, o birinin ölümünə qolunun qoparılması səbəb olur. Bu halda Təpəgözün gözü və Beovulfun qolu ölüm nöqtələridir. Basat Təpəgözün ən zəif yerinin, ölüm vasitəsinin Təpəgözün gözündə olduğunu öyrəndiyi kimi, Beovulf da qabaqcadan bilir ki, Qrendelin ən zəif yeri, ölüm nöqtəsi onun

qolundadır. Ona görə də qılınc döyüşünü deyil, qol döyüşünü seçir.

Beovulfin Qrendellə qol döyüşünü seçməsi döyüş taktikasıdır. O, öz taktikasını qabaqcadan müəyyənləşdirir. Lakin hər hansı düşmənlə necə döyüşməyi, hansı taktika seçməyi bilmək üçün onu qabaqcadan tanımaq lazımdır. Demək, Qrendellə qol gücünə (əlbəyaxa) döyüşmək istəyən Beovulf onu qabaqcadan tanıyır: o öz düşməninə bələddir. Bəs Qrendellə ilk dəfə qarşılaşan Beovulf onu haradan tanıyır?

Bu məqamda Beovulfun qeyri-adi qəhrəman olması üzə çıxır. Onun qeyri-adiliyi təkcə qolunun gücündə deyil, həm də ağlında, fövqəladə biliklərindədir. Beovulf ən güclü qəhrəman kimi öz mifik kökləri etibarilə ilk əcdad, ilk qəhrəman kompleksinə aiddir. Miflərdə ilk əcdad-qəhrəmanlar ən güclü insanlar olduğu kimi, həm də ən ağıllı, ən bilikli insanlar olurlar. Onları ilk əcdad, ilk qəhrəman kimi başqalarından həm də ağılları, magik bilikləri fərqləndirir. Bu cəhətdən ehtimal etmək olar ki, Beovulf da hamıdan fərqli insan və qəhrəman kimi Qrendelin zəif nöqtəsinin (bəlkə də, canının ) onun qolunda olduğunu qabaqcadan bilir.

Beovulfun Qrendelin qolunu qoparmasının incə bir epik məntiqi var və bu məntiq "təklik" simvolunu aşkarlamağa imkan verir. Beovulf Qrendelin qolunu qoparandan sonra o, bütün hallarda "təkqol" varlığa çevrilir. Bununla onun şər varlıq kimi mahiyyətini ifadə edən "təklik" simvolu aşkara çıxır. Burada iki hal var:

I. Qolu qoparılmış Qrendel artıq təkqol varlıqdır;

II. Qoparılmış qolun özü də artıq tək bir qoldan ibarət varlıqdır: təkqol.

Yəni istər tək bir qolla qalmış Qrendel, istərsə də qoparılmış tək bir qoldan ibarət olan qol – hər ikisi mahiyyətcə təkqoldur. Həm də bunların hər ikisi Qrendeldir (Qrendelin varlığını bildirir): təkqollu Qrendel də, onun qoparılmış qolu da. Buradan çıxan nəticə ondan ibarətdir ki, Qrendel bütün hallarda təkqoldur: təkqol olmaq onun varlığının mahiyyətidir.

Bizim gəldiyimiz qənaətə görə, Qrendelin qoparılmış qolu sadəcə onun bədənindən qoparılmış bir üzv yox, Təpəgözün gözü kimi xüsusi, ayrıca bir varlıqdır. Bunu hər iki dastanda gözə və tək qola olan xüsusi münasibət təsdiq edir.

“Kitabi-Dədə Qorqud” da Basat əvvəlcə Təpəgözün gözünü çıxarır, sonra da onun öz qılıncı ilə başını kəsir. Maraqlıdır ki, oğuzlar qələbəni Təpəgözün kəsilmiş başı ətrafında qeyd edirlər: “*Qalın Oğuz bəgləri yetdilər. Salaxana qayasına gəldilər. Dəpəgöziñ başını ortaya gətürdilər. Dədəm Qorqud gəlübən şadlıq çaldı*” [47, s. 103].

Oğuzlar şadlıq mərasimini Təpəgözün bütöv bədəni üzərində deyil, onun başı üzərində keçirirlər. Danimarkalılar da qələbə mərasimini Qrendelin qoparılmış tək qolu üzərində qeyd edirlər. Təpəgözün başını xüsusi işarəyə çevirən onda yerləşən tək gözdür. Həmin gözün çıxarılması, kor edilməsi və üzərində yerləşdiyi başın kəsilməsi ölümü bildirir. Eləcə də Qrendelin qoparılmış qolu onun ölümünü bildirir. Demək, Təpəgözün ölümü (canı) onun tək gözündə olduğu kimi, Qrendelin də ölümü  (canı) tək qolundadır. Beləliklə, tək göz və tək qol Təpəgöz və Qrendel obrazlarını tipoloji baxımdan yaxınlaşdıran, birləşdirən və ortaqlaşdıran ən mühüm mifik simvoldur (*Bu paraqrafda əldə olunmuş elmi nəticələrin nəşr olunduğu qaynaq üçün bax.: 89*).

### 2.5. Qılınckəsməz Təpəgöz, Qrendel və onun anası

Təpəgöz və Qrendel obrazlarını birləşdirən ən mühüm tipoloji nöqtələrdən biri də onların bədənlərinin qılınckəsməz olmalarıdır. Bu keyfiyyət şər-xaosu təmsil edən bu obrazların xüsusi işarəsidir və hər iki dastanda aparıcı epik cizgi kimi xüsusi nəzərə çarpdırılır. Maraqlıdır ki, hər iki dastandakı şər varlıqların qılınckəsməzliyi onların anası ilə bağlıdır.

Aruz Təpəgözü evdən qovur: “Dəpəgöziñ pəri anası gəlüb oğlınıñ parmağına bir yüzük keçürdi. “Oğul, saña ox batmasun, tənüñi qılıc kəsməsün!” – dedi” [47, s. 99].

Bu, pəri qızının boyda üçüncü və axırıncı iştirakıdır. Birinci dəfə ona təcavüz olunur, ikinci dəfə doğduğu yığnağı gətirir, üçüncü dəfə oğlunu tilsimləyir. Belə çıxır ki, Qrendeilin anası (ana div) oğlunu himayə etdiyi, qoruduğu, qayğısına qaldığı kimi, pəri qızı da övladını qoruyur.

Pəri qızının Təpəgözü oxbatmaz, qılınckəsməz etməsi magik ayin, tilsimləmədir. Bu ayin proses kimi iki aktdan ibarətdir:

I. Təpəgözün barmağına tilsimli üzüyün keçirilməsi;

II. Təpəgözün dualanması.

Üzük və dua bir-biri ilə bağlıdır. Üzüyün gücü duada olduğu kimi, duanın da təsiri üzük vasitəsilə gerçəkləşir. Bununla Təpəgözün bədənini qılınc kəsmir və ona ox batmır. Beləliklə, Təpəgöz adi qılıncla və adi oxla öldürülməsi mümkün olmayan bir varlığa çevrilir. Beləliklə, onu qeyri-adi qılınc və qeyri-adi oxla öldürmək olar.

Təpəgözün bu keyfiyyətini Qrendellə müqayisə etdikdə görürük ki, Qrendeli (və anasını) adi qılınc kəsmir. Bu hər iki obrazı birləşdirən tipoloji həlqədir. Lakin Qrendeldən fərqli olaraq, Təpəgözə həm də ox batmır. Demək, Təpəgözün ikiqat magik müdafiə sistemi var. Bu halda onu öldürəcək potensial qəhrəman (Basat) bu ikiqat müdafiə sistemini yarmalı, yəni Təpəgözü həm qeyri-adi oxla, həm də qeyri-adi qılıncla öldürməlidir. Süjeti diqqətlə izləsək görərik ki, Təpəgöz elə qeyri-adi (sehrli) qılıncla öldürüldüyü kimi, həm də qeyri-adi oxla da öldürülür. Bu baxımdan hələ heç bir tədqiqatçı Basatın Təpəgözün gözünü süngü ilə çıxarmasının semantik cəhətdən oxla öldürməyə bərabər olmasına diqqət verməmişdir.

Süjetin tədqiqi göstərir ki, pəri qızı Təpəgöz üçün ikiqat magik müdafiə sistemi (ox və qılınc) qurduğu kimi, Basat da bu ikiqat tilsimi iki dəfəyə qırmalı olur: əvvəlcə mənası oxa bərabər olan süngü ilə gözünü çıxarır, daha sonra tilsimli qılıncla başını kəsir.

Ancaq burada bir məsələ də mühümdür. Bu da tilsimin sındırılmasıdır. Təpəgöz tilsimlənib: onu öldürmək, yəni tilsimi dağıtmaq üçün ilk növbədə həmin tilsimin sirrini bilmək lazımdır. Basat bu sirri mağarada Təpəgöz üçün yemək hazırlayan qocalardan öyrənir: "Aydır: "Mərə qocalar, munıñ ölümi nədəndir?" Ayıtdılar: "Bilməziz. Amma gözündən ğeyri yerdə ət yoqdur", – dedilər. Basat Dəpəgözüñ başı ucına gəldi. Qapaq qaldırdı. Baqdı gördi kim, gözi ətdir. Aydır: "Mərə qocalar, sügüligi ocağa qouñ, qızsun!" – dedi. Sügüligi ocağa bıraqdılar,

qızdı. Basat əlinə aldı. Adı görklü Məhəmmədə salavat gətürdi. Sügüligi Dəpəgözüñ gözinə eylə basdı kim, Dəpəgözüñ gözi həlak oldı” [47, s. 101].

Göründüyü kimi, Basat əvvəlcə Təpəgözün sirrini öyrənir. Məlum olur ki, onun bədəninin ölümə açıq nöqtəsi gözdür. Basatın bu sirri qocalardan öyrənməsi təsadüfi deyil. Folklorda bütün magik sirlərin bilicisi müdrik qocalardır. Bu cəhətdən belə hesab etmək olar ki, həmin iki qoca həm də müdrik qoca arxetipi ilə bağlıdırlar.

Basatın Təpəgözün gözünü çıxarması divin öldürülməsinin birinci mərhələsidir. Mətndə açıq-açığına deyilir ki, “Dəpəgözüñ gözi həlak oldı”. Yəni ölən Təpəgözün özü yox, gözüdür. Burada gözün süngü ilə çıxarılması elə oxla çıxarılması deməkdir. Bunu başqa “Oğuznamə” mətnləri də təsdiq edir. Bəzi oğuznamələrdə Oğuz xan Təpəgöz kimi şəri, qaranlığı, gecəni təmsil edən atası Qara xanın gözünü məhz oxla çıxarır.

XIII-XIV əsrlərə aid edilən “Mənzum Oğuznamə”də Oğuz xan öz atası Qara xanın gözünü oxla çıxardaraq öldürür:

> Oquzqa y(a)ratqan yarı birdi kör,
> atası közini kim oq qıldı kör.
> Bir oq zahm(ı) birlə Q(a)ra xan közi
> cəhənnəmqa bardı qalıb bu sözi [58, s. 22].

XVII əsr aid Əbülqazi “Oğuznamə”sində (“Şəcəreyi-tərakimə”də) də Qara xanın gözü oxla çıxardılır: “*Döyüş vaxtı Qara xanın başına ox batdı, kim onu atmışdı, bilinmir. Qara xan həmin yaradan öldü*” [22, s. 55].

Göründüyü kimi, oğuznamələrdə gözün çıxarılmasında oxla süngü paralelləşir. Bu da Təpəgözün gözünün süngü ilə çıxarılmasını bir tərəfdən gözün oxla çıxarılması, o biri tərəfdən onun öldürülməsinin birinci mərhələsi kimi izah etməyə əsas verir.

Basat pəri qızının tilsiminin birini (oxbatmazlıq) dağıdır: Təpəgözün gözünü süngü ilə (oxla) çıxarır. İkinci tilsim qılınckəsməzlikdir. Basat bu tilsimi də dağıdır. Bu proses uzun və mərhələli baş verir:

I. Basat əvvəlcə artıq kor olmuş Təpəgözün mağarasında ona əsir düşür. Qoç dərisinə bürünüb onun əlindən qurtulur.

II. Təpəgöz pəri anasının onun barmağına taxdığı üzüyü çıxararaq Basata verir: “Mərə oğlan, al şol barmağımdakı yüzügi, parmağına taq, sana ox və qılıc kar eyləməsün” [47, s. 101]. Amma Təpəgöz Basatı aldadır. Pəri qızı üzüyü oğlunun barmağına taxanda həm də dua ilə tilsimləmişdi. Basat bunu bilir və Təpəgözün hücumundan yenə sağ qurtulur.

III. Təpəgöz Basatı aldadaraq onu qızıl pullarla dolu xəzinəsi olan günbəzə salır və günbəzi uçurdur. Lakin Basat dua oxuyaraq, yenə də sağ qurtulur.

IV. Təpəgöz Basata onun mağarasında iki qılınc olduğunu deyir: biri qınlı, biri qınsız. Onu gətir mənim başımı kəs (47, 102). Lakin ehtiyatlı tərpənən Basat qılıncın tilsimli (sehrli) olmasından ehtiyat edir. Çünki bu qılınc Təpəgözün öz qılıncıdır. Onun gümanı doğru çıxır. O, həmin qılıncın tilsimini sındıraraq ona sahiblənir və Təpəgözün başını elə onun öz qılıncı ilə kəsir.

Göründüyü kimi, Basatın Təpəgözü öldürməsi ikimərhələli proses şəklində baş tutur. Basat birinci mərhələdə süngü ilə (başqa sözlə, oxla) onun gözünü çıxarır, ikinci mərhələdə onun öz qılıncı ilə başını kəsir. Bu prosesi Qrendelin öldürülməsi prosesi ilə ortaqlaşdıran tipoloji elementlər bunlardır:

a) Təpəgözün və Qrendelin bədəninin tilsimli olması (ox batmır, qılınc kəsmir);

b) Gözün çıxarılması – qolun qoparılması motivi;

c) Xəzinə motivi;

d) Tilsimli qılınc motivi;

e) Divlərin başının öz qılıncı ilə kəsilməsi motivi.

Burada tipoloji incəlik də var. Basat ikiqat magik müdafiə sisteminə (oxbatmazlıq, qılınckəsməzlik) malik Təpəgözü iki mərhələdə öldürür. Bu iki mərhələ “Beovulf” dastanında Qrendellə onun anasının arasında “bölünür”. Basatın Təpəgözün gözünü çıxarması mərhələsi Beovulfun Qrendelin qolunu qoparması mərhələsinə uyğun gəlir. Ölümcül yaralanmış Qrendel anasının mağarasına qayıdır və burada huşsuz vəziyyətdə ölür. Basatın Təpəgözlə vuruşaraq

onun başını kəsməsi mərhələsi Beovulfun ana divlə vuruşaraq onun başını kəsməsi mərhələsi ilə eyniləşir. Yəni Təpəgözün ölümü ikimərhələli olduğu kimi, burada da ölüm süjeti iki mərhələdə baş tutur.

Tipoloji nöqtələri müəyyənləşdirmək üçün Beovulfun ana divlə vuruşması süjetini izləmək lazımdır.

Beowulf arrayed himself
in armor, not at all
worrying about his life,
putting on his mail shirt,
large and decorated,
woven by hand so that
it could protect his chest
as he tried the water,
so that hostile grips,
the fury's malicious grasps,
might not scathe his life [157, s. 69].
Beovulf zirehini geyindi.
O iri və bəzədilmiş, əldə toxunmuş zirehini
Geyərkən öz həyatından ötrü qətiyyən narahat deyildi.
Geyirdi ki, suda dava edəndə düşmənin pəncələrindən
Sinəsini qoruya bilsin. Bu yolla qoruna bilərdi.

Ana divin və oğlu Qrendelin yuvası suyun altında yerləşir. Bu su adi su yox, bataqlıq suyudur. Bataqlıq Avropa mifologiyasında şər-xatalı, qorxulu məkandır. Bataqlığın altı həm də yeraltını – xaos dünyasını bildirir. Təpəgözün mağarası dağda yerləşir. Dağ yeraltı məkan deyil. İlk baxışda fərq yaranır. Ancaq Təpəgöz bilavasitə dağda deyil, dağdakı mağarada yaşayır. Mağara da mifologiyada yeraltı, xaos aləmi ilə bağlı məkandır.

Beovulfun ana divlə vuruşu bir çox detalları ilə Basatın Təpəgözlə vuruşunu xatırladır. Basat qorxmadan Təpəgözün mağarasına hücum etdiyi kimi, Beovulf da Hrotqara axırıncı xahişlərini deyib, heç bir qorxu hissi keçirmədən suya baş vurur:

With these words
the chief of the Geats,
waiting for no reply,
hastened with bravery.
The surging water took
the warrior, and it was
a good part of a day
before he found the bottom [157, s. 71].
Qeatların başçısı bu sözləri deyib,
Heç bir cavab gözləmədən
Cəsurcasına çıxıb getdi.
Qabaran su döyüşçünü aldı
Və bu, gün batmazdan əvvəl
Onun ən yaxşı hissəsi (hadisəsi – *R.Vəliyeva*) idi.

Ana div Beovulfun üzərinə hücum edir. Birinci həmlə uğursuzluqla nəticələnir:

Then the enemy seized the warrior
in her horrid clutches, yet
he was not injured – the ringed
armor protected him, and she
could not break his mail shirt
with her hostile claws [157, s. 71].
Sonra düşmən öz qorxunc pəncələri ilə
Döyüşçünü yaxaladı, lakin o yaralanmadı:
Halqalı zirehi onu qorudu.
Və o, öz amansız pəncələri ilə
Onun incə zirehini qıra bilmədi.

Ana div Beovulfun manevr etmək imkanlarını əlindən almaq üçün döyüşçünü öz yuvasına sürüyür. Burada Beovulf Unferthin ona bağışladığı məşhur Hrunting

adlı qəbzəli qılıncı çəkib, qüvvətli bir zərbə ilə divin başına endirir. Lakin divin bədəni qılınckəsməz olduğu üçün ona heç nə olmur:

He swung his battle sword
quickly--he did not hold
back--and the ringed blade
sang a greedy war song
on her head. But the guest
found that the flashing
sword would not bite,
could not harm her life –
the edge failed him at need [157, s. 73].
Tez qorxmadan döyüş qılıncını sıyırdı,
Və onun halqa qılıncı qadının başı üstündə
Bir döyüş nəğməsi oxudu.
Lakin qonaq (Beovulf – *R. Vəliyeva*) işıq saçan qılıncın
Onun canına bir zərər verməyəcəyini başa düşdü –
Iti ağızlı (qılınc– *R. Vəliyeva*) lazım olan zamanda
Bir şeyə yaramadı.

Göründüyü kimi, Qrendel də, ana div də qılınckəsməz varlıqlardır. Bu cəhət onları Təpəgöz obrazı ilə eyniləşdirir və bizdə bəzi qənaətlər yaradır. Əvvəla, bu şər varlıqların oxbatmaz, qılınckəsməz olması onların tilsimlənməsi ilə bağlıdır. Lakin burada məsələni yalnız tilsimlə məhdudlaşdırmaq olmaz. Beovulfun onun üçün asan olsa da, Qrendellə qılınc döyüşündən imtina edib qol döyüşünə üstünlük verməsi həm də süjetin arxaikliyini nümayiş etdirir. Belə ehtimal etmək olar ki, burada qol gücünün kultu da var. Qəhrəmanın gücü, qüdrəti onun qolunun gücü ilə şərtlənir. Bunu Qrendelin canının (ölüm nöqtəsinin) onun qolunda olması da təsdiq edir.

Beovulf Qrendellə döyüşdə olduğu kimi, qol döyüşü taktikasını seçir. Çox maraqlıdır ki, ana div də Beovulfun çiyninə zərbə endirib, onun qolunu qoparmaq istəyir:

She paid him back quickly
with angry claws and
clutched him against her.
At that moment
the strongest of warriors
felt sick at heart:
he fell. She sat
on her hall guest
and drew a dagger,
wide and brown-edged –
she would avenge her son,
her only offspring.
On his shoulder lay
the woven mail shirt.
It protected his life,
withstood the entrance
of point and edge [157, s. 73-74].
O da (ana div – *R. Vəliyeva*) öz qorxunc pəncələri ilə
Hücum edib, qarşısındakını yaxaladı.
O anda igidlər igidi zəiflik hiss edib yıxıldı.
O (ana div – *R. Vəliyeva*) qonağın sinəsinə çöküb,
Enli, qıraqları qəhvəyi xəncərini çəkdi ki,
Oğlunun – bircə balasının intiqamını alsın.
Lakin çiyinlərində incə toxunmuş zireh var idi:
Həyatını qorudu, xəncər zirehi deşə bilmədi.

Döyüşün gedişatı, elə bil ki, eynilə Basatla Təpəgöz arasındakı döyüşü təkrarlayır. Basat birinci mərhələdə Təpəgözün gözünü çıxarır, ikinci mərhələdə isə onu qeyri-adi qılıncla öldürməlidir. Basatın öz qılıncı işə yaramır. Çünki Təpəgözün bədəni tilsimlidir. Adi qılınc onu kəsmir. Təpəgözü öldürə biləcək yeganə qılınc onun öz qılıncıdır. Basat bu qılıncı əldə edib, Təpəgözün başını kəsir.

Unferthin Beovulfa bağışladığı Hrunting adlı qılınc nə qədər məşhur bir silah olsa da, ana divin bədənini kəsmir. Demək qeyri-adi qəhrəmana (Beovulfa) qeyri-adi düşməni (ana divi) öldürmək üçün qeyri-adi qılınc lazımdır. Bu qeyri-adi qılınc da Təpəgözün mağarasında olduğu kimi, burada da ana divin yuvasındadır. Beovulf onu divin əlindən qurtulub ayağa durarkən görür:

The wise ruler of the skies
decided justice easily when
Beowulf stood up again:
there among the weapons
he saw a victory-blessed sword,
an old sword made by giants
with strong edges, the glory
of warriors. It was
the choicest of weapons,
good and majestical,
the work of giants, but
larger than any other man
could carry to battle sport [157, s. 74].

Beovulf yenidən ayağa qalxanda
Göylərin müdrik hökmdarı
Öz ədalətini göstərdi:
Oradakı silahlar arasında
Qələbə ilə müjdələnmiş
Qədim bir qılınc gördü.
Ustalar düzəltmişdilər,
İti kənarları var idi,
Döyüşçülərin iftixarı idi.
O qılınc silahların ən üstünü idi,
Gözəl və möhtəşəm idi.
Lakin adi bir adamın yarışa götürə biləcəyi

Qılıncdan çox böyük idi.

Beovulf bu qılıncı çəkib, qəzəblə ana divin boynunu vurur. Qəribə hadisə baş verir: başı kəsilmiş ana divin yerə yıxılmağı ilə onların olduğu sualtı ev qəfildən işıqlanır. Mətndə deyilməsə də, bu, magik aktdır. Qrendel də, ana div də xaos dünyasının varlıqlarıdır. Qaranlıq bu dünyanın əsas atributudur. Qrendel də Herot sarayına həmişə gecələr hücum edirdi. Onun oğlunun intiqamını almaq istəyən anası da Herota gecə hücum edir. Ana divin sualtı evi də qaranlıq məkandır. Ana divin ölməsi ilə bu ev birdən-birə işıqlanır. Səbəbi aydındır: Beovulf divlərin tilsimini qırır. O, bu zaman Qrendelin cansız bədənini də görür. Beovulf öz qəhrəmanlıq missiyasını axıradək yerinə yetirərək Qrendelin də başını kəsir:

He wished to requite Grendel for
the many attacks he
had made on the Danes,
much more often
than on one occasion,
when he had slain
Hrothgar's guests in their sleep.
Fifteen Danish men
he devoured while they
slept, and carried as many away,
hideous booty. The fierce
champion paid him his reward:
Beowulf saw Grendel in rest,
worn out with fighting,
lifeless from the hard wounds
he had gotten in battle
at Herot. The corpse
split when it suffered
that blow after death –
the hard sword stroke.

Beowulf cut off the head [157, s. 75].
Qrendeldən Danimarkalılara etdiyi hücumların,
Hrotqarın qonaqlarını yatarkən öldürməsinin,
On beş danimarkalını udmasının,
Bir o qədərini də qənimət aparmasının
Artıqlaması ilə heyfini almağı arzuladı.
Vəhşi çempion onun mükafatını verdi:
Beovulf Qrendeli hərəkətsiz, döyüşməkdən yorulmuş,
Herotdaki döyüşdə aldığı yaralardan
Cansız vəziyyətdə gördü.
Kəskin qılınc ona çarpdı,
Meyid o zərbədən parça-parça oldu.
Beovulf onun başını bədənindən ayırdı.

Beovulf Qrendelin başını kəsəndən sonra daha bir maraqlı hadisə baş verir. Divlərin başını kəsdiyi tilsimli qılınc birdən-birə əriyir, əlində yalnız qəbzəsi qalır:

The blade had melted...
The ornamented sword burned up [157, s. 77].
Qılınc ərimişdi,
Bəzəkli qılınc yanıb kül oldu.

Süjetdə hər şey bir-biri ilə bağlıdır:

a) Qrendelin və anasının bədəninin qılınckəsməz olması;

b) Divləri öldürmək üçün tilsimli qılıncın tələb olunması;

c) Bu qılıncın divlərin öz mağarasında yerləşməsi (yəni divlərin öz qılıncı olması);

d) Divlərin başının kəsilməsi ilə tilsimlərin qırılması (mağaranın işıqlanması, sehrli qılıncın əriyərək, yalnız qəbzəsinin qalması).

Göründüyü kimi, Beovulfun mübarizəsi magik motivlərlə zəngindir. O, tilsimləri, ovsunları qırır. Bu cəhətdən qılıncın qəbzəsinin əriməsinin xüsusi mənası var. Tilsimli qılınc süjetin mifik quruluşunun mənasının əsasında durur. V.N.Toporov ovsun-tilsim haqqında yazır ki, "*ovsunlar arzu edilən vəziyyəti*

*yaradacaq, magik gücə malik formul səciyyəli xüsusi mətnlərdir. Ovsun və mif hər şeydən əvvəl onlardakı ortaq davranış strategiyasını nəzərdə tutan ümumi məntiqlə birləşir”* [117, s. 451].

“Beovulf”dakı divlərin yuvasında sehrli qılıncın varlığı tilsimləməni dastan süjetinin ən arxaik səviyyəsi kimi təqdim edir. Belə ki, dastanda mif və tarix bir-birinə qarışmışdır. Beovulf mifik düşmənlərlə mübarizə apardığı kimi, öz xalqının real düşmənləri ilə də vuruşmuşdur. Bütün bu döyüşlərin içərisində tilsimli rəqiblərlə döyüş mifologiyadan, mifik süjetdən, mifin məntiqindən xəbər verir. Ovsunlama magik aktdır, birbaşa mifik düşüncə ilə bağlıdır. Süjetdəki ovsun, tilsim sadəcə süjet elementi deyildir. Tilsim mifik davranışın xüsusi formasıdır. “Beovulf”un süjetində tilsimin qorunub qalması bu dastanın öz kökləri etibarilə miflə, mifik görüşlərlə birbaşa bağlı olduğunu, daha doğrusu, dastanın ilkin süjetlərinin mif dövründə formalaşdığını göstərir.

“Kitabi-Dədə Qorqud” və “Beovulf”da hər iki qəhrəman düşmənlərin başını sehrli qılıncla kəsirlər. Basat həmin qılıncla Təpəgözün başını kəsib qurtardıqdan sonra həmin qılıncın “sərgüzəşti” başa çatır. “Beovulf”da isə qılınc öz missiyasını yerinə yetirəndən sonra da ondan bəhs olunur. Beovulf Hrotqarı görən kimi qılıncdan bəhs edir:

Beowulf, son of Ecgtheow, spoke:
"Behold, son of Healfdene,
Lord of the Danes--we have brought
you with pleasure this sea booty,
as token of glory,
which you see here.
I hardly survived
the battle under the water,
engaged in that deed
with difficulty. The battle
would have ended quickly
if God had not protected me.

Nor could I accomplish anything
with Hrunting, that strong
weapon, but the ruler of men
granted me to see
a beautiful old mighty sword
hanging on the wall [157, s. 79].
Ecgtheo oğlu Beovulf dedi:
"Diqqətlə bax, ey Healfdenein oğlu –
Danimarka lordu, burada gördüyün
Bu dəniz qənimətini
Bir şərəfli xatirə kimi
Böyük bir məmnunluqla sənə gətirdik.
Sualtı döyüşdə güclə sağ qala bildim,
Bu işi çox çətinliklə yerinə yetirdim.
Əgər Tanrı məni qorumasaydı,
Döyüş tez bitəcəkdi.
O güclü silahla – Hruntinglə də
Bir şey edə bilmədim.
Amma insanların padşahı (Tanrı – *R.Vəliyeva*)
Divarda asılmış gözəl, qədim və qüdrətli qılıncı
Görməyi mənə nəsib etdi.

Beləliklə, Beovulf öz qəhrəmanlığının, döyüşün taleyinin tamamilə qılıncdan asılı olduğunu söyləyir. Bu məqamda "Dədə Qorqud"la çox incə bir tipoloji bağlılıq nöqtəsi görünür. Bu, silah kultu ilə bağlı məqamdır. Beovulf açıq-açığına bildirir ki, əgər sehrli qılınc olmasaydı, o, divə məğlub olacaqdı. Burada qılınc (silah) kultunun izləri açıq-açığına görünür. Onun sözlərindən belə başa düşülür ki, qalib gələn o deyil, qılıncdır. Beləliklə, Beovulfun qəhrəmanlığı onun həmin silahı ələ keçirə bilməsində ifadə olunur. Qılınc sehrlidir. Qəhrəmanın ağlı, biliyi, gücü və fərasəti onda bilinir ki, o, həmin sehrli silahı ələ keçirə bilsin. Bu yerdə B.N.Putilovun bir fikri təkrar yada düşür. O, qəhrəmanın gücünün üç şeydən asılı

olduğunu göstərir ki, bunlardan biri silahdır: "*Bahadırlıq gücü öz əsası etibarilə üç göstəricinin vəhdətindən təşkil olunur: bahadırın özünün qabiliyyətləri, atının xüsusi keyfiyyətləri və silahının möcüzəli xüsusiyyətləri*" [114, s. 68].

Beovulf ana divə ona görə qalib gələ bilir ki, o, möcüzəli silahı ələ keçirə bilir. Bu silah olmasaydı, Beovulf düşmənə qalib gələ bilməyəcəkdi. Deməк, qədim anqlosaks düşüncəsinə görə, qəhrəmanın hünəri onun silahlarından asılıdır. Bu fikri biz eynilə "Dədə Qorqud" dastanında görürük. "Bəkil oğlu İmran" boyunda Salur Qazanla digər bəylər arasında Bəkilin göstərdiyi hünər haqqında bir dialoq-mübahisə olur:

"Üç yüz altmış altı alp ava binsə, qanlu keyik üzərinə yüriş olsa, Bəkil nə yay qurardı, nə ox atardı. Haman yayı biləgindən çıqarardı, buğanıñ-sığınıñ boynına atardı, çəküb turğuzardı. Arıq olsa, qulağın dələrdi, avda bəllü olsun deyü. Əmma semüz olsa, boğazlardı. Əgər bəglər keyik alsa, qulağı dəlük olsa, "Bəkül sünicidir" deyü Bəkilə göndərərlərdi.

Qazan bəg aydır: "Bu hünər atıñmıdır, əriñmidir?"

"Xanım, əriñdir", – dedilər.

Xan aydır: "Yoq, at işləməsə, ər ögünməz. Hünər atıñdır", – dedi" [47, s. 104].

Göründüyü kimi, Beovulf öz hünərinin qılıncdan asılı olduğunu söylədiyi kimi, Salur Qazan da Bəkilin hünərinin atdan asılı olduğunu söyləyir. Onun sözləri təsadüfi deyildir. Oğuzlar hünərin təkcə atdan deyil, həm də Beovulfun düşündüyü kimi, qılıncdan asılı olduğunu düşünürlər. "Dədə Qorqud" eposunun müqəddiməsində deyilir: "Çalub-kəsər uz qılıcı müxənnətlər çalınca, çalmasa, yeg!" [47, s. 32].

Burada "çalıb-kəsər uz qılıc" dedikdə Misri qılınc kimi, Beovulfun "Naegling", Unferthin "Hrunting" adlanan qılıncları kimi qılınclar nəzərdə tutulur. Çünki bu qılınclar metaldan düzəldilmiş adi silahlar yox, qeyri-adi gücə malik varlıqlardır. Onlara sahib olan məğlub olmur. Ona görə də Dədə Qorqud dua edir ki, "çalub-kəsər uz qılıc" müxənnətlərin, namərd adamların əlinə düşməsin. Qılıncın kimin əlində olması əsas şərtdir. Çünki bu qılınca sahib olan xeyirxah

qəhrəman yaxşı işlər, bədxah "qəhrəman" isə pis işlər görməyə qadir olur. Ana divin mağarasındakı sehrli qılınc bundan sonra xeyirə xidmət etsin deyə Beovulf onun əridikdən sonra qalmış qəbzəsini Hrotqara verir:

Then was the golden hilt,
the ancient work of giants,
given to the hand
of the aged warrior,
the gray war leader.
The possession of it,
the wondrous work of smiths,
passed, after the deaths
of demons, to the king of the Danes [157, s. 81].
Sonra azmanların bu əntik əsəri
Qocalmış döyüşçünün, nuraniləşmiş savaş
Başçısının əllərinə verildi.
İblislərin ölümündən sonra
Dəmirçlərin bu xariqüladə əsərinin mülkiyyəti
Danimarka kralına keçdi.

Basat Təpəgözü öldürüb, Oğuz elinə əmin-amanlıq gətirdiyi kimi, Beovulf da sehrli qılıncın qəbzəsini xeyiri, haqqı, ədaləti təmsil edən Hrotqara verməklə Danimarkadakı qəhrəmanlıq missiyasını başa vurur. Hər iki qəhrəmanın missiyasının mifik semantika baxımından qılınc (silah) kultu ilə bağlılığı bu iki dastanı birləşdirən əsas tipoloji nöqtələrdən biridir. Təpəgözün, Qrendelin və anasının bədənlərinin qılınckəsməz olması da birbaşa silah kultu ilə bağlıdır. Hər iki dastanda baş qəhrəmanların əsas hünəri sehrli qılıncı ələ keçirməkdə ifadə olunur.

## 2.6. Təpəgöz və Qrendel şərin təmsilçiləri kimi

Hər bir dastanda olduğu kimi, "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarında da əsas ideya xeyirlə şərin mübarizəsi və xeyirin şər üzərində qələbəsidir. Bu, dünya eposlarını birləşdirən əsas ideya, ana leytmotiv olduğu kimi, bu iki dastanı da birləşdirir. Əslində, şərin xeyirə qarşı mübarizəsi bəşər düşüncəsinin mayasını təşkil edir. Bütün dünya xalqlarının yaradılış miflərinin əsasında bu ideya durur. V.Toporov göstərir ki, *"mifologiyanın əsas daxili mənasını təşkil olunmamış nizamsız xaosdan sahmana salınmış kosmosa keçid təşkil edir"* [118, s. 6]. Bu, mübarizə yolu ilə baş verir. Mifologiyada xeyiri – kosmosu təmsil edən qüvvələrlə şəri – xaosu təmsil edən qüvvələr bir-biri ilə əbədi çarpışırlar. Xeyir həmişə mübarizənin sonunda qələbə çalır. Lakin şər bununla birdəfəlik məhv olmur. O, yenidən baş qaldırır. Ona görə də xeyiri təmsil edən qəhrəman ona qarşı yenidən mübarizə etməli olur. Bu mübarizə əbədidir [bax: 86, s. 38-42] .

"Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanları da xeyirlə şərin mübarizəsi və xeyirin şər üzərində qələbəsini təsdiq etməklə bütün dünyada, bəşər aləmində xeyirin, insanlığın, humanizmin tərənnümünə, şərin inkarına xidmət edir. Hər iki dastanda xeyiri və şəri təmsil edən obrazlar milli boyalara malik olduğu kimi, ümumi, tipoloji cizgilərə də malikdirlər. Bu da Təpəgöz və Qrendel obrazlarına şərin tipoloji keyfiyyətləri prizmasından baxmağa imkan verir.

Təpəgöz anadan olan kimi şər-ziyanxor işlərə başlayır. Onun ilk qurbanları süd anaları, oynadığı uşaqlar olur. Heç bir dayə ona süd çatdıra bilmir. Təpəgöz süd əmdiyi dayələri soraraq, onların qanını və canını alır. Onu daha sonra heyvan südü ilə bəsləməyə başlayırlar. Böyüdükcə öz oyun yoldaşlarının burnunu, qulağını qoparıb yeməyə başlayır. Təpəgöz bütün bunları niyə edir? Çünki o, təbiət etibarilə adamyeyəndir: elə anadan adamyeyən kimi doğulmuşdur. Adamyeyənlik Təpəgözün missiyasıdır.

Unutmaq olmaz ki, Təpəgöz şər varlıq kimi doğulmuşdur. Məsum pəri qızı ona təcavüz edən çobana bu hərəkəti ilə Oğuz elinin başına fəlakət gətirdiyini

qabaqcadan xəbər verir. Burada çox incə bir nöqtə var: pəri qızı çobanın hərəkətinin nə ilə nəticələnəcəyini qabaqcadan bilir, çoban isə, bəlkə də, bilmir. Bilsəydi, ola bilər ki, pəri qızına toxunmağa cəsarət etməzdi. Necə ki "Beovulf" dastanında yatmış əjdahanın mağarasından oğurluq edən oğru əjdahanın oyanandan sonra intiqam alacağını bilmirdi.

Bəzi tədqiqatlarda Təpəgözün doğuluşu pəri qızının intiqamı kimi nəzərdən keçirilir. Bizcə, məsələyə tamamilə intiqam prizmasından baxmaq olmaz. Əgər pəri qızı Təpəgözü intiqam məqsədi ilə doğsaydı, onda biz boyda ilk növbədə təcavüzkar Qonur qoca Sarı çobandan intiqam alındığını görərdik. Təpəgöz isə onu heç bircə dəfə də olsun yada salmır. Düzdür, o, çöldəki bütün çobanları tutub yeyir: "Dəpəgöz Oğuzdan çıqdı, bir yuca tağa vardı. Yol kəsdi, adam aldı, böyük hərami oldı. Üzərinə bir qac adam göndərdilər. Ox atdılar, batmadı. Qılıc urdılar, kəsmədi. Sügüylə sancdılar, ilmədi. Çoban-çoluq qalmadı, həb yedi. Oğuzdan dəxi adam yeməgə başladı" [47, s. 99].

Onun yediyi "çoban-çoluğun içərisində" çoban atası da ola bilərdi. Lakin hətta olmuş olsa da belə, dastan onun adını çəkmir, ona əhəmiyyət vermir. Təpəgöz bütün Oğuz elinə düşmən kəsilir. Deməki, o, şəxsi deyil, ictimai intiqamçıdır. Belə olduğu halda onun obrazını yalnız pəri qızının şəxsi intiqamı kimi nəzərdən keçirmək olmur. Çünki bu halda biz ilk növbədə Qonur qoca Sarı çobandan intiqam alınmasının şahidi olardıq.

Yenə də qarşıya bir incə nöqtə çıxır: pəri qızı Təpəgözü doğmaya bilərdimi?

Bizcə, məsələnin bütün mahiyyəti bununla bağlıdır. O, təbii ki, cinsi təcavüzdən olan uşağı istəməzdi. Bizim fikrimizcə, Təpəgöz pəri qızının iradəsindən kənarda doğulur. Pəri qızı burada yalnız təcavüzə məruz qalan, çobanın hərəkətinin qurbanına çevrilən, uşaq doğulduqdan sonra onun qayğısına qalmalı olan (oxbatmazlıq, qılınckəsməzlik motivi) günahsız bir varlıqdır. Bu halda faciənin bütün məntiqi Qonur qoca Sarı çoban obrazında düyünlənir.

Başqa bir incə nöqtə isə pəri qızının çobanın təcavüzünün nə ilə nəticələnəcəyini qabaqcadan bilməsidir. Köməksiz və gücsüz halda çobanın təcavüzünə məruz qalan pəri qızı elə yerindəcə çobanı onun hərəkətinin böyük

fəlakətlə nəticələnəcəyi barədə xəbərdar edir. Maraqlıdır ki, pəri qızının xəbərdarlığı iki dəfə səslənir: biri – hadisə baş verəndə, biri də – uşaq doğulanda: "Pəri qızı qanat urub uçdı. Aydır: "Çoban, yil tamam olıcaq məndə əmanətiñ var, gəl, al! – dedi. – Əmma Oğuzuñ başına zaval gətürdüñ", – dedi. Çobanıñ içinə qorxu düşdi. Amma qızıñ dərdindən bəñizi sarardı. Zamanla Oğuz genə yaylaya köçdi. Çoban genə bu biñara gəldi. Genə qoyun ürkdi. Çoban ilərü vardı. Gördi kim, bir yığanaq yatur, yıldır-yıldır yıldırır. Pəri qızı gəldi. Aydır: "Çoban, əmanətiñ gəl, al! Əmma Oğuzuñ başına zaval gətürdüñ!" – dedi" [47, s. 98].

Buradan çox açıq şəkildə aydın olur ki, pəri qızlara toxunmaq nə ilə nəticələnə bilər. Yəni pəri qızları özləri bilirlər ki, insanlar onlara müqəddəs varlıq kimi baxır və toxunmurlar. Çünki pərilər də, insanlar da müqəddəsliyə toxunmağın nə ilə nəticələnəcəyini bilirlər. Çox güman ki, Sarı çoban da bunu bilir. Çünki o bir çoban olsa da, Oğuz elindəndir. Oğuzların adət-ənənələrini, dəyərlərini yaxşı bilir. O da başqa oğuz insanları kimi bu dəyərlərin daşıyıcısıdır. Hər halda "Kitabi-Dədə Qorqud"da çobanların hansı yüksək mənəvi dəyərlərə malik olduğunu bildirən Qaraca Çoban obrazı var. Deməк, çoban bu hərəkəti bilərəkdən edir: o, pəri qızına tamah salır.

Bu yerdə bir incə nöqtə də meydana çıxır: nəyə görə bir fərdin günahını bütün Oğuz eli çəkməli olur? Bu sual eynilə "Beovulf" dastanına da aiddir. Əjdahanın xəzinəsindən oğurluq edənin etdiyi pis hərəkətin faciəsini bütün qeat eli yaşamalı olur. Bunun səbəbi nədir?

Bizcə, məsələnin bütün mahiyyəti çobanın (və oğrunun) etdiyi hərəkətin ictimai xarakter daşımasındadır. Pəri qızlarının namusu, müqəddəsliyi təkcə onların özlərinə aid deyildir. Bu müqəddəslik bütün Oğuz elinə aid olan müqəddəs ictimai dəyərdir. Demək, çobanın hərəkəti tək bir fərdə (pəri qızına) qarşı deyil, ictimai dəyərə qarşı yönəlmişdir. O, şəxsə deyil, cəmiyyətə təcavüz etmişdir. Çünki Oğuz elinin yaylağındakı bir bulaqda çimən pəri qızları onlara kiminsə təcavüz edə biləcəyini ağıllarına belə gətirmirlər. Gətirsəydilər, qabaqcadan tədbir qılıb, ehtiyatlı olar, kiminsə onlara təcavüz etməməsi üçün içərilərindən keşikçi də qoyardılar. Lakin onlar bunu etməmişlər. Çünki pəri qızları Oğuz yurdunda, Oğuz

təbiətində, Oğuz dünyasında sabitlik və əmin-amanlıq içərisində yaşayırdılar. Onlara heç kəs dəyib-dolaşmırdı və onlar özləri də heç kəsdən pis hərəkət gözləmirdilər. Beləliklə, çoban pərı qızına təcavüz etməklə, əslində, Oğuz elinin ictimai əmin-amanlığına, sabitliyinə və qanunlarına təcavüz edir. Pəri qızının ona dediyi "Oğuzuñ başına zaval gətürdüñ!" xəbərdarlığının mənası budur. Yəni sən çoban Oğuz elində əmin-amanlığı, mənəvi rifahı, elin təhlükəsizliyini təmin edən qanunları pozaraq məhv etdin.

Təpəgöz, doğrudan da, Oğuz eli üçün böyük bir faciəyə çevrilir. Elə bir faciə ki, o, Oğuz elinin ümumiyyətlə məhvinə, yer üzündən silinib getməsinə gətirə bilər. Bu, eposda bir ananın Basata şikayətində belə ifadə olunub: "Basat aydır: "Nə dilərsən?" Qarıcıq aydır: "Yalancı dünya yüzində bir ər qopdı. Yaylamında Oğuz elin qondurmadı. Qara polad uz qılıclar kəsən qılını kəsdirmədi. Qarğu cida oynadanlar ildirəmədi. Qayın oxı atanlar kar qılamadı. Alplar başı Qazana bir zərb urdı. Qardaşı Qaragünə əlində zəbun oldı. Bığı qanlu Bügdüz Əmən əlində zəbun oldı. Ağ saqallu babañ Aruza qan qusdurdı. Meydan yüzində qardaşıñ Qıyan Selcik ödi sındı, can verdi. Qalın Oğuz bəglərin dəxi – kimini zəbun edüb, kimini şəhid eylədi. Yedi qatla Oğuzı yerindən sürdi. "Kəsim" dedi, kəsdi. Gündə iki adam, beş yüz qoyun istədi. Buñlu qoca ilə Yapağlu qocayı aña xidmətkar verdilər. Dört oğlı olan birin verdi. Üç olan birin verdi. İki olan birin verdi. İki oğlancığım vardı. Birin verdim, biri qaldı. Çevrildi, növbət gerü – maña gəldi. Anı dəxi istərlər. "Xanım, maña mədəd!" – dedi" [47, s. 100].

Göründüyü kimi, əgər dayandırılmasa, Təpəgöz bu qayda ilə Oğuzdakı insanları yeyib qurtaracaqdır. Bu da onun şər missiyasının şəxsi deyil, ictimai bir missiya olduğunu, bütün cəmiyyətə qarşı yönəldiyini göstərir. "Beovulf" dastanında da Qrendelin təcavüzü Danimarka cəmiyyətinə qarşı yönəlib. O, çöldə-bayırda əlinə keçən insanları yemir, birbaşa Herot sarayına hücum edir. Bu saray kralın və dövləti idarə edən digər insanların yığışdığı mərkəzdir. Qrendel bura hücum etməklə, əslində, birbaşa Danimarka xalqı və dövlətinin "ürəyini" məhv etmək istəyir. Əgər onun məqsədi yalnız adam əti ilə qidalanmaq olsa idi, onda o, çöl-bayırda rast gəldiyi adamları ovlayıb-yeyərdi. Demək, məsələ təkcə

qidalanmaqla bağlı deyil. Onun təcavüzü Danimarka cəmiyyətinə qarşı yönəlib. Çünki Herot Danimarka cəmiyyətinin siyasi elitasının mərkəzləşdiyi məkandır.

Qrendel Herota ilk hücumunda otuz nəfəri öldürərək oğurlayır:

One night, after a beer party,
the Danes settled in the hall
for sleep; they knew no sorrows.
The evil creature, grim and hungry,
grabbed thirty warriors
and went home laughing [157, s. 13].
Bir gecə pivə məclisindən sonra
qəm-kədər bilməyən Danimarkalılar yatışdılar.
Amansız və ac şeytan törəməsi
otuz döyüşçünü oğurlayıb,
sevinə-sevinə evinə getdi.

Səhər bu hadisəni öyrənən bütün Danimarka xalqı və onun kralı Hrotqar yasa batır:

At dawn, when the Danes learned
of Grendel's strength,
there was great weeping.
The old king sat sadly,
crying for his men. Bloody
footprints were found [157, s. 13].
Danimarkalılar gün doğanda
Qrendelin etdiklərindən xəbər tutdular:
Hamı göz yaşına qərq oldu.
Qocalmış döyüşçü öz adamları üçün ağlayaraq,
Üzgün vəziyyətdə düşüb qaldı.
Qanlı ayaq izləri tapılmışdı.

Lakin ertəsi gecə Qrendel yenə hücum edir. Bu hücumlar qurtarmır, on iki il davam edir. Danimarka igidləri divlə bacarmır və Herot Qrendelin əlinə keçir:

That was bad enough,
but the following night
Grendel killed more--
blinded by sin,
he felt no remorse.
So Grendel ruled,
fighting right,
one against many,
and the greatest hall
in all the earth
stood empty at night.
Twelve years this went on,
Hrothgar suffering
the greatest of sorrows [157, s. 13].
Bu, çox pis bir hadisə idi.
Lakin gözünü qan örtmüş,
Heç bir peşmanlıq duymayan
Qrendel növbəti gecə gələrək,
Daha artıq adam öldürdü.
Beləcə Qrendel təkbaşına döyüşdü,
Çoxlarına hökm etdi.
Və bir gecə dünyanın ən böyük
Sarayı bomboş qaldı.
On iki il bu cür davam etdi,
Hrotqar böyük qəmə qərq oldu.

Göründüyü kimi, Qrendel də Təpəgöz kimi şəxsi intiqamçı deyil: onun da hərəkətləri Danimarka xalqına qarşı yönəlmişdir. Əgər ictimai şəri təmsil edən bu vəhşilər dayandırılmasa, hər iki xalq tamamilə məhv olacaqdır. Bu yerdə qəhrəmanlar səhnəyə çıxır və düşmənləri məhv edirlər. Bu da öz növbəsində Basat və Beovulfun qəhrəmanlığının ictimai xarakter daşıdığını nümayiş etdirərək, onları

dünya epik qəhrəmanlıq tarixinin ən möhtəşəm obrazlarına çevirir (*Bu yarımfəsildə və ümumən üçüncü fəsildə əldə olunmuş elmi nəticələrin nəşr olunduğu qaynaqlar üçün bax.: 86; 85*).

# N Ə T İ C Ə

Aparılmış tədqiqat göstərdi ki,  hər bir dastan obrazının poetik mətndə öz yeri və rolu var. Bu rol bütöv dastanın poetik quruluşu, məna və mahiyyəti ilə bağlıdır. Bu cəhətdən dastandakı obrazlar və ümumiyyətlə, bütün  canlı-cansız personajlar bir-biri ilə sıx bağlıdır. Təpəgöz və Qrendel obrazları da uyğun olaraq “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarının strukturu ilə ayrılmaz şəkildə bağlıdır.

“Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarını eyni tipoloji sıraya qoyan əsas ictimai amil onların hər ikisinin ilk növbədə tarixin qədim dövrləri, ibtidai çağları ilə bağlılığıdır. Hər iki dastan iki dünyagörüşünün keçidinin izlərini özündə qoruyur. “Beovulf” dastanında bütpərəstlik dövrünün dünyagörüşü ilə xristianlıq dünyagörüşü bir-birinə qovuşmuşdur. Dastanda xristianlıq əsərin üst qatını təşkil edir. Bu, o deməkdir ki, dastan əski dövrlə, bütpərəstlik ideologiyası, mifoloji dünyagörüşü ilə bağlıdır. Burada mifdən xristianlığa keçid var. “Kitabi-Dədə Qorqud”da da qədim mifik görüşlər, tanrıçılıq dünyagörüşü islamla qovuşmuşdur. Bu qovuşma dastanın poetik strukturunun ən müxtəlif qatlarına qədər sirayət edərək, dastanın yeni poetik keyfiyyətə keçməsini təmin etmişdir.

Hər iki dastan arasında qurulmuş ümumi tipoloji paralellərə görə:

1. “Beovulf” dastanı onun baş qəhrəmanının adı ilə adlandırıldığı kimi, “Kitabi-Dədə Qorqud” dastanının hər iki yazılı nüsxəsi də eposun əsas qəhrəmanlarının adları ilə adlandırılıb.

2. “Beovulf” dastanının dilində onun yayıldığı epik coğrafiyanın dialekt xüsusiyyətlərinin inikas olunması “Kitabi-Dədə Qorqud” eposuna da aid olan ümumi tipoloji keyfiyyətdir.

3. Qədim oğuz və qədim anqlosakson dastanları arasındakı tipoloji səsləşmələr hər şeydən əvvəl bu iki dastanın qəhrəmanlıq eposu olması ilə bağlıdır. Qəhrəmanlıq dastanları hər bir xalqın folklor yaradıcılığının ən möhtəşəm səhifəsidir. “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarının qəhrəmanlıq eposları olması onları ictimai düşüncənin eyni mərhələsinə bağlayır.

4. Milli eposlar onları yaradan xalqların milli şifahi tarixidir. “Kitabi-Dədə Qorqud” və “Beovulf” da milli eposlar kimi oğuz və anqlosakson tarixinin bütün əzəmətini özündə əks etdirir.

5. “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarını birləşdirən ən mühüm tipoloji məqam hər iki dastanda ictimai ideologiyaların əvəzlənməsinin əks olunmasıdır. “Beovulf”da bütpərəstlikdən xristianlığa keçid əks olunduğu kimi, “Dədə Qorqud”da şamanizmdən, tanrıçılıqdan islam dininə keçid aydın şəkildə müşahidə olunur.

6. Milli eposlar milli-mənəvi dəyərləri ümumiləşdirən, qoruyan və yaşadan abidələr olduğu kimi, eyni zamanda milli dilin də bütün poetik özünəməxsusluğunu qoruyan möhtəşəm qaynaqlardır. Bu cəhətdən “Beovulf” dastanında anqlosakson dilinin qəhrəmanlıq ruhunu ifadə edən epik təhkiyə bütün özünəməxsusluğu ilə əks olunduğu kimi, “Kitabi-Dədə Qorqud”da da oğuz dilinin poetik möcüzəsi öz ifadəsini tapmışdır.

Dissertasiyada “Beovulf” və “Kitabi-Dədə Qorqud” dastanlarının süjet tipologiyasının tədqiqi nəticəsində bu ortaq tipoloji motivlərin olduğu müəyyənləşdirilmişdir:

1. “Şəcərə motivi”;
2. “Yağmalama motivi”;
3. “Şərab içib sərxoş olma motivi”;
4. “Yuxu motivi”;
5. “Vuruşmağa icazə istəmək motivi”;
6. “Ozan motivi”;
7. “Qılınc motivi”;
8. “Nəsihət motivi”;
9. “Əjdaha ilə döyüş motivi”;
10. “Dəfn (kurqan) motivi”

Həm “Kitabi-Dədə Qorqud”, həm də “Beovulf” obrazlarla zəngindir. İlk baxışdan bu obrazlar bir-birindən fərqli və çox uzaq təsiri bağışlayır. Çünki bunlar qədim zamanlarda tamamilə fərqli məkanlarda yaşamış, tamamilə fərqli dillərə

malik xalqların (oğuzların və anqlosaksonların) dastanlarıdır. Lakin bütün bu zahiri fərqliliklərə baxmayaraq, hər iki dastanı birləşdirən tipoloji ümumiliklər var.

Müəyyənləşdirilmişdir ki, hər iki dastan üçün üç tip obraz tipoloji ortaqlıq təşkil edir:

I. Qəhrəman obrazının tipologiyası: bu tipoloji müqayisələr "Beovulf və Oğuz xan", "divlə vuruşan Beovulf və Basat", "əjdaha ilə vuruşan Beovulf və Salur Qazan" kimi xətləri əhatə edir.

II. Müdrik obrazının tipologiyası: bu tipoloji müqayisələr "Hrotqar və Bayındır xan", Hrotqar və Dədə Qorqud" kimi xətləri əhatə edir.

III. Hər iki dastanda xüsusi semantik aktuallığa malik qılınc obrazının tipologiyası.

Təpəgöz və Qendel obrazları mifik tipologiya baxımından ilk növbədə yaranış mifi ilə bağlıdırlar. Təpəgözün doğulmasında bir sıra tədqiqatlarda olduğu kimi zina məsələsini arxa plana çəkmək də olmaz. Hər halda, pəri qızının Oğuzdan olub-olmamasına baxmayaraq, ona qarşı cinsi təcavüz aktının həyata keçirilməsi göz qabağında olan faktdır. Günahsız bir varlığın, hətta insan deyil, pəri də olsa, namusuna təcavüz edilməsini oğuz babalarımız qəbul edə bilməzdilər. Təpəgözün doğuluş süjetində diqqəti cəlb edən ən mühüm məqam onun adi insan kimi doğulmamasıdır.

"Beovulf" dastanında Təpəgözün analogiyası olan Qrendelin doğuluşu təsvir edilmir. Lakin dastanda olan məlumatlar onun da şərdən – xaosdan törədiyini göstərir. Qrendel də Təpəgöz kimi bir şər varlıq, antiinsani, antimənəvi dəyər kimi doğulmuşdur. Təpəgözü pəri qızı doğduğu kimi, Qrendeli də onun anası doğmuşdur. Qrendelin dastanda şər varlıq, antiinsani, antimənəvi varlıq kimi səciyyələndirilməsi onu  doğuluşunu da xaosun yaranışı kimi səciyyələndirməyə imkan verir. Mifologiyada xaosdan kosmos, kosmosdan xaos yaranır və bu növbəli yaranış zəncir (silsilə) kimi davam edir. Bu cəhətdən Təpəgözün və Qrendelin yaranışı kosmosdan xaosun yaranması, daha doğrusu, kosmos halının xaos halına keçməsi deməkdir. Təpəgözün doğuluşuna qədər Oğuz eli kosmik nizam içərisində yaşayırdı, onun doğuluşu ilə cəmiyyətin nizamı tərsinə dəyişir: kosmos xaosa

keçir. Qrendelin yaranışı ilə də Danimarkada kosmos (sabitlik, sakitlik, dinc həyat) xaosla (bədbəxtliklə, nizamsızlıqla) əvəz olunur.

Qrendelin ailəsi iki varlıqdan ibarətdir: özü və anası. Təpəgöz süjetini onlarla müqayisə etdikdə görürük ki, bu süjet Qrendellə onun anasının arasında bölünür:

I. Beovulfla Qrendel arasında döyüş və onun qolunun qopardılması Basatla Təpəgöz arasında döyüşün birinci mərhələsinə uyğun gəlir. Qolu qoparılmış Qrendel anasının su altındakı yuvasına qaçır və burada huşsuz vəziyyətdə ölür.

II. Basatın Təpəgözlə vuruşu, onu divin öz qılıncı ilə öldürməsi isə Beovulfun Qrendelin anası ilə vuruşması və onu ana divin öz qılıncı ilə öldürməsi ilə uyğun gəlir.

Beləliklə, "Dədə Qorqud" dastanında Təpəgözlə bağlı olan süjetin əvvəli "Beovulf"da Qrendellə, sonrası isə Qrendelin anası ilə bağlıdır.

Həm Təpəgöz, həm də Qrendel şəri, xaosu, pisliyi, bəlanı və s. təmsil edən obrazlardır. Bu xüsusiyyət onların görkəmlərində də əks olunmuşdur. Təpəgöz bədən quruluşu etibarilə tamamilə insandır və onu insanlardan fərqləndirən əsas əlamət bir gözünün olmasıdır. Bu göz xüsusi mənaya malik obrazdır. Çünki o, insanlarda olduğu kimi, nə sifətin sağında, nə də solunda yerləşir: Təpəgözün gözü alnının ortasındadır. Deməli, o, xüsusi yaradılışdır.

Təpəgözün varlığının bütün dəhşəti və vəhşəti onun gözündədir. Çünki bütün dünyanın qədim xalqlarının düşüncəsində (mifologiyasında) qoşalığa (ikiliyə, cütlüyə) əks olan təklik şərin – xaosun əlaməti sayılmışdır. Təpəgözün ən zəif nöqtəsi onun gözü olduğu kimi, Qrendelin də ən zəif nöqtəsi onun qoludur. Birinin ölümünə gözünün çıxarılması, o birinin ölümünə qolunun qoparılması səbəb olur. Bu halda Təpəgözün gözü və Beovulfun qolu ölüm nöqtələridir. Basat Təpəgözün ən zəif yerinin, ölüm vasitəsinin Təpəgözün gözündə olduğunu öyrəndiyi kimi, Beovulf da qabaqcadan bilir ki, Qrendelin ən zəif yeri, ölüm nöqtəsi onun qolundadır. Ona görə də qılınc döyüşünü deyil, qol döyüşünü seçir. Beovulf Qrendelin qolunu qoparandan sonra o, bütün hallarda "təkqol" varlığa çevrilir. Bununla onun şər varlıq kimi mahiyyətini ifadə edən "təklik" simvolu aşkara çıxır. Burada iki hal var:

I. Qolu qoparılmış Qrendel artıq təkqol varlıqdır;

II. Qoparılmış qolun özü də artıq tək bir qoldan ibarət varlıqdır: təkqol.

Yəni istər tək bir qolla qalmış Qrendel, istərsə də qoparılmış tək bir qoldan ibarət olan qol – hər ikisi mahiyyətcə təkqoldur. Həm də bunların hər ikisi Qrendeldir (Qrendelin varlığını bildirir): təkqollu Qrendel də, onun qoparılmış qolu da. Buradan çıxan nəticə ondan ibarətdir ki, Qrendel bütün hallarda təkqoldur: təkqol olmaq onun varlığının mahiyyətidir.

Qrendelin qoparılmış qolu sadəcə onun bədənindən qoparılmış bir üzv yox, Təpəgözün gözü kimi xüsusi, ayrıca bir varlıqdır. Bunu hər iki dastanda gözə və tək qola olan xüsusi münasibət təsdiq edir. “Kitabi-Dədə Qorqud”da Basat əvvəlcə Təpəgözün gözünü çıxarır, sonra da onun öz qılıncı ilə başını kəsir. Oğuzlar şadlıq mərasimini Təpəgözün bütöv bədəni üzərində deyil, onun başı üzərində keçirirlər. Danimarkalılar da qələbə mərasimini Qrendelin qoparılmış tək qolu üzərində qeyd edirlər. Təpəgözün başını xüsusi işarəyə çevirən onda yerləşən tək gözdür. Həmin gözün çıxarılması, kor edilməsi və üzərində yerləşdiyi başın kəsilməsi ölümü bildirir. Eləcə də Qrendelin qoparılmış qolu onun ölümünü bildirir. Demək, Təpəgözün ölümü (canı) onun tək gözündə olduğu kimi, Qrendelin də ölümü (canı) tək qolundadır. Beləliklə, tək göz və tək qol Təpəgöz və Qrendel obrazlarını tipoloji baxımdan yaxınlaşdıran, birləşdirən və ortaqlaşdıran ən mühüm mifik simvoldur.

Təpəgöz və Qrendel obrazlarını birləşdirən ən mühüm tipoloji nöqtələrdən biri də onların bədənlərinin qılınckəsməz olmalarıdır. Bu keyfiyyət şər-xaosu təmsil edən bu obrazların xüsusi işarəsidir və hər iki dastanda aparıcı epik cizgi kimi xüsusi nəzərə çarpdırılır. Maraqlıdır ki, hər iki dastandakı şər varlıqların qılınckəsməzliyi onların anası ilə bağlıdır.

Basatın Təpəgözü öldürməsi ikimərhələli proses şəklində baş tutur. Basat birinci mərhələdə süngü ilə (başqa sözlə, oxla) onun gözünü çıxarır, ikinci mərhələdə onun öz qılıncı ilə başını kəsir. Bu prosesi Qrendelin öldürülməsi prosesi ilə ortaqlaşdıran tipoloji elementlər bunlardır:

a) Təpəgözün və Qrendelin bədəninin tilsimli olması (ox batmır, qılınc kəsmir);

b) Gözün çıxarılması – qolun qoparılması motivi;

c) Xəzinə motivi;

d) Tilsimli qılınc motivi;

e) Divlərin başının öz qılıncı ilə kəsilməsi motivi.

Basat Təpəgözü öldürüb, Oğuz elinə əmin-amanlıq gətirdiyi kimi, Beovulf da sehrli qılıncın qəbzəsini xeyiri, haqqı, ədaləti təmsil edən Hrotqara verməklə Danimarkadakı qəhrəmanlıq missiyasını başa vurur. Hər iki qəhrəmanın missiyasının mifik semantika baxımından qılınc (silah) kultu ilə bağlılığı bu iki dastanı birləşdirən əsas tipoloji nöqtələrdən biridir. Təpəgözün, Qrendelin və anasının bədənlərinin qılınckəsməz olması da birbaşa silah kultu ilə bağlıdır. Hər iki dastanda baş qəhəmanların əsas hünəri sehrli qılıncı ələ keçirməkdə ifadə olunur.

Hər bir dastanda olduğu kimi, "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarında da əsas ideya xeyirlə şərin mübarizəsi və xeyirin şər üzərində qələbəsidir. Bu, dünya eposlarını birləşdirən əsas ideya, ana leytmotiv olduğu kimi, bu iki dastanı da birləşdirir. Əslində, şərin xeyirə qarşı mübarizəsi bəşər düşüncəsinin mayasını təşkil edir. Bütün dünya xalqlarının yaradılış miflərinin əsasında bu ideya durur.

"Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanları da xeyirlə şərin mübarizəsi və xeyirin şər üzərində qələbəsini təsdiq etməklə bütün dünyada, bəşər aləmində xeyirin, insanlığın, humanizmin tərənnümünə, şərin inkarına xidmət edir. Hər iki dastanda xeyiri və şəri təmsil edən obrazlar milli boyalara malik olduğu kimi, ümumi, tipoloji cizgilərə də malikdirlər.

Təpəgöz anadan olan kimi şər-ziyanxor işlərə başlayır. Onun ilk qurbanları süd anaları, oynadığı uşaqlar olur. Adamyeyənlik Təpəgözün missiyasıdır. Əgər dayandırılmasa, Təpəgöz bu qayda ilə Oğuzdakı insanları yeyib qurtaracaqdır. Bu da onun şər missiyasının şəxsi deyil, ictimai bir missiya olduğunu, bütün cəmiyyətə qarşı yönəldiyini göstərir. "Beovulf" dastanında da Qrendelin təcavüzü

Danimarka cəmiyyətinə qarşı yönəlib. O, çöldə-bayırda əlinə keçən insanları yemir, birbaşa Herot sarayına hücum edir. Bu saray kralın və dövləti idarə edən digər insanların yığışdığı mərkəzdir. Qrendel bura hücum etməklə, əslində, birbaşa Danimarka xalqı və dövlətinin "ürəyini" məhv etmək istəyir. Əgər onun məqsədi yalnız adam əti ilə qidalanmaq olsa idi, onda o, çöl-bayırda rast gəldiyi adamları ovlayıb-yeyərdi. Demək, məsələ təkcə qidalanmaqla bağlı deyil. Onun təcavüzü Danimarka cəmiyyətinə qarşı yönəlib. Əgər ictimai şəri təmsil edən bu vəhşilər dayandırılmasa, hər iki xalq tamamilə məhv olacaqdır. Bu yerdə qəhrəmanlar səhnəyə çıxır və düşmənləri məhv edirlər. Bu da öz növbəsində Basat və Beovulfun qəhrəmanlığının ictimai xarakter daşıdığını nümayiş etdirərək, onları dünya epik qəhrəmanlıq tarixinin ən möhtəşəm obrazlarına çevirir.

# ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. Abdulla, B. İslam dini // – Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. – Bakı: Öndər, – 2004. – s. 176-178.

2. Abdulla, B. Salur Qazan (tarix, yoxsa mif...) / B.Abdulla. – Bakı: Ozan, – 2005. – 232 s.

3. Abdulla, K. Gizli Dədə Qorqud / K.Abdulla. – Bakı: Yazıçı, – 1991. – 152 s.

4. Abdulla, K. Alliterasiya // – Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. – Bakı: Öndər, – 2004. – s. 23

5. Abdulla, K. Mifdən Yazıya və yaxud gizli Dədə Qorqud / K.Abdulla. – Bakı: Mütərcim, – 2009. – 376 s.

6. Abdullayev, C. "Dədə Qorqud"dakı şeirlər barədə... // "Kitabi-Dədə Qorqud" – 1300. Filoloji araşdırmalar. IX kitab. – Bakı: AAMM, – 1999. – s. 92-102.

7. Abdullayeva, M.Y. Azərbaycan folklorunun regional xüsusiyyətləri (Şəki-Zaqatala folklor nümunələri əsasında): / filologiya elmləri namizədi dissertasiyasının avtoreferatı / – Bakı, 1999. – 27 s.

8. Adışirinov, N. Nikolay Roşiyanunun ənənəvi formulları işığında "Dədə Qorqud kitabı"nda "Dirsə xan oğlu Buğac bəy boyu"na bir nəzər // – Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. – XXX kitab. – Bakı: Nurlan, – 2011. – s. 3-14.

9. Adışirinov, N. Epik qəhrəmanın bioqrafiyasının quruluşuna yönələn formullar // "Dədə Qorqud" jurnalı, – 2011. – № 4, – s. 84-91.

10. Anar. Sizsiz / Anar. – Bakı: Gənclik, – 1992. – 592 s.

11. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. – I cild / tərt. ed. T.Fərzəliyev, M.Qasımlı. – Bakı: Sabah, – 1994. – 388 s.

12. Babayev, R. Janrın iddiası və imkanları / R.Babayev. – Bakı: ADPU nəşriyyatı, – 2014. – 135 s.

13. Bayat, F. Oğuz epik ənənəsi və "Oğuz kağan" dastanı / F.Bayat. – Bakı: Sabah, – 1993. – 194 s.

14. Bəydili (Məmmədov), C. Qorqut Ata / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. – Bakı: Öndər, – 2004. – s. 221-229.

15. Cəfərli, M. Azərbaycan məhəbbət dastanlarının struktur poetikası / M.Cəfərli. – Bakı: Elm, – 2000. – 404 s.

16. Cəfərov, N. Eposdan kitaba / N.Cəfərov. – Bakı: Maarif, – 1999. – 220 s.

17. Cəfərov, N. Azərbaycanşünaslığa giriş / N.Cəfərov. – Bakı: AzAtaM, – 2002. – 600 s.

18. Cəmşidov, Ş. "Kitabi-Dədə Qorqud"u vərəqləyərkən / Cəmşidov Ş. – Bakı: Gənclik, – 1969. – 99 s.

19. Coşğun, J. Türk və slavyan sehrli nağıllarında başlanğıc formullar // – Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. – XL kitab. – Bakı: Elm və təhsil, – 2012. – s. 161-166.

20. Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. – Bakı: Öndər, – 2004. – 368 s.

21. Dits, H.F. Homerin Siklopu ilə müqayisədə yeni aşkar edilmiş Oğuz / Folklor və etnoqrafiya, – 2014. – № 03-04. – s. 3-17

22. Əbülqazi, Bahadır xan. Şəcəreyi-Tərakimə (Türkmənlərin soy kitabı) / B.Əbülqazi / rus dilindən tərcümə edən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. – Bakı: Azərbaycan Milli Ensiklopediyası N-PB, – 2002. – 146 s.

23. Əlibəyzadə, E. Kitabi-Dədə Qorqud / E.Əlibəyzadə. – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 1999. – 332 s.

24. Əliyev, H. Milli varlığımızın mötəbər qaynağı / Dədə Qorqud dünyası. – Bakı: Öndər, – 2004. – s. 6-17

25. Əliyev, K. Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu" / K.Əliyev. – Bakı: Elm və təhsil, – 2011. – 164 s.

26. Əliyev, O. Azərbaycan nağıllarının poetikası / O.Əliyev. – Bakı: Səda, –

2001. – 192 s.

27. Əliyev, S. P.Mirabel: "Dədə Qorqud kitabı" və orta əsr Avropa eposlarında işlənmiş ümumi motivlər və oxşar ifadə vasitələri / Dədə Qorqud dünyası. – Bakı: Öndər, – 2004. – s. 190-211.

28. Əndəlib. Oğuznamə / Əndəlib. – Azərbaycan türkcəsinə çevirən, nəşrə hazırlayan və ön sözün müəllifi İ.Osmanlı. – Bakı: Ulu, – 2010. – 76 s.

29. Hacıyev, A. Azərbaycan eposunun nümunələri və türk dastan ənənələri // "Ortaq Türk Keçmişindən Ortaq Türk Gələcəyinə" Uluslararası folklor konfransının materialları. – II kitab. – Bakı: Səda, – 2004. – s. 8-10.

30. Hacıyev, T. Orxon dastanlarının şeir sənətkarlığı // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. – XV kitab. – Bakı: Səda, – 2004. – s. 3-54.

31. Hacıyev, T. Orxon-Yenisey kitabələri: janr xüsusiyyətləri // "Dədə Qorqud" jurnalı, – 2004. – № 1, – s. 29-47.

32. Hacıyev, T. "Dədə Qorqud" dünənimizin keçmişidir // "Dədə Qorqud" jurnalı, – 2004. – № 2. – s. 12-16.

33. Hacıyev, T. Bir daha "Dədə Qorqud kitabı"nın şeiri haqqında // "Dədə Qorqud" jurnalı, – 2005. – № 1. – s. 3-16.

34. Hacıyev, T. "Dədə Qorqud kitabı" ilk yazılı yaddaşımızdır // Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. – Bakı: Öndər, – 2004. – s. 4-16.

35. Həqqi, B. "Koroğlu" – tarixi-mifoloji gerçəklik / B.Həqqi. – Bakı: Nurlan, – 2003. – 316 s.

36. Hüseynoğlu, K. Azərbaycan xalq şeirinin qaynaqları və inkişaf yolları // Azərbaycan ədəbiyyatının tarixi poetikası. Poetik fikrin təkamülü. – II kitab. – Bakı: Elm, – 2006. – s. 19-60.

37. Xəlil, A. Kamran Əliyevin araşdırmalarında epos poetikasının problemləri // Eposşünaslıq: problemlər, mülahizələr. – Bakı: Elm və təhsil, – 2013. – s. 146-171.

38. Xəlilli, Ş. Azərbaycan-ingilis ədəbi əlaqələri (folklor materialları əsasında) / Ş.Xəlilli. – Bakı: Azərbaycan Milli Ensiklopediyası N-PB, – 2002. – 216 s.

39. Xudiyeva, A. Anqlo-sakson və Azərbaycan eposunda demonik obraz

adlarının folklor semantikası: Qrendal və Təpəgöz // “Dədə Qorqud” jurnalı, – 2019. – № 3. – s. 38-44

40. İmaməliyev, E.Q. Türk yaradılış mifləri və Azərbaycan əfsanələri / (filologiya üzrə fəlsəfə doktoru dissertasiyası) / – Bakı, 2015. – 153 s.

41. İsgəndərova, V. Ənənəvi nağıl formulları (Azərbaycan və Türkiyə nağılları əsasında) // “Dədə Qorqud” jurnalı, – 2011. – № 2, – s.95-104.

42. İslamzadə, A. Oğuz epik ənənəsində Qazan xan obrazı: / filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya / – Bakı, 2013. – 177 s.

43. İsmayılova, Y. “Koroğlu” dastanında obrazlar sistemi / Y.İsmayılova. – Bakı: Nurlan, – 2003. – 174 s.

44. İsmayılova, Y. “Dədə Qorqud kitabı” və müasir Azərbaycan ədəbi düşüncəsi / Y.İsmayılova. – Bakı: Elm, – 2011. – 368 s.

45. Kamal, R. “Kitabi-Dədə Qorqud”: nitq janrları və davranış poetikası / R.Kamal. – Bakı: Nurlan, – 2013. – 148 s.

46. Kazımoğlu, M. Xalq gülüşünün poetikası / M.Kazımoğlu. – Bakı: Elm, – 2006. – 268 s.

47. Kitabi-Dədə Qorqud / tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə F.Zeynalov və S.Əlizadə. – Bakı: Yazıçı, – 1988. – 265 s.

48. Koroğlu / tərtib edəni M.Təhmasib. – Bakı: Az. SSR EA Nəşriyyatı, – 1959. – 508 s.

49. Koroğlu, X. Oğuz qəhrəmanlıq eposu / X.Koroğlu. – Bakı: Yurd, – 1999. – 244 s.

50. Qafarlı, R. Oğuz-türk mifologiyasında sakral rəqəmlər // “Dədə Qorqud” jurnalı, – 2006. – № 4, – s. 49-63.

51. Qafarov, R. Azərbaycan türklərinin mifologiyası (qaynaqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası): / filologiya üzrə elmlər doktoru dissertasiyasının avtoreferatı / - Bakı, 2010. – 59 s.

52. Qarayev, S.P. Azərbaycan folklorunda mifoloji xaos: / filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. – Bakı, 2015. – 192 s.

53. Qarayev, Y. Bütün xalqların və dövrlərin kitabı // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. – X kitab. – Bakı: Səda, 2001. – s. 4-10.

54. Qasımov, C. Azərbaycan folklorşünaslığı və sovet totalitarizmi / C.Qasımov. – Bakı: Nurlan, – 2011. – 600 s.

55. Quliyev, H.V. Azərbaycan folklorunda müdrik qoca arxetipi: / filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. – Bakı, 2015. – 193 s.

56. Quliyev, T. "Kitabi-Dədə Qorqud" dastanı və qədim türk şeirində vəzn və qafiyə / Dədə Qorqud - 1300. – Bakı: Bakı Universiteti Nəşriyyatı, – 1999. – s. 198-208.

57. Məmmədova, A. "Dədə Qorqud kitabı"nın leksikası / A.Məmmədova. – Bakı: Nurlan, – 2009. – 390 s.

58. Mənzum Oğuznamə / qədim türkcədən çevirən və ön sözün müəllifi İ.M.Osmanlı. – Bakı: Ulu, – 2005. – 84 s.

59. Mirobil, P. Dədə Qorqud kimdir / ingilis dilindən tərcümə edən Seyran Əliyev // "Dədə Qorqud" jurnalı, – 2007. – № 1, – s. 20-49.

60. Mirobil, P. Stilistik müqayisə: Avropa-Türk motivləri və formulları / ingilis dilindən tərcümə edən Seyran Əliyev // "Dədə Qorqud" jurnalı, – 2007. – № 2, – s. 3-20.

61. Mustafayeva, K. "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarının semantik strukturu və rəng bildirən sözlərin simvolik mənası / / (filologiya üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı) / – Bakı, 2018. – 27 s.

62. Naxçıvan folkloru antologiyası. – I cild / tərtib edənlər M.Cəfərli, R.Babayev. – Naxçıvan: Əcəmi, – 2010. – 512 s.

63. Namazov, Q. Azərbaycan aşıq sənəti / Q.Namazov. – Bakı: Yazıçı, – 1984. – 192 s.

64. Nəbiyev, B., Qarayev, Y. Xalq mənəviyyatının güzgüsü ("Kitabi-Dədə

Qorqud") / B.Nəbiyev., Y.Qarayev. – Bakı: Elm, – 1999. – 32 s.

65. Nərimanoğlu, K.V. Dil // Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. – Bakı: Öndər, – 2004. – s. 111-112.

66. Nərimanoğlu, K.V. Formul nəzəriyyəsi // Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. – Bakı: Öndər, – 2004. – s. 153-158.

67. Nərimanoğlu, K.V. Şeir və nəsr // Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. – Bakı: Öndər, – 2004. – s. 310-315

68. Nəsirova, G.İ. "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarında mifoloji obrazlar: / (filologiya üzrə magistr dərəcəsi almaq üçün təqdim edilmiş magistrlik dissertasiyası) / – Bakı, 2015. – 75 s.

69. Oğuznamələr / işləyib çapa hazırlayanlar K.V.Nərimanoğlu və F.Uğurlu. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 1993. – 94 s.

70. Rəşidəddin. Oğuznamə / Anadolu türkcəsindən Azərbaycan dilinə çevirən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. – Bakı: Azərbaycan Milli Ensiklopediyası N-PB, – 2003. – 108 s.

71. Rzasoy, S. Oğuz mifologiyası / S.Rzasoy. – Bakı: Nurlan, – 2009. – 363 s.

72. Rzasoy, S. Azərbaycan eposu etnopoetik yanaşma müstəvisində // Eposşünaslıq: problemlər, mülahizələr. – Bakı: Elm və təhsil, – 2013. – s. 127-145.

73. Sadıqov, İ.H. Şumer epik mətnləri və türk xalq yaradıcılığı ənənələri: / filologiya üzrə elmlər doktoru dissertasiyası. – Bakı, 2013. – 295 s.

74. Sultanlı, Ə. "Dədə Qorqud" dastanı haqqında qeydlər (Dördüncü məqalə) // Bakı: Azərbaycan Dövlət Universitetinin Elmi əsərləri. – 1959. № 4, – s. 3-12.

75. Seyidov, M. Azərbaycan mifik təfəkkürünün qaynaqları / M.Seyidov. – Bakı: Yazıçı, – 1983. – 326 s.

76. Tanrıverdi, Ə. "Kitabi-Dədə Qorqud"un obrazlı dili / Ə.Tanrıverdi. – Bakı: Nurlan, – 2006. – 144 s.

77. Tanrıverdi, Ə. "Dədə Qorqud kitabı"nın dil möcüzəsi / Ə.Tanrıverdi. – Bakı: Nurlan, – 2008. – 184 s.

78. Tanrıverdi, Ə. "Dədə Qorqud kitabı"nın obrazlar aləmi / Ə.Tanrıverdi. – Bakı: Nurlan, – 2013. – 392 s.

79. Tanrıverdi, Ə. Çal qılıncını, xan Qazan! (“Dədə Qorqud kitabı”nda silah adları) / Ə.Tanrıverdi. – Bakı: Elm və təhsil, – 2015. – 192 s.

80. Təhmasib, M.H. Azərbaycan xalq dastanları (orta əsrlər) / M.H.Təhmasib. – Bakı: Elm, – 1972. – 400 s.

81. Vəliyev, V. Azərbaycan folkloru / V.Vəliyev. – Bakı: Maarif, – 1986, – 416 s.

82. Vəliyeva, R. “Beovulf” dastanının süjet tipologiyası // Sivilizasiya, Elmi-nəzəri jurnal, – Bakı Avrasiya Universiteti. – Bakı: 2016, – № 1. – s. 88-94.

83. Vəliyeva, R. Heydər Əliyev və “Kitabi-Dədə Qorqud” dastanı // Azərbaycanşünaslığın Aktual Problemləri. Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş IV Beynəlxalq elmi konfransın materialları, 01-04 may, 2013-cü il. – Bakı, Azərbaycan. – s. 568-570.

84. Vəliyeva, R. Kitabi-Dədə Qorqud” dastanında qəhrəman və cəmiyyət münasibətləri // Axtarışlar. AMEA Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. – cild 4. – 2012, № 6. – s. 17-22.

85. Vəliyeva, R. “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarında Təpəgöz və Qrendel obrazlarının tipologiyası // Axtarışlar. AMEA Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. – cild 5. – 2015, № 1. – s.30-34.

86. Vəliyeva, R. “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarında Təpəgöz və Qrendel obrazlarının şərin təmsilçiləri kimi tipoloji xüsusiyyətləri // Elmi Əsərlər. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Qızlar Universiteti. – Bakı, 2019. – cild 10, – № 2. – 2019 (38), – s.38-42.

87. Vəliyeva, R. “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarında Təpəgöz və Qrendel obrazlarının yaranış tipologiyası // Azərbaycan Elminin və Təhsilinin Müasir Problemləri mövzusunda Beynəlxalq Elmi Konfransın materialları, – 25 May 2019-cu il, – Qazax şəhəri, – Bakı, 2019. – s. 379-384.

88. Vəliyeva, R. “Kitabi-Dədə Qorqud” və “Beovulf” dastanlarında qəhrəman obrazının tipologiyası // Dil və Ədəbiyyat. Beynəlxalq Elmi və Nəzəri jurnal, 2(110), – Bakı, 2019. – s. 253-255.

89. Vəliyeva, R. Tək göz və tək qol xaosun atributu kimi // Filologiya məsələləri. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu, – Bakı: 2018. – № 1. – s.335-343.

90. Zeynalov, F., Əlizadə, S. Tükənməz xəzinə / Kitabi-Dədə Qorqud. Müqəddimə / tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadə. – Bakı: Yazıçı, – 1988, – s. 5-28.

**Türk dilində**

91. Bayat, F. Korkut Ata. Mitolojiden gerçekliğe Dede Korkut / F.Bayat. – Ankara: Kara M, – 2003. – 89 s.

92. Koroğlu, H. Depegöz ve Polifem // «Milli Folklor» Dergisi, – Ankara, 1998. – yılı 10, Sayı 37, – s. 39-46.

93. Özkan, T.S. Bamsı Beyrek ve Bey Böyrek anlatılarında arketipik imgeler // “Milli Folklor” Dergisi, – Ankara, 2010. – № 85, – s. 81-90.

94. Tunçdöken, F. Dede Korkut Hikâyeleri ile Beowulf Destanı’nda Yer Alan Toplumsal Hayata Ait Motiflerin Saptanması ve Karşılaştırılması / Yüksek lisans tezi. – Bursa, 2009. – 274 s.

95. Üçüncü, K. Tepegöz Masalının Trabzon Varyantı Üzerine Bir Değerlendirme / Uluslararası Tarih-Dil-Edebiyat Sempozyumu, – II cilt. – Trabzon: 2001. – s. 53-58

**Rus dilində**

96. Бернштам, А.Н. Эпоха возникновения великого киргизского героического эпоса «Манас» // Киргизстан. Литературно-художественный альманах. – Фрунзе: 1946. – с. 139-149.

97. Боура, С.М. Героическая поэзия / С.Боура. – Москва: Новое литературное обозрение, – 2002. – 808 с.

98. Валиханов, Ч. Следы шаманства у киргизов / Собрание сочинений: [В пяти томах]. – Алма-Ата: Главная Редакция Казахской Советской Энциклопедии, – т. 4. – 1985. – с. 48-70.

99. Велиева, Р. Типология образа мудреца в эпосах «Книга моего деда Коркута» и «Беовулф» // Вестник Казахского Националъного Педагогический Университет им. Абая. – Серия филологическая, – Алматы, №3 (57). – 2016. – с.122-126.

100. Велиева, Р. Мотивы «родословной» и «расхищения» и их типология в эпосах «Книга моего деда Коркута» и «Беовульф» // Материалы X международной научно-практической конференции на тему «Научные исследования в сфере гуманитарных наук: открытия XXI века». Министерство Науки и Высшего Образования Российской Федерации. Пятигорский Государственный Университет. – Пятигорск, РФ . 19-20 декабря. – 2019. – с. 30-37

101. Гуревич, А.Я. Бе́овульф / Мифы народов мира: [В 2-х томах]. – Москва: Советская энциклопедия, – том 1. – 1980. – с. 168

102. Жирмунский, В. Народный героический эпос / В.Жирмунский. – Москва-Ленинград: Наука, – 1962. – 334 с.

103. Жирмунский, В.М. Тюркский героический эпос / В.Жирмунский. – Ленинград: Наука, – 1974. – 727 с.

104. Иванов В.В. Глаз / Мифы народов мира: [В 2-х томах]. – Москва: Советская энциклопедия, – том 1. – 1980. – с. 306-307

105. Иванов В.В. Дракон / Мифы народов мира: [В 2-х томах]. – Москва: Советская энциклопедия, – том 1. – 1980. – с. 394-395

106. Иванов, В.В. Солярные мифые / Мифы народов мира. В 2-х томах. Том 2. Москва: Советская энциклопедия, 1982, с. 461-462

107. Кемпбелл, Дж. Маски Бога / Дж.Кемпбелл. – Москва: Золотой Век, – 1997. – 311 с.

108. Короглы, Х. Туркменская литература / Х.Короглы. – Москва: Наука, – 1972. – 286 с.

109. Короглы, Х. Депегез и полифем // Советская тюркология, – Баку: –

1989. – № 4, – с.76-83.

110. Мелетинский, Э.М. Поэтика мифа / Э.Мелетинский. – Москва: Наука, – 1976. – 407 с.

111. Мелетинский, Е.М. Культурный герой // Мифы народов мира. 2-е изд. М.,2008. с. 566.

112. Мифология / авторский коллектив: Дорохина Л.Н., Макаревич В.М., Широнина Е.В., Шокарев С.Ю., Шуйская Ю.В., составитель Е.С.Иванова. – Москва: РОСМЭН, – 2011. – 96 с.

113. Неклюдов, С.Ю. Оборотничество / Мифы народов мира: [В 2-х томах]. – Москва: Советская энциклопедия, – том 2. – 1982. – с. 234-235

114. Путилов, Б.Н. Героический эпос и действительность / Б.Н.Путилов. – Ленинград: Наука, – 1988. – 225 с.

115. Путилов, Б.Н. Сюжет / Свод этнографических понятий и терминов. – Москва: Наука, – 1991. – с. 121-123.

116. Седов, Л.А. Рождение / Мифы народов мира: [В 2-х томах]. – Москва: Советская энциклопедия, – том 2. – 1982. – с. 385-386.

117. Топоров, В.Н. Заговоры и мифы / Мифы народов мира: [В 2-х томах]. – Москва: Советская энциклопедия, – том 2. – 1982. – с. 450-452.

118. Топоров, В.Н. Космогонические мифы / Мифы народов мира: [В 2-х томах]. – Москва: Советская энциклопедия, – том 2. – 1982. – с. 6-9.

119. Турсунов, Е.Д. Тюрко-монгольские версии сказания об ослеплении циклопа // журнал «Советская тюркология», – Баку: 1975, – № 3. – с. 36-43.

120. Фохт, У. Типологические связи // Словарь литературоведческих терминов. – Москва: Просвещение, – 1974. – с. 414-416

121. Халил, А.С. О проблематике письменности и жанрого состава огузского эпоса (на материале «Книги Деде Коркута») // Тюркологический сборник. Вып. II, Материалы Международной тюркологической конференции «Языки и литература тюркских народов: история и современность». – Елабуга: 2004, – с. 227-234

122. Юнг, К.Г. Либидо, его метаморфозы и символы / К.Л.Юнг. – Санкт-Петербург: Восточно- Европейский Институт Психоанализа, – 1994. – 416 с.

**İngilis dilində**

123. Ahmadoghlu, A.Ali. A Comparative Study of The Concepts of Mortality and İmmortality İn Beowulf and The Book of Dede Korkut: / A Thesis Submitted to Department of English and the Committee on Graduate Studies of Islamic Azad University In Partial Fulfillment of the Requirements for the Degree of Master of Arts (M. A.) in English Literature / – Tabriz, Iran, December, – 2005. – 137 p.

124. Alvin, A. Lee. Gold-Hall and earth-dragon: Beowulf as metaphor / A.L.Alvin. – Toronto: Buffalo, – University of Toronto Press, – 1998. – pp.113-115

125. Ashliman, D.Lee. Fairy Lore: a handbooks. – London: Greenwood press, 2006. – 229 p.

126. Baker, Peter S. Beowulf: Basic Readings. – New York: Garland Pub., – 1995. – 306 p.

127. Beowulf: a Prose Translation: Backgrounds and Contexts, Criticism / translate E.Talbot Donaldson. – New York: WWW Norton & Company, – 1975. – 198 p.

128. Bjork, R.E. A Beowulf handbook. – Lincoln: University of Nebraska Press, – 1997. – 466 p.

129. Deskis, S.E. Beowulf and the medieval proverb tradition // Medieval and Renaissance Texts and Tempe. – Arizona: Arizona Center for Medieval and Renaissance studies, – 1996. – 178 p.

130. Earl, J.W. Thinking about Beowulf / J.W.Earl. – Stanford: Stanford University Press, – 1994. – 204 p.

131. Heaney, S. Beowulf: A new translation. – London: Faber and Faber, – 1999. – 106 p.

132. Hill, M. John. The Cultural World in Beowulf / M.J.Hill. – Toronto: University of Toronto Press, – 1995. – 224 p.

133. Klaeber, F. Beowulf and the fight at Finnsburg / F.Klaeber. – Boston: DC. Heath, – 1950. – 471 p.

134. Lawrence, W.W. Beowulf and Epic Tradition / W.Lawrence. – New York: Hafner, – 1961. – 365 p.

135. Mirable, P. The Book of the Oghuz peoples or Legends Told and by Dede Korkut. – Istanbul: Voies Itinerantes, – 1990. –321 p.

136. Nevzat, A. A Critical Analysis of The Theme of The Heroic İdeal in Beowulf and The Book of Dede Korkut / A.Nevzat. – Ankara: Hagettepe University, 1990. – 345 p.

137. Niles, D. John. Beowulf: The Poem and İts Tradition / D.J.Niles. – Cambridge: Harvard University Press, – 1983. – 226 p.

138. Parker, M.A. Beowulf and Christianity. – New York: Lang, – 1987. – 178 p.

139. Puhvel, M. Beowulf and Celtic Tradition. – Waterloo: University Press, – 1979. – 142 p.

140. Rauer, C. Beowulf and the dragon: parallels and analogues D.S. / C.Rauer. – Brewer Cambirdge: Roch, – 2000. – 229 p.

141. Risden, E.L. Beasts of time: apocalyptic Beowulf / E.Risden.– New York: P. Lang, – 1994. – 185 p.

142. Sisam, K. The Structure of Beowulf. – New York: Medieval Academy of America, – 1965. – 234 p.

143. Shippey, T.A. Beowulf. – London: Edward Arnold, – 1978. – 64 p.

144. Shipley, T.A. Beowulf: the critical heritage. – London, New York: Routledge, – 1998. – 612 p.

145. Stitt, J Michael. Beowulf and the bear's son: epic, saga, and fairytale in Northern Germanic tradition. – New York: Garland Pub., – 1992. – 247 p.

146. Taflı, H. A Comparative Study of The Belief Systems in Beowulf and Dede Korkut. – Ergiyez University, – 2006. – 234 p.

147. The Book of Dede Korkut / translated, with an Introduction and Notes by Geoffrey Lewis. – London: Penquin, – 1974. – 213 p.

148. Tolkien, J.R.R. Beowulf and Critics // Medieval and Renaissance studies. – volume 248. – Arizona: Arizona Center for Medieval and Renaissance studies, – 2002. – 461 p.

149. Trask, R.M. Beowulf and Judith: two heroes. – Lanham: University Press of America, – 1997. – 240 p.

## İnternet resursları

150. Беовульф // Википедия. – URL:/ ru.wikipedia.org/wiki/Беовульф

151. История и легенда: Персонажи / материал подготовлен Мариной Лущенко. – URL: http://www.russianplanet.ru/filolog/epos/beowulf/sources.htm

152. История манускрипта // Беовульф. Англосаксонский эпос. / составители А.М.Волков и З.Н.Волкова. – Москва, 2000 – URL: http://www. russianplanet.ru/filolog/epos/beowulf/history.htm

153. Личные имена в эпосе "Беовульф": персонажи, география, мечи. – URL: http://www.russianplanet.ru/filolog/epos/beowulf/vocab.htm

154. Пересказ эпоса "Беовульф" / материал подготовлен М.Лущенко. – URL: http://www.russianplanet.ru/filolog/epos/beowulf/pereskaz.htm

155. Стихосложение и стиль "Беовульфа" // Беовульф. Англосаксонский эпос / А.М. Волкова и З.Н. Волковой. Москва, 2000. – URL: http://www.russi an planet. ru/filolog/epos/beowulf/style.htm

156. Beowulf: An Anglo-Saxon Epic Poem. Translated from The Heyne-Socin Text by JNO: Lesslie Hall, Ph. D. (J.H.U.). Professor of English and History in The College of William and Mary. D.c. Heath & Co., publishers. Boston – New York – Chicago, – 110 p. URL:/ www.gutenberg.org/files/16328/.../16328-h.ht...

157. The Adventures of Beowulf / by David Breeden. – Minneapolis, Minnesota, USA. – Publisher: Anhaga Press, – 2010. – 138 pages. – URL: mass76meeti ng.wernekendesign.com/the-adventures-of-beowulf-bvbnfer.pdf